www.musavat.com

# YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 15 noyabr 2016-cı il Çərşənbə axşamı № 253 (6574) Qiymәti 60 qəpik

**Xəbər**

## Göyçayda 26 yaşlı qızı qardaşı qətlə yetirdi

yazısı səh.14-də

**Gündəm**

### Lələtəpə xəbərdarlığı Ermənistanı təşvişə saldı



Düşmən ölkə Azərbaycanı mühakimə etmək üçün beynəlxalq təşkilatlara müraciət etməyə başladı; **Zahid Oruc:** "Qarabağ cəbhəsində növbəti savaş lokal olmaya bilər..."

yazısı səh.11-də

### İŞİD Bakı yolunda-terrorçuların başqa ölkələrə sızma təhlükəsi var

yazısı səh.6-da

### Moskva İrəvana müasir silahlar verdi

yazısı səh.8-də

### Qərb Rusiyaya uduzurmu...

yazısı səh.9-da

### Xədicə İsmayıl Qubad İbadoğluna hücum etdi - qalmaqal

yazısı səh.3-də

### Akif Çovdarov məhkəməyə oksigen balonuna qoşulmuş halda gətirildi

yazısı səh.5-də

### Trampdan Qarabağa ədalət gözləyəkmi...

yazısı səh.7-də

### Rusiya kriminalının yeni bosu- qızıl medallı "Tyurik" kimdir?

yazısı səh.13-də

### "İlin sonuna qədər hər gün manatın məzənnəsində yeni rekordlar görəcəyik"

yazısı səh.12-də

### Genetik xəstəliklər gen dəyişməsi yolu ilə müalicə oluna bilər

yazısı səh.14-də

### Banklar reytinq agentliklərindən imtina edir - səbəb

yazısı səh.15-də

### Deputat Mirzəcan Xəlilovla ustalar arasında borc qalmaqalı davam edir

yazısı səh.4-də

## "Rabitə çetesi" MTN üçün yığılan pulları necə bölürmüş?

# ELDAR MAHMUDOV RABİTƏ NAZİRLİYİNDƏ "OBŞAK" QURUBMUŞ-İFŞA

MTN-lə rüşvət əlaqələrində açar rolu oynamış Vidadi Zeynalovun şok ifadəsi yayıldı; telefon şantajının qurbanlarından alınan pullar məhz Rabitə Nazirliyində toplanıb, sonra isə generallara ötürülüb




yazısı səh.5-də

## Bakıdan savaş hədəsi, Kremldən "ortaq ordu" təsəllisi - işğalçı qorxu və ümid arasında...

Prezidentin cəbhə xəttindən düşmənə verdiyi sərt xəbərdarlıq mesajları hədəfə dəyib; seçim yenə Ermənistanındır: sülh istəməsə, müharibə alacaq; Moskva erməni silahlı qüvvələrinə daha yaxşı nəzarət mexanizmi hazırlayır?..

yazısı səh.8-də



### İlqar Məmmədov üçün kritik həftə-hakimiyyət onu azad edəcəkmi?

yazısı səh.5-də



*Hikmət Hacızadə:*

### "Elə bilirdim ki, Amerika avaranı seçməz; amma seçdilər də..."

yazısı səh.4-də



### Hadı Rəcəbli Lənkəranda özünə heykəl qoydurub

yazısı səh.10-da

YENİ MÜSAVAT
N 253 (6574) 15 noyabr 2016



## Prezident Horadizdə binaların təmirinə 3 milyon manat ayırdı

**Prezident İlham Əliyev Horadiz şəhərində çoxmənzilli binaların əsaslı təmiri ilə bağlı tədbirlər haqqında sərəncam imzalayıb. "APA-Economics"in məlumatına görə, Horadizdə abadlıq-quruculuq işlərinin davam etdirilməsi, habelə şəhərin mənzil fonduna daxil olan 27 çoxmənzilli binanın əsaslı təmiri məqsədi ilə 2016-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Füzuli Rayon İcra Hakimiyyətinə 3,0 (üç) milyon manat ayrılıb.**





## Azərbaycan ordusunun irimiqyaslı təlimləri davam edir

**Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin təsdiq etdiyi plana əsasən Silahlı Qüvvələrin noyabrın 12-də başlayan irimiqyaslı təlimləri davam edir. Bu barədə Azərbaycan Müdafiə Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

Səhra şəraitində qoşunların idarəolunması və silahların döyüş tətbiqinin yoxlanılması məqsədilə keçirilən təlimlər noyabrın 18-də yekunlaşacaq.

İrimiqyaslı təlimlərə Hərbi Dəniz Qüvvələrinin gəmi və katerləri cəlb olunub.

Müdafiə Nazirliyinin mətbuat xidmətindən APA-ya verilən məlumata görə, təlimlərdə iştirak edən gəmilərin və şəxsi heyətin ümumi hazırlığı, Xəzər dənizinin Azərbaycana mənsub hissəsində əməliyyat şəraiti və HDQ-nin idarə olunması yoxlanılıb.

Təlimlərin ilkin mərhələsində HDQ-nin tam döyüşə hazır vəziyyətə gətirilməsi, gəmi qruplarının, hissə və bölmələrin cəmləşmə rayonlarına çıxışı, komplektləşdirmə və döyüş uzlaşması tədbirləri müvəffəqiyyətlə yerinə yetirilib.

Təlimlərin gəmi və katerlərinin cəlb olunması ilə keçirilən mərhələsinin məqsədi Xəzər dənizinin əməliyyat zonasında enerji infrastrukturunun mühafizəsi, terror diversiya qrupu tərəfindən ələ keçirilmiş gəminin, helikopterdən endirilmiş xüsusi təyinatlılar tərəfindən azad edilməsi və tapşırıqların yerinə yetirilməsi zamanı digər qoşun növləri ilə uzlaşdırılmış birgə fəaliyyətlərin icrasından ibarətdir.

"Qaya Mətbuat Yayımı" MMC!
**- İstənilən qəzet və jurnallar həm də sərfəli qiymətə:**
- Əgər siz qəzet və jurnalların rahatlıqla evinizə və ya ofisinizə çatdırılmasını;
- Mətbuatı aldıqdan sonra abunə haqqını ödəmək və bu ödənişin formasını sərbəst seçmək hüququndan istifadə etmək;
- Tirajınızda lazım gəldikdə dəyişikliklər etmək;
**Ən başlıcası ayda 26 dəfə nəşr olunan**
**"Yeni Müsavat" - 0.60 AZN**
**və bundan əlavə 2500 adda yerli**
**və xarici nəşrlər.**
- Abunə yazılmaq üçün uzağa getmək lazım deyil.
**Telefonla zəng etməyiniz kifayətdir:**
**Bakı şəh. 564-63-45; 598-35-22**
- Respublikanın digər böyük şəhərlərinə də abunə qəbul olunur.

# Tağı Əhmədov 3 milyonunu Eldar Mahmudovdan ala biləcəkmi...

## Müsadirə olunan əmlaklar zərərçəkənlər arasında bölünəcək, çatmayan hissə isə...



**Ləğv edilmiş MTN-in sabiq idarə rəisi, general-mayor Akif Çovdarov Bakı Metropolteninin keçmiş rəisi Tağı Əhmədovdan şantaj yolu ilə 3 milyon avro alıb. İstintaq materiallarına əsasən, pulu A.Çovdarova T.Əhmədovun qardaşı oğlu Əli Əhmədov çatdırıb. Hazırda Sabunçu Rayon Məhkəməsində Bakı Hərbi Məhkəməsinin sədri Həbib Həsənovun sədrliyi ilə keçirilən prosesdə bir çox zərərçəkənlər sırasında Tağı Əhmədovun da adı var.**

A.Çovdarovun əməlləri nəticəsində bu şəxslərə xeyli miqdarda zərər vurulub. Qanunda vurulmuş zərərin hansı mənbələr hesabına ödənilməsi və zərərçəkənlərin itirdiklərini qaytarmaq üçün hansı addımlar atmalı olduqlarını tanınmış hüquqşünas Müzəffər Baxışdan öyrəndik.

**"Hüquqi Dövlət" Araşdırmalar Mərkəzinin rəhbəri deyir ki, belə hallarda vurulmuş zərər əsasən təqsirləndirilən şəxsdən müsadirə olunan əmlaklar hesabına ödənilir:** "Çovdarov və digərləri həbs olunarkən onların əmlakları üzərinə həbs qoyulub. Barələrində ittiham hökmü çıxarılanda Tağı Əhmədovun da mülki iddiasına münasibət bildiriləcək. Cinayət Prosessual Məcəllənin tələblərinə görə, hökmdə də mülki iddiaya qiymət veriləcək. İddia təmin olunacaqsa, hökm qüvvəyə minəndən sonra hökmün əmlak müsadirəsi hissəsi icra olunacaq. İlk növbədə mülki iddiaçıların iddiasının təmini gerçəkləşdiriləcək. Pul vəsaiti nə qədər çatırsa, zərərçəkən şəxslərin arasında bölünəcək. Çatışmayan hissə isə Akif Çovdarovdan tutulacaq. Əgər o, həbsxanada işləyəcəksə, əldə etdiyi gəlirdən həmin şəxslərə vurduğu ziyanı ödəyəcək. Təqaüdünün 50 faizini də tutacaqlar. 30 il müddətində həmin hökmün mülki iddia hissəsinin icrası qüvvədədir. Bu müddətdən sonra icraata xitam verilir".

**M.Baxış deyir ki, A.Çovdarova qarşı mülki iddianın təmini onun yaxınlarına vərəsəlik əsasında keçən əmlaklar hesabına da gerçəkləşdirilə bilər:** "Vərəsəlik əmlak qaydasında keçən əmlakı mülki iddianın təmini obyekti ola bilər. Akif Çovdarov dünyasını dəyişərsə, onun tutaq ki, 1 milyon manatlıq evi birinci dərəcəli vərəsələrinə çatır. Həmin 1 milyon həcmində mülki iddianın ödənilməsinə həmin vərəsələr mülki-hüquqi məsuliyyət daşıyırlar".

Məşhur DİN polkovniki, adam oğurluqları, sifarişli qətllər, quldurluq cinayətlərinə görə ömürlük həbsə məhkum edilmiş Hacı Məmmədova qarşı da vaxtilə mülki iddialar qaldırılmışdı. Maraqlıdır ki, məhkəmə hökm çıxararkən həmin mülki iddiaları baxılmamış saxladı. Faktiki, H.Məmmədovun bir çox şəxslərə vurduğu ziyan ödənilməmiş qaldı. Eyni durum Akif Çovdarovun da məhkəməsində təkrarlana bilərmi?

**Vəkil deyir ki, CPM-nin tələblərinə görə mülki iddia məhkəmə istintaqı başlanana qədər verilə bilər:** "Tağı Əhmədov mülki iddianı məhkəmənin hazırlıq iclasında verdi. O, məhkəmə istintaqı başlamazdan əvvəl bunu etdi".

**Mülki iddiaçılar Akif Çovdarova birbaşa rəhbərlik etmiş, hazırda istintaqdan kənar qalan Eldar Mahmudova, Hilal Əsədova qarşı mülki iddia qaldıra bilərlərmi?**

**M.Baxış belə bir iddianın qaldırılmasının mümkün olduğunu deyir:** "Akif Çovdarovun əməllərindən zərərçəkənlər mülki icraat qaydasında Eldar Mahmudova, Hilal Əsədova qarşı iddia qaldıra bilərlər. Amma həmin iddia ilə çıxış edən sübut etməlidir ki, Akif Çovdarovun ona ziyan vurması bu şəxslərin hərəkətsizliyi və ya hansısa hərəkətləri nəticəsində baş tutub. Deyə bilər ki, həmin 3 milyonu Akif Çovdarov Hilal Əsədov, Eldar Mahmudov və digərlərinin köməyi ilə alıb. Belə bir iddia ilə də çıxış etmək olar".

❑ E.MƏMMƏDƏLİYEV



## İstanbulda güclü partlayış - yaralananlar var

**Noyabrın 14-də İstanbul şəhərində güclü partlayış olub. "Report"un Türkiyə KİV-nə istinadən verdiyi xəbərə görə, hadisə Sultanbeyli rayonunda, Akşemsettin məhəlləsində, Atatürk küçəsindəki Avtomobil Sənayesi Şəhərciyində saç boyası istehsalı ilə məşğul olan fabrikdə baş verib.**

Partlayışın səbəbləri hələlik məlum olmasa da, ərazidə yanğın baş verdiyi və onlarla insanın yaralandığı qeyd olunur.

Hadisə yerinə xeyli sayda yanğınsöndürən, təcili yardım maşınları və polis əməkdaşları cəlb olunub.



## Avropa Birliyi ali komissara Azərbaycanla danışıqlar üçün mandat verdi

**Avropa Birliyinin (AB) Şurası noyabrın 14-də Avropa Komissiyasına və qurumun xarici işlər və təhlükəsizlik siyasəti üzrə ali komissarına AB və onun üzv-dövlətləri adından Azərbaycanla hərtərəfli anlaşma sənədi ilə bağlı danışıqlar aparmaq üçün mandat verib. Musavat.com-un məlumatına görə, bu barədə təşkilatın saytında yerləşdirilmiş məlumatda bildirilir.**

"Yeni anlaşma 1996-cı ildəki tərəfdaşlıq və əməkdaşlıq sənədini əvəz etməli və daha çox AB ilə Azərbaycanın ümumi hədəfləri və problemlərini nəzərə almalıdır", - deyə məlumatda qeyd olunur.

Anlaşma 2015-ci ildə bəyənilmiş Avropa Qonşuluğu Siyasəti İnstitutunun sənədindəki prinsiplərə cavab verəcək və Azərbaycanla qurum arasında siyasi dialoq və qarşılıqlı faydalı əməkdaşlıq üçün yenilənmiş baza təşkil edəcək.

Bu gün AB ilə Azərbaycan arasında əlaqələr 1996-cı ildə imzalanan və 1999-cu ildə qüvvəyə minmiş tərəfdaşlıq və əməkdaşlıq haqda saziş əsasında tənzimlənir. Yeni anlaşma Azərbaycanın qanunvericiliyi və prosedurlarını ən mühüm beynəlxalq və ticari normalara və AB-nin standartlarına yaxınlaşdırmaq məqsədi güdür. Bu isə Azərbaycan məhsullarının AB bazarlarına çıxışını yaxşılaşdırmalıdır.

Hazırda AB Azərbaycanın əsas ticarət tərəfdaşıdır.

## Ramiz Mehdiyev Dövlət Komissiyasının rəhbəri oldu

**Azərbaycan prezidenti İlham Əliyev su anbarlarının istismar vəziyyətinin yaxşılaşdırılması ilə əlaqədar Dövlət Komissiyasının yaradılması haqqında sərəncam imzalayıb.**

Sərəncamda deyilir ki, ölkənin su, ərzaq və enerji təhlükəsizliyinin təmin edilməsində mühüm rol oynayan, dövlət əhəmiyyətli Şəmkir, Yenikənd, Mingəçevir, Varvara, Ceyranbatan və digər su anbarları uzun müddət istismar olunduğundan bu hidroqovşaqlarda mövcud problemlərin öyrənilməsi və qiymətləndirilməsi, baş verə biləcək texnogen proseslərin proqnozlaşdırılması zərurəti yaranıb.

AzərTAc xəbər verir ki, sərəncam qeyd edilən su anbarlarının istismar vəziyyətinin yaxşılaşdırılması məqsədilə imzalanıb.

Sərəncama əsasən Şəmkir, Yenikənd, Mingəçevir, Varvara, Ceyranbatan və digər su anbarlarının istismar vəziyyətinin öyrənilməsi ilə əlaqədar Dövlət Komissiyası yaradılıb. On üzvdən ibarət komissiyanın sədri Azərbaycan Respublikasının Prezidenti Administrasiyasının rəhbəri Ramiz Mehdiyev təyin edilib.

Dövlət Komissiyasına sərəncamda göstərilən su anbarlarının hidrotexniki qurğularında və su mühafizə zonasında mövcud problemləri araşdırmaq, su anbarlarının bəndlərinə təhlükə yaradan amilləri müəyyənləşdirmək, texniki təhlükəsizliyini təmin edən tədbirlərə dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan prezidentinə təqdim etmək tapşırılıb.

## 10 aylıq bahalaşma statistikası

**Bu ilin yanvar-oktyabr aylarında istehlak məhsullarının və xidmətlərin qiymətləri 2015-ci ilin eyni dövrünə nisbətən 11,6 faiz, o cümlədən ərzaq məhsullarının qiymətləri 13,4 faiz, qeyri-ərzaq məhsullarının qiymətləri 16,3 faiz, əhaliyə göstərilən ödənişli xidmətlərin qiymətləri 5,4 faiz artıb.**

Novator.az-ın məlumatına görə, Dövlət Statistika Komitəsi noyabrın 14-də belə hesabat yayıb.

Hesabata əsasən, 2016-cı ilin oktyabr ayında sentyabr ayına nisbətən istehlak məhsulları və xidmətlər 1,3 faiz, o cümlədən ərzaq məhsulları 2,3 faiz, qeyri-ərzaq məhsulları 1,1 faiz, əhaliyə göstərilən ödənişli xidmətlər isə 0,2 faiz bahalaşıb.

YENİ MÜSAVAT
N 253 (6574) 15 noyabr 2016

**Bəzi media orqanlarında jurnalist Xədicə İsmayılla İctimai Birliklərin Mədən Sənayesində Şəffaflığın Artırılması Koalisiyasının əlaqələndiricisi, iqtisadçı Qubad İbadoğlu arasında qalmaqal yaranması barədə xəbərlər yayılıb. Bunu "Xədicə İsmayıl yalançı, saxtakardır" - Müxalifətdə yeni qalmaqal" başlığı ilə təqdim edən həmkarlarımız hər iki şəxsin yazdıqları facebook statuslarını bir-biri ilə əlaqələndirib, virtual qalmaqal yarada biliblər.**

# İctimai sektorda daha bir qalmaqal: "Xədicə ilə polemikaya girmək niyyətim yoxdur"

## Xədicə İsmayıl: "Biz qınamırıq deyə, onlar da özlərini çox rahat hiss edirlər"

"Yeni Müsavat" isə xəbər verir ki, baş vermiş mənzərənin başlanğıc nöqtəsi X.İsmayılın aşağıdakı statusu olub: "Bugünlərdə bir tədbirdə Qubad İbadoğlu ilə görüşdüm. Ayaqüstü söhbət elədik. Mədən Sənayesində Şəffaflıq Təşəbbüsü ilə bağlı mövqeyi barədə soruşdum. Sual etdim ki, ölkədə azad mətbuat olmaya - olmaya, vətəndaş cəmiyyətinə münasibətdə müsbətə doğru dəyişikliklər haqda necə danışıla bilər. Son müxalif qəzet də çapını dayandırıb, televiziya haqqında artıq heç xəyal da qurmuruq. Dedi ki, mənim dediklərimi olduğu kimi çap edən media qurumları varsa, "müstəqil mətbuat yoxdur" fikrini söyləyə bilmərəm. "Turan", Meydan TV və AzadlıqRadiosu var. Onlar mənim fikirlərimi çatdırırlar. İzah etməyə cəhd elədim ki, "Turan" agentlikdir, çox məhdud sayda adama çıxışı var, Meydan və AzadlıqRadiosu da xaricdədirlər və yenə də yalnız online olduğu üçün dairəsi məhduddur, razılaşmadı. İndi düşünürəm, bu adamların reallığı anlaması üçün nə etmək lazımdır? Həmkarların nəticə çıxarsınlar.

Aydın olsun deyə, yazım. MSŞT üzrə vətəndaş cəmiyyəti koalisiyasının rəyi çox vacibdir ki, hökumət investisiya və kredit ala bilsin böyük layihələrə. Bu pullara o qədər böyük ehtiyacı var ki, rejimin, hətta müəyyən islahatlar da edə bilər. Tələb olunsa, əlbəttə ki. Amma asan yolunu tapıblar. Hökumət də indi həmin koalisiyada üzv olan ayrı-ayrı adamların kiçik problemlərini həll etməklə müsbət rəy almağa çalışır. Biri üçün bircə saatın içində təşkilat qeydə alırlar, o birinin yoxlamasını ləğv edirlər və s. Bu hələ masa üzərində olan sövdələşmələrdir. Masanın altındakılar nədir, onu da zaman göstərər.

Bəs müsbət rəyi belə asanlıqla almasalar nə olar? Onda məcbur olar hökumət real addımlar atmağa - qanunları dəyişməyə, həbsdə olanları azad etməyə, təşkilatların qeydiyyatını tam asanlaşdırmağa, mətbuata basqıları azaltmağa. Yox amma, prosesin ölkə üçün çıxarları ilişib bir qrup qht-çinin şəxsi maraqlarına.

Biz qınamırıq deyə, onlar da özünü çox rahat hiss edir, deyəsən".

**Bu statusun yazılmasından saatlar sonra Q.İbadoğlu da aşağıdakıları yazıb və ilkin ehtimallar buradakı sözlərin X.İsmayıla ünvanlandığı barədədir. Statusa diqqət edək:** "Siz ey Vətən, millət, dövlət anlayışlarına gizli nifrətini zaman-zaman büruzə verən, əlacsız qalanda son çarə kimi "Çamur at, izi qalsın" prinsipi ilə mövcudluğunu sürdürən prinsipsizlər - yalançı müxaliflər, saxta vətənpərvərlər, iqtidara yarınanlar! Qulaqlarınızı açın və eşidin: Mən təmsil olunduğum istənilən beynəlxalq və yerli platformada əsaslandırılmış müstəqil mövqedən çıxış edirəm, mövqeyim həmişə Azərbaycan dövlətinin və müstəqil vətəndaş cəmiyyətinin maraqlarının müdafiəsi üzərində qurulub. Şəxsiyyətimə və beynəlxalq arenadakı uğurlu fəaliyyətimə qarşı qərəzinizi boğub içinizdə gömün, əvvəlcə MSŞT-nin açılışının nə olduğunu öyrənin, sonra bu platformanın fəaliyyəti barədə fikir bildirin!

Bilin ki, kirli təfəkkürünüzün məhsulu olan böhtan, hədyan və uydurma ssenarilər məni ali prinsiplərimdən geri döndərə bilməz və bundan sonrakı fəaliyyətimdə də müstəqil vətəndaş cəmiyyətinin maraqlarından çıxış edərək, həm təmsil olunduğum düşərgənin haqlı mövqeyini, həm də Azərbaycan dövlətinin mənafeyini müdafiə edəcəyəm!

Sözümün sonunda üzümü bütün sağlam müzakirə imkanlarına malik insanlara tutur və onları 17 noyabr 2016-cı il tarixində saat 13-14 aralığında Beynəlxalq Mətbuat Mərkəzində keçiriləcək MSŞT ilə bağlı açıq müzakirəyə dəvət edirəm".


Qubad İbadoğlu


Xədicə İsmayıl

**"Yeni Müsavat" isə Q.İbadoğlunun bu statusunun konkret X.İsmayıla həsr olunub-olunmaması ilə maraqlanıb. Q.İbadoğlu statusu xanım jurnalistə həsr etmədiyini söyləyib:** "Xədicə İsmayılın nəsə haqqı var danışmağa. Amma elə şəxslər, status yazanlar var ki, heç bilmirlər, bu qurum nədir, onun funksiyası nədir. Xədicə İsmayıl araşdırmaçı jurnalistdir, tədqiqatları olub. Xədicə və digərləri ilə polemikaya girmək niyyətim yoxdur. Sadəcə, bu status ətrafında yanlış təqdimatın əleyhinəyəm".

❑ Sevinc TELMANQIZI

# 15 noyabrla 16 noyabrın "əsas" fərqi - maşın pərdələri...



**Noyabrın 15-də sürücülərə pərdə və jalüzlərdən istifadəyə verilmiş icazənin müddəti başa çatır. Noyabrın 16-dan (15 noyabr 23:59-dan sonra) etibarən avtomobilinin pəncərələrində jalüz olan sürücülər 150 manat cərimə olunacaq. Qeyd edək ki, mövsümi xarakter daşıyan jalüzlərin taxılmasına yalnız mayın 1-dən noyabrın 15-dək icazə verilir.**

Sürücünün sağındakı və solundakı şüşələrə jalüz çəkilməsinə isə ümumiyyətlə icazə yoxdur. Sürücü üçün görünüşü təmin edən şüşələrin işıq buraxma qabiliyyəti bu hədlərdən aşağı olmamalıdır: küləyə qarşı şüşə üçün 75 faiz, sürücünün sağındakı və solundakı şüşələr üçün 70 faiz, digər yan şüşələr üçün 60 faizdir. Arxa şüşənin işıq buraxma qabiliyyəti normallaşdırılmır. Bir çox sürücülər jalüzlərin vurulub çıxarılması məsələsinə etiraz edirlər. Onlar jalüzlərin noyabrın 15-dən sonra çıxarılmasının əslində heç bir məntiqi olmadığını bildirirlər.

**Baş Dövlət Yol Polisi İdarəsinin şöbə rəisi Kamran Əliyev isə 15 noyabrdan sonra nəqliyyat vasitələrinin arxa şüşələrində jalüzdən istifadə edən sürücülərin cərimələnəcəyini dedi:** "Arxa qapının şüşələrinə yay mövsümü ilə əlaqədar mayın 1-dən noyabrın 15-dək icazə verilən jalüzlər söküləcək. Noyabrın 16-dan etibarən jalüzlərdən istifadə halları aşkar olunarsa, həmin sürücülər İnzibati Xətalar Məcəlləsinə müvafiq olaraq 150 manat miqdarında cərimə olunacaq. Qanunvericilikdə nə nəzərdə tutulubsa, bizim əməkdaşlarımız da ona uyğun addım atırlar. Yəni qanunvericilikdən kənara çıxa bilməzlər. Sözsüz ki, jalüzlərin arxa qapılara vurulması arxa oturacaqda oturan sərnişinlərin gündən qorunması, günəş şüalarının onu yandırmaması məqsədi ilə atılırdısa, qış mövsümündə isə günəş şüalarının təsiri nəzərə alınaraq sökülür. Bu, mövsümi xarakter daşıdığından hər il may ayının 1-dən noyabrın 15-dək jalüzlərin istifadəsinə icazə verilir. Noyabrın 15-dən sonrakı tarixdə may ayının 1-nə kimi isə icazə verilmir. Qanunvericiliyin tələbi budur. Sürücülərdən də həmin qanunvericiliyin tələbinə əməl etmələri tövsiyə olunur".


**Kamran Əliyev:** "Qanunvericiliyin tələbi budur"


**Ərşad Hüseynov:** "Sovet dövründə belə bir yanaşma olub ki, mən maşının içini görməliyəm"


**Fazil Mustafa:** "Məsələ qaldırmaq olar ki, bu cür məhdudiyyətlərin olması nə dərəcədə doğrudur"

**Ekspert Ərşad Hüseynov isə bu qaydanın yersiz bir qayda olduğunu dedi:** "Qaydada yazılıb ki, amorf istehsalı olan jalüzlərin tətbiqinə bu gün icazə verilir, amma noyabrın 15-i gecə saat 12-dən sonra qadağandır. Bu anormal bir qaydadır. Burada heç bir məntiq yoxdur. Təəssüf ki, qanunvericilikdə bu cür məntiqsiz yanaşmalar var. Azərbaycan 2002-ci ildə Birləşmiş Millətlər Təşkilatının yerüstü nəqliyyat vasitələrinə dair hazırladığı təhlükəsizlik tələbləri deyilən ümumi bir beynəlxalq müqaviləyə qoşulub. Müqaviləyə qoşularkən öz üzərinə öhdəlik götürüb ki, avtomobillərlə bağlı olan bütün beynəlxalq standartların hamısını qəbul edib tanıyacaq. Yəni ölkənin ərazisində olan nəqliyyat vasitələri həmin tələblərə uyğun olacaq. Tələblərdən biri də avtomobillərin təhlükəsizlik şüşələri ilə bağlıdır. Avropa Komissiyasının 43 saylı qaydalarında qeyd olunub ki, avtomobilin, şüşənin arxasında əyləşən sürücünün kürəyindən arxada qalan şüşələr üçün heç bir şəffaflıq tələbi yoxdur. Yəni sürücü kreslosunda əyləşib, o kreslodan geridə qalan yan şüşələrə plyonka və ya jalüz vurulsa, ona heç bir əhəmiyyət verilmir. Çünki bunun sürücünün təhlükəsizliyi üçün heç bir önəmi yoxdur. Sovet dövründə belə bir yanaşma olub ki, mən maşının içini görməliyəm ki, onun içində kim var, quldur ya hansısa axtarışda olan cinayətkar var, yoxsa yox. Sovet dövründə hətta maşının arxa şüşələrini də deyirdilər ki, şəffaf olsun. Amma Avropada və dünyanın hər yerində qəbul ediblər ki, yalnız sürücüyə lazım olan şüşələr şəffaf olmalıdır. Qalan şüşələri isə sürücü özü bilər. Bizim də qanunvericilik çox maraqlıdır, bunu ləğv etmək əvəzinə yapışılıb ki, noyabrın 15-dən mayın 1-nə kimi jalüz olmasın. Halbuki o standart Azərbaycanda qüvvədədir. O standartı tətbiq etmək lazımdır və sürücülər də bilməlidir ki, əslində bu necə olmalıdır. Şəffaf olmalı şüşələr sürücünün öndəki, sağ və sol tərəflərindəki şüşələrdir. Digər şüşələrin şəffaf olmasına ehtiyac yoxdur".

**Deputat Fazil Mustafa bildirdi ki, bu cür məsələlər sürücünün xeyrinə həll olunmalıdır:** "Sürücülər sabahdan bu qaydalara əməl etməyi özlərinə borc bilməlidirlər. Çünki qanunvericilikdə bu nəzərdə tutulub. Bunun müzakirəsi mümkündür. Məsələ qaldırmaq olar ki, bu cür məhdudiyyətlərin olması nə dərəcədə doğrudur. Müzakirəyə çıxarmağa dəyən bir mövzudur. Fikrimcə, bu məsələlər sürücünün xeyrinə həll olunmalıdır. Bu jalüzlər daha çox gündən qorunmaq üçün nəzərdə tutulur. Gündən qorunmaqla bağlı digər, fərqli məsələlər də varsa, xüsusilə də maşının içərisinin görünməsi hansısa narahatçılıq yaradırsa, bu məsələni gündəmə gətirmək olar. Amma bu, təhlükəsizliyə mane olmayacaq materiallarla mümkündür".

❑ Günel MANAFLI




# Deputatla ustalar arasında borc qalmaqalı davam edir

## Zülfüqar Əliyev: "Şikayətim "Yeni Müsavat"da dərc ediləndən sonra Mirzəcan Xəlilovun köməkçisi zəng etdi görüşdük, amma..."

**Milli Məclisin deputatı, "Azərsutəchizattikinti" ASC-nin sədri Mirəzəcan Xəlilovla onun villasında işləyən bir qrup şəxs arasında borc problemi bitmək bilmir. Təxminən bir ay öncə redaksiyamıza müraciət edən briqadir Zülfüqar Əliyev noyabrın 13-də yenidən "Yeni Müsavat"ın redaksiyasına gəlib və yenə aldadıldıqlarını bildirib.**

Z.Əliyevin dediyinə görə, şikayəti "Yeni Müsavat"da dərc ediləndən sonra Mirzəcan Xəlilovun İlham adlı köməkçisi ona zəng edib, onunla birlikdə işləmiş adamları toplamasını və görüşmək təklifini verib: "Mənə dedi ki, toplaşın gəlin gələk söhbət edək. Oktyabrın 19-na vaxt təyin elədilər ki, görüşək. Mirzəcan müəllimin borcu olan ustaların hamısını topladıq. Novxanıda dənizin sahilində kafedə Mirzəcan müəllimin nümayəndələri ilə görüşdük. Onlar bizimlə Mirzəcan müəllimin göstərişi əsasında görüşdüklərini dedilər və borclu olduqları adamların adlarını, telefon nömrələrini yazıb götürdülər. Bizə dedilər ki, məhkəmə ekspertləri yaxın günlərdə gəlib sizin işlədiyiniz yerin ölçüsünü götürəcək, hesablama aparılacaq və Mirzəcan müəllimin nə qədər borclu qaldığı bəlli olandan sonra pulunuz dərhal veriləcək. Noyabrın 5-də Ağdam Rayon Məhkəməsindən bir ekspert Mirzəcan Xəlilovun bizim işlədiyimiz villasına gəldi. Mən də ora çağrılmışdım. İçəri girən kimi telefonlarımızı əlimizdən aldılar. Ekspert məndən qiymət barədə heç nə soruşmadı. Sadəcə, ölçü-biçi apardı. Villanın həyətinin hasarının da daş üzlüklə üzlənməsini mən işləmişəm. Mənə olan borca həmin yerdə işlənən işin də daxil olduğunu dedim. Mən hasarın da ölçülməsini təklif edəndə dedilər ki, məhkəmə yalnız evin ölçülməsini tapşırıb. Mirzəcan müəllim özü də orada idi, mənə dedi ki, həyətin hasarını şəxsən özü ölçdürəcək və məbləği müəyyənləşdirib ödəyəcək".

**Z.Əliyevin dediyinə görə, M.Xəlilovla razılaşıb. İki gün sonra M.Xəlilovun köməkçisinə zəng edib deyib ki, gedək hasarı ölçək. Lakin bu dəfə başqa cavab alıb:** "Dedi ki, Mirzəcan müəllimlə danışım, bir az sonra əlaqə saxla. Bir saat sonra zəng etdim, dedi ki, Mirzəcan müəllim bildirir ki, mənim ona verəcək borcum yoxdur, getsin versin məhkəməyə, məhkəmə gəlsin ölçsün, məhkəməsiz mən ona bir manat da pul verən deyiləm. Halbuki məhkəmə ekspertinə əslində o imkan verməmişdi ki, hasarı da ölçsün. İndi iş hələ də Ağdam Rayon Məhkəməsində baxılmamış qalır. Mən buradan dövlətin müvafiq orqanlarına müraciət edirəm ki, deputat Mirzəcan Xəlilovun bizə olan borcunu verməsi üçün lazım olan addımlar atılsın".

Qeyd edək ki, Z.Əliyev 2013-cü ildə briqadiri olduğu 20 nəfərlik usta-fəhlə heyəti ilə Mirzəcan Xəlilovun Novxanıdakı villasında fasadın təbii daş örtüyü ilə üzlənməsi üçün işə başladıqlarını, 2014-cü ilin may ayına qədər işlərin 90 faizə yaxınının görüldüyünü, Mirzəcan Xəlilovun ona 55 min manat borcunu hələ də vermədiyini bildirmişdi. Z.Əliyev 2014-cü ilin mayında M.Xəlilovun onu yox etməklə hədələdiyini, eyni zamanda 2016-cı ilin mayında tutdurmaq üçün məhkəməyə də verdiyini demişdi.

Deputat Mirzəcan Xəlilov isə bu iddialarla bağlı açıqlamasında bildirmişdi ki, Zülfüqar Əliyev onun haqqında dediyi ittihamları sübut etməlidir, yoxsa o, cinayət məsuliyyətinə cəlb olunacaq:

"Axı nəyə görə 2013-cü ildə görülmüş iş haqqında indi məsələ qaldırırlar? Adama deyərlər ki, sən bu 3 ili harada yatmışdın? İndi Mirzəcan Xəlilov deputat olub deyə, Zülfüqar Əliyev də şantaj, şər-böhtan yolu ilə pul almaq istəyir".

❑ E.SEYİDAĞA

# "Trampın anasına-bacısına söyməmişəm ki, narahat olum..."

## Hikmət Hacızadə: "Amerikanın qara yox, qəhvəyi siyahısındayam"

**Amerika seçkiləri öncəsi yerli politoloqlar Hillari Klintonun prezident seçiləcəyini proqnozlaşdırırdılar. Xüsusən də demokrat Hikmət Hacızadə prezidentliyə namizəd Donald Tramp barədə olduqca sərt sözlər, fikirlər işlətmişdi. Məlum, qələbə D.Trampın üzünə güldü. H.Hacızadə ilə bu nəticəni və "Tramplı Amerika"nı təhlil etdik. Müsahibimiz ilk növbədə bu nəticə barədə danışdı:**

- Açığını deməliyəm ki, mən belə olacağını gözləmirdim. Mənim üçün sürpriz oldu...

***- Sizcə, bu, nəyin göstəricisi idi? Həqiqətən də demokratik nəticə oldu?***

- Demokratiya deyəndə ki... İnsanlar öz səsini verdi və Trampı seçdisə, bu, o deməkdir ki, seçkilər demokratik keçdi. Amma insanlar onu niyə seçdi, bax, budur böyük problem. Görünür ki, dünyada inkişaf etmiş ölkələrdə iki millət əmələ gəlib. Bir qisim kompüter, mikrofondan istifadə edir, istirahət üçün başqa ölkələrə gedir və sair. O biri qism isə dəyişikliklərdən, çətiniklərdən çox narazıdır. Onlar uyğunlaşmırlar, özlərinə yer tapa bilmirlər. Amerikada sadə adamlar işsiz qalıblar. Onlar iş tapmaq üçün Çinə, ora-bura gedir. Yaxşı maşın sürmək üçün, yayda dənizə getmək üçün ağıl işlətməlisən. Valideynlərin varlı olub, sənə təhsil verməlidir. Bu isə milyonlarla adamlarda yoxdur. Sadə adamlar başqa haydadır, başqa prinsiplərlə yaşayır. Kompüter işlədənlər isə tamam başqa haydadır. Ona görə də bu məsələnin qavranılmasında çətinlik var. Sadə adamı tezliklə gedən demonsibasiya çox narahat edib. Obamaya dözürdülər. Sadə adam onsuz da ürəyində rasist olur. Kimsən, nəçisən, hansı rayondansan... prinsipi hakim olur onda. Sonra üstündən bir dənə də arvad gəldi. Dedilər ki, indi bu arvad bizə başçılıq edəcək? Sabah tutaq ki, bir homoseksual gələcək. İnternet, sadə adamların fikri belə dağılır. Bu, sadə adamları məcrasından, əsəbindən, yolundan çıxarır. Bu iki məsələ qloballaşma və yeni texnologiyalar, iş məsələsi narazılıqların səbəbi olur. Seçici bunu bilməlidir. Sadaladığım problemlərin həlli çox çətin, qəliz və uzunmüddətlidir. Sadə adam buna dözmür. Ona görə də düşünür ki, bir igid gəlsin, vursun dağıtsın birdəfəlik. Mən deyəndə ki, alim çağıracam, kompüterlə qrafik çəkəcəyik, araşdırma aparacağıq... Amerikalı seçici deyir ki, əşşi, 20 ildir heç nə edə bilmir, qoy Hitler kimi bir adam gəlsin, görək həll edə bilirmi.



**"Elə bilirdim ki, Amerika avaranı seçməz. Amma seçdilər də..."**

***- Yəni sizcə, Amerika seçicisi macəra istəyirdi?***

- Xeyr, məsələnin tez həllini istəyirdi. Həm burda, həm Böyük Britaniyada, həm Almaniyada yığılmış problemlərin həllini istəyir seçici.

***- Bir çox analitiklər deyirlər ki, əslində Trampın aqressiv, çılğın çıxışları piara hesablanmış addımlar olub. Daha çox diqqət çəkmək, səs toplamaq üçün... Amma 100 günlük planını açıqlayanda məlum oldu ki, anons etdiklərinin bir çoxunu etməkdə, ilk başda isə milyonlarla miqrantı ölkədən çıxarmaqda israrlıdır...***

- Belə düşünmək üçün ehtimal var. Amma bu gədə dəqiq nə edəcək, bilmək olmaz. Çünki onun siyasi tarixi yoxdur. Siyasətçi olmayıb ki, daha öncə dedikləri və etdiklərini bilək, müqayisə edək. Amma yenə də belə ehtimal var ki, onun o cür çıxışları sırf diqqət çəkməyə və piara hesablanmış idi.

***- Hikmət bəy, siz də seçkilər ərəfəsində Tramp barədə çox ağır sözlərdən istifadə edirdiz. Onun barəsində "axmaq", "avara" kimi sözlər işlədirdiz...***

- *(Gülür)* Düz deyirəm də, avaradır. Mən amerikalılara başa salaram ki, Azərbaycanda avara şərəfli sözdür, azad adamın indeksi sayılır.

***- Necə düşünürsüz, bir "avara" dünyaya nüfuz edən super bir dövlətin başına keçə bilərmi? Nəticə sizin fikrinizi dəyişmir?***

- Bilər də. Mən səhv edirdim. Elə bilirdim ki, Amerika avaranı seçməz. Amma seçdilər də. Hitler də avara idi də. Uqo Çaves də onun kimi. Səsvermə, demokratiya hərdən avaraları, populistləri hakimiyyətə gətirir.

***- Bu təhqirə görə narahat deyilsiz? Bütün hallarda tanınmış politoloqsuz və Amerikanın prezidenti barədə ağır sözlərdən istifadə etmiş adamsız. Amerika səfirliyinin "qara siyahı"sında ola biləcəyiniz ehtimalı sizi qorxutmur? Bundan sonra o ölkəyə gedib-gəlmək fikriniz varmı, məsələn?***

- Mən Trampın anasını-bacısını söyməmişəm ki, narahat da olum. Qara yox, qəhvəyi siyahıya düşəcəm. Mən qara siyahılıq deyiləm.

***- Belə bir fikir söylədilər ki, Hillari Klintonun seçilməməsi Azərbaycanda demokratik düşərgə üçün ciddi zərbə oldu. Layihələr, qrantlarla işləyənlər üçünsə xüsusən çətin dönəm olacağını deyənlər oldu....***

- Yox, belə deyil. Bunu qavramaq çətindir və gözləmək lazımdır. Adətən demokratlarla respublikaçıların insan haqları və demokratiyaya yanaşması fərqli oldu. Demokratlar insan haqlarından çox danışır, məktublar yazır, etirazlar edir, hərdən mükafatlar alırlar. Amma reallıqda heç bir şey etmirlər. Amma respublikaçılar az danışır, amma hərdən elə vururlar ki, diktaturalar dağılır. Ronald Reyqan vardı, insan haqlarından az danışırdı. Amma necə vurdusa, SSRİ-ni dağıtdı, 300 milyon adam azad olundu, Azərbaycan da müstəqil oldu. Bunlar iş adamlarıdır, qətiyyətli adamlardır. Danışmaqları az, iş görmələri isə çoxdur.

***- Sizin üçün Trampın seçilməsi ilə "Amerika röyası" bitdimi? Bir demokrat olaraq "üzdünüzmü" əlinizi bu ölkədən, onun dəyərlərindən?***

- Mən heç vaxt Amerikanı ideallaşdırmamışam. Amerika yaxşı ölkədir, amma cənnət deyil. Amerikanın problemləri çoxdur. Amma bəzi ölkələrdən fərqli olaraq, onlar öz problemlərini müzakirə edirlər, onu gizlətmirlər, onun üzərində işləyirlər, açıq danışırlar. Budur, Amerikanın böyüklüyü. Ona görə də mən tam məyus olmamışam. Amerika adına yaxşı şeylər görəcəyik. Bu, bir proletariar dalğadırsa, başqa ölkələrdə də davam edəcək. Britaniyada, Venesuelada, Türkiyədə baş verənlər o dalğanın izləridir.

❑ Sevinc TELMANQIZI

# "Rabitə çetesi" MTN üçün yığılan pulları necə bölürmüş?

**Noyabrın 13-də Rabitə və Yüksək Texnologiyalar Nazirliyindəki (bundan sonra qısa olaraq Rabitə Nazirliyi yazacağıq - "YM") həbslərin bir ili tamam oldu.**




## Eldar Mahmudov Rabitə Nazirliyində "obşak" qurubmuş - ifşa

### MTN-lə rüşvət əlaqələrində açar rolu oynamış Vidadi Zeynalovun şok ifadəsi yayıldı; telefon şantajının qurbanlarından alınan pullar məhz Rabitə Nazirliyində toplanıb, sonra isə generallara ötürülüb

Bir il əvvəl nazirliyin aparat rəhbəri Vidadi Zeynalov da daxil olmaqla, "Aztelekom" MMC-nin sabiq baş direktoru M.Məmmədov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin sabiq rəhbəri B.Hüseynov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin baş mühasibi A.Mustafayev, "AzİnTelekom" MMC-nin sabiq baş direktoru C.Cəfərov, "Azərpoçt" MMC-nin sabiq baş direktoru Q.Bəybalayev, "Optik Rabitə, Tikinti və Quraşdırma" MMC-nin baş mühasibi S.Hümbətov, həmçinin E.Məmmədov, "Bakı Telefon Rabitəsi" İstehsalat Birliyinin Nizami telefon qovşağının sabiq rəisi F.Seyidov və həmin birliyin baş mühasibi R.Məmmədov, "Bakı Rabitə Təmir Tikinti" və "Təmir Təchizat Servis" MMC-lərinin direktoru B.Vəliyev, "Optik Qurğular" İdarəsinin rəisi N.Məmmədov və "Aztelekom" MMC-nin baş mühasibi O.Rüstəmov həbs ediliblər. Bu həftə isə V.Zeynalovun və daha bir neçə nəfərin mühakiməsi başlanmalıdır.

Məhkəmə ərəfəsi Rabitə Nazirliyinin həbsdəki əməkdaşlarının, eləcə də həmin dalğada nazir vəzifəsindən qovulan Əli Abbasovun MTN generallarına hər ay külli miqdarda rüşvət verilməsi barədə məlumatlar yenidən çoxalıb. Hələ MTN və Rabitə Nazirliyində həbslər başlayanda belə xəbərlər vardı ki, məsələn, Eldar Mahmudov hansısa kompromatlar əsasında qorxaq məmur kimi tanınan Əli Abbasovdan hər ay 10 milyon manat alıb. Hətta nazirlikdə kadrları belə vəzifəyə ya Eldar Mahmudov təyin edib, ya da onun razılığı alınaraq təyin olunub.

Bundan başqa, təsdiqləndi ki, Rabitə Nazirliyinin bütün avadanlıqları, rabitə xətləri MTN bandasının ixtiyarında olub. Buradan iş adamlarını, vəzifəli şəxsləri dinləmək və şantaj etmək üçün istifadə olunub.

İndi isə bu rüşvət əlaqələrində açar rol oynamış V.Zeynalovun ifadəsi yayılıb. "Trend"in məlumatına görə, V.Zeynalov istintaqa ifadəsində işlədiyi nazirliyin inzibati binasındakı xidməti otağında ləğv edilmiş MTN-in Mütəşəkkil Transmilli Cinayətkarlıqla Mübarizə İdarəsinin rəisi, hazırda həbsdə olan general Sübahir Qurbanova fəaliyyətlərinin himayə edilməsi üçün 01.01.2011-ci il tarixdən 2015-ci ilin oktyabr ayına kimi hər ay 100.000 ABŞ dolları olmaqla, həmin dövrün məzənnəsi ilə ümumilikdə 3.047.000 (üç milyon qırx yeddi min) manat verib. Bununla yanaşı, o, həmçinin MTN-in Monitorinq Mərkəzinin rəisi general Teymur Quliyevə 01.07.2013-cü il tarixdən 08.10.2015-ci il tarixə kimi hər ay 50.000 ABŞ dolları olmaqla həmin dövrün məzənnəsi ilə ümumilikdə 1.158.000 (1 milyon 158 min) manat rüşvət verib.

Həm əvvəl, həm də indi MTN-ə bu "rüşvətin" niyə verildiyi haqda tutarlı izahat yoxdur. Sadəcə, "verilib" deyilir. Amma niyə?

"Yeni Müsavat"ın məlumatına görə, ortada klassik anlamda heç bir rüşvət yoxdur. Xatırlayırsınızsa, V.Zeynalov həbsinin ilk günündən vəkili vasitəsilə az qala yalvarırdı ki, onun adını MTN işi ilə əlaqələndirməsinlər. Çünki Əli Abbasov, V.Zeynalov və digərləri yaxşı bilirdi ki, MTN çetesi ilə əlaqələri üzə çıxarsa, onları daha ağır tale gözləyəcək. Amma məlumdur ki, iqtidar MTN-in Rabitə Nazirliyindəki əlaqələrini deşifrə etmişdi və bu səbəbdən də orada da ciddi təmizləmə aparıldı.

Məlumata görə, E.Mahmudov heç vaxt Əli Abbasovu və ona tabe olan işçiləri incitməyib, əksinə, onlara böyük etibar edərək "obşak" üçün pul yığımını Rabitə Nazirliyinə həvalə edib. Belə görünür ki, bu adam da məhz V.Zeynalov olub. Belə ki, MTN-in telefon şantajının qurbanları olanlardan alınan pullar məhz Rabitə Nazirliyində "yuyulub", daha doğrusu, burada toplanıb. Şantaja və ya hədə-qorxuya məruz qalanlar onlardan tələb olunun məbləği həmişə diqqətdə olan MTN-ə yox, birbaşa pulla işləyən, dolu çantalarla nazirliyə girilməsinin adi hal olduğu Rabitə Nazirliyinə ötürüblər. Həmin pullar isə sonradan "işgüzar iş üçün" Rabitə Nazirliyinə gələn MTN generallarına verilib. Əgər belə olmasaydı, Rabitə Nazirliyindəki dəstə ələ keçəndə, məsələn, Tağı Əhmədov kimi hədə-qorxuya məruz qaldıqlarını bildirər, mənimsənilən milyonları MTN generallarına "yükləyə" bilərdilər.

Heç şübhə yoxdur ki, "rabitə çetesi" bu işbirliyindən MTN-dəki generallar kimi milyonlar qazanıb... Eldar Mahmudovun qurduğu "obşak" sayəsində...

❑ "YM"

# İlqar Məmmədov üçün kritik həftə - hakimiyyət onu azad edəcəkmi?

### REAL sədrinin noyabrın 18-də azad olunacağına ümidlər var

**REAL sədri İlqar Məmmədovun noyabrın 18-də Ali Məhkəmədə baxılacaq kasasiya şikayətinə sayılı günlər qaldı. Günlər keçdikcə vicdan məhbusunun Ali Məhkəmə tərəfindən azadlığa buraxılacağı ilə bağlı fikirlər cəmiyyət daxilində ayaq açıb yeriməyə başlayıb.**


İlqar Məmmədov

İndiyə qədər İ.Məmmədovun çoxsaylı məhkəmə prosesləri olub. Amma indiki qədər bəlkə də onun azad olunacağına ümidlər olmayıb. Bunun da bir sıra səbəbləri var. Öncəliklə bu ilin martından başlayaraq, Ali Məhkəmənin Avropanın əsas diqqət mərkəzində olan siyasi məhbusları azad etməsi, REAL sədrinin həbsinin yarıdan çoxunu geridə qoyması, eyni zamanda Avropa İnsan Haqları Məhkəməsinin onun azadlığa buraxılması ilə bağlı 6 qətnaməsinin olması ümidlərin artmasına səbəb olan əsas amillərdir.

Bütün bunlardan əlavə, İ.Məmmədova qarşı hakimiyyətin qərəzli münasibəti də gündəmə gəlib. Təsadüfi deyil ki, onunla birlikdə eyni hadisə üzrə həbs edilən, eyni maddələrlə təqsirli bilinən, əfv müraciəti belə yazmadan Müsavat başqanının müavini Tofiq Yaqublu bu ilin martında əfv sərəncamı ilə azadlığa buraxılıb. İ.Məmmədov da əfv yazmayıb, lakin azad olunmur. Bütün bunlar bir sıra suallar yaradır.

**T.Yaqublu "Yeni Müsavat"a açıqlamasında ayın 18-də REAL sədri ilə bərabər onun da məhkəməsinin olacağını bildirdi:** "Paralel şəkildə mənim də məhkəməm olacaq. Məhkəmənin bu qədər uzadılmasına səbəb bizim Avropa Məhkəməsinə göndərəcəyimiz şikayətin qarşısını almaq idi. Bildiyiniz kimi, həbs-qətimkan qərarı ilə bağlı edilən şikayətə Avropa Məhkəməsi tərəfindən dərhal baxılır. Mənim də bu qərardan verdiyim şikayətə dərhal baxıldı və Azərbaycan hakimiyyəti yüksək məbləğdə cərimələndi. İlqar Məmmədovun qərarda dərhal azad olunması tələb olundu. Hakimiyyət bilir ki, həbs-qətimkan qərarından verilən şikayətə tez baxılırsa, Ali Məhkəmədəki kasasiya şikayətinin nəticəsindən verilən şikayətə də tez baxıla bilər. Bu qədər müddətdə məhkəmə prosesinin zamanı uzadıla bilməzdi. Ayın 18-də keçiriləcək məhkəmədə sözsüz ki, bəraətdən söhbət gedə bilməz. Şərlənib həbs edilən üzərində öz səhvlərini etiraf edə bilməzlər. İlqar bəylə bağlı bəzi gözləntilərim var. Avropa Şurası Nazirlər Kabinetinin İlqar Məmmədovla bağlı 6 qətnaməsi var. Sonuncu qətnamədə isə hətta məsələ belə qoyulub ki, İlqar Məmmədov azad olunmasa, 42-ci maddə tətbiq olunacaq. Burada sanksiya məsələsindən söhbət gedir. Bu qədər ictimai və beynəlxalq basqını nəzərə alıb onu azad edə bilərlər. Bəraət verməsələr də, başqa yollarla onu azad edə bilərlər. Düşünürəm ki, hakimiyyət bu qərarı verməlidir".

**Hüquq müdafiəçisi Mirvari Qəhrəmanlı İ.Məmmədovun hakimiyyət üçün təhlükəli olması ilə bağlı deyilən fikirlərlə razılaşmır:** "Düşünmürəm ki, İlqar Məmmədov hakimiyyət üçün təhlükəlidir, yaxud hakimiyyət ondan qorxur deyə həbsdən azad etmir. Belə söhbətlər İlqar bəyin xeyrinə işləmir. Bilərəkdən, yaxud bilməyərəkdən söylənilən "hakimiyyət qorxur, çəkinir" tipli mesajlar ümumiyyətlə müdafiə məqsədli deyil. İlqar bəyin azad olunması üçün bu tipli "müdafiə" dəyişməlidir. O, güclü, ağıllı siyasətçidir. Yəqin həbsinin kökünü də bilir. Ümidvaram ki, İlqar bəy tezliklə həbsdən azad olunacaq".

Xatırladaq ki, İ.Məmmədov 2013-cü ilin yanvarında İsmayıllı rayonundakı hadisələrə görə həbs olunub, 7 il müddətinə azadlıqdan məhrum edilib.

❑ Cavanşir ABBASLI

# Akif Çovdarov vəkillərindən imtina etdi

### Odioz general məhkəməyə oksigen balonuna qoşulmuş halda gətirilib

**Noyabrın 14-də Sabunçu Rayon Məhkəməsində ləğv olunmuş MTN-in Energetika və Nəqliyyat Sahələrində Təhlükəsizlik Baş İdarəsinin həbsdə olan sabiq rəisi, general-mayor Akif Çovdarovun və digərlərinin cinayət işi üzrə məhkəmə prosesi davam etdirilib.**

Musavat.com xəbər verir ki, saat 12:30-da məhkəmə Çovdarovun iştirakı olmadan başlayıb.

Vəkillərin verdiyi məlumata görə, təqsirləndirilən şəxslərdən yalnız A.Çovdarov məhkəməyə gətirilməyib.

Bununla bağlı Bakı İstintaq Təcridxanasından məhkəməyə arayış göndərilib. A.Çovdarovun məhkəməsinin onsuz keçiriləcəyi deyilsə də, məhkəmə heyəti bununla razılaşmayıb.


Akif Çovdarov

A.Çovdarovun məhkəməyə gəlməməsi ilə bağlı onun barəsində təcridxanadan göndərilən arayış qəbul edilməyib.

Günün ikinci yarısında o, Sabunçu Rayon Məhkəməsinə zorla gətirilib. A.Çovdarov vəkili Kamandar Nəsibovla görüşmək istədiyini deyib.

Məhkəmə prosesinə jurnalistlər buraxılmadığı üçün orada baş verənlərdən yalnız vəkil vasitəsilə məlumat ala bildik. Bəlli oldu ki, Akif Çovdarov vəkillərindən imtina edib.

Bunu musavat.com-a açıqlamasında vəkil Kamandar Nəsibov deyib.

**Vəkil bildirib ki, A.Çovdarov məhkəməyə etiraz olaraq onlardan imtina edib:** "Akif Çovdarov məhkəmədə dedi k, əgər vəkillərim mənim səhhətimlə bağlı bir iş görə bilmirlərsə, onların verdikləri heç bir vəsatət təmin olunmursa, mən onların xidmətindən imtina edirəm. Çovdarov dedi ki, məhkəmə sifariş yerinə yetirir və ona qarşı qərəzlidir. Bu səbəbdən də vəkillərindən imtina ilə bağlı məhkəməyə yazılı müraciət verib".

**K.Nəsibov onu da bildirib ki, Çovdarov məhkəməyə oksigen balonu ilə gətirilibmiş:** "Çovdarov nəfəs ala bilmədiyini deyir. Onu zorla məhkəməyə gətiriblər. Buna görə də o etiraz edir. Biz vəsatət verdik ki, onun səhhəti ilə bağlı ekspertiza təyin olunsun. Digər vəsatətimiz məhkəmə heyətinə etirazla bağlı idi. Ancaq baxılmamış saxlanıldı".

**K.Nəsibov Akif Çovdarovun məhkəmədə 3 həkimin nəzarətində iştirak etdiyini söyləyib:** "Nəfəs ala bilmədiyi üçün oksigen balonu da gətirilmişdi. Həkimlər tez-tez təzyiqini ölçürdü. 3 həkim nəzarətində ola-ola məhkəmə davam etdirildi. Biz ötən prosesdə də buna etiraz etdik. Ancaq baxılmadı".

**Çovdarovun digər vəkili Sadiq Rəsulov isə bildirib ki, həbsdəki general hələ də aclıq aksiyasını davam etdirir:** "Aclıq aksiyası Çovdarovun səhhətini daha da ağırlaşdırıb. Yemək, su və dərman qəbul eləmir. Eyni zamanda iki dəfədir ki, məhkəmə sürüyərək gətirirlər. Buna daha çox əsəbiləşir. Bu məhkəmə prosesi də demək olar ki, baş tutmadı. Hər dəqiqə onun halı pisləşirdi, oksigen çatışmazlığı yaranırdı. Həkimlər müdaxilə edirdi, məhkəmədə tez-tez fasilə elan olunurdu. Biz başa düşə bilmirik ki, onu niyə bu halda məhkəmə iclasına gətirirlər. Tibbi ekspertizanın təyin olunması ilə bağlı da vəsatət verəcəkdik. Çovdarov məhkəmədə deyir ki, "mənim səhhətim ağırdır". Hakim də deyir ki, "biz mütəxəssis deyilik və heç nə deyə bilmərik". Biz də vəsatət veririk ki, səhhəti ilə bağlı ekspertiza təyin olunsun. Ancaq deyirlər ki, indi buna ehtiyac yoxdur".

❑ İlkin MURADOV

YENİ MÜSAVAT
N 253 (6574) 15 noyabr 2016

# Ölkə müxalifətinin Trampdan demokratiya gözləntiləri

## Fikirlər müxtəlifdir, az qisim Amerikanın yeni rəhbərinin demokratiya məsələsində müxalifətin yanında olacağına inanır...

**Amerikanın yeni prezidenti Donald Trampın qələbəsi Azərbaycanda da əsas müzakirə mövzusudur. Xüsusilə onun demokratiya və digər məsələlərlə bağlı ölkəmizə verə biləcəyi töhfələr ciddi şəkildə müzakirə edilir. Azərbaycan müxalifətinin ondan gözləntiləri birmənalı deyil. Az qisim Amerikanın yeni rəhbərinin demokratiya, insan haqları və digər bu kimi məsələlərdə Azərbaycan müxalifətinə dəstək verəcəyinə inanır. Əksəriyyət Trampın əvvəlki prezidentlərdən gələn ənənəvi siyasi xəttə sadiq qalacağını və onun üçün yalnız ABŞ faktorunun əsas olacağını düşünür.**

Nümunə olaraq da, 2000-ci ildən bu yana Amerikaya rəhbərlik etmiş iki prezident-Corc Buş və Barak Obama göstərilir. Bu nümunədə həqiqət işartıları kifayət qədər real görünür. Belə ki, C.Buş hakimiyyətə gələndə Azərbaycan müxalifətinin ən güclü dövrü idi. Təkcə 2003-ün prezident və 2005-ci ilin parlament seçkilərini misal çəkmək kifayət edir. Hər iki seçkidə demokratik düşərgə hakimiyyətin əsas alternativi olmağı bacarmışdı. Lakin həmin vaxtlar ABŞ "gözdən pərdə asmaq üçün" quru bəyanatlar verdi və sonunda ölkə iqtidarını dəstəkləyən siyasət yürütdü. 2005-ci ildə Azərbaycan müxalifətinin parlament seçkiləri ərəfəsində Buşun şəkilləri ilə də mitinqlərə çıxması Amerikanın siyasi xəttini dəyişmədi. 2008-ci ildə Buşu əvəz edən Barak Obama ilə bağlı gözləntilər də böyük idi. Amma bu da özünü doğrultmadı. Bütün bu amillər Tramp üçün də keçərlidir.

**Ümid Partiyasının sədri İqbal Ağazadə hesab edir ki, Amerikada kimin hakimiyyətə gəlməsinin önəmi yoxdur:** "Nəzərə alaq ki, mövcud sistem uzun illərdir kimlərin hakimiyyətə gəlməsindən asılı olmayaraq dəyişmir. Yenə də həmin formada proses davam edəcək. Dəyişən bir şey olmayacaq. Güman edirəm ki, bu Amerika üçün daha önəmlidir. Trampın gəlməsindən sonra dünyaya yeni baxış olacaq. Bu baxışın içərisində Cənubi Qafqaz da olacaq. Dondurulmuş konfliktlərin dinamikasında, eləcə də demokratiya məsələsində müəyyən proseslərin şahidi olacağıq".

**AĞ Partiya başqanı Tural Abbaslı bildirdi ki, Amerikada baş verənlər bütün ölkələr kimi Azərbaycana da yansıyır:** "Düşünürəm ki, yeni prezidentin seçilməsi ABŞ-ın bəlli siyasətində müəyyən dəyişikliklərə səbəb olacaq. Trampın seçkidən öncəki fikirlərindən və qalibiyyətindən sonra yüz gün ərzində görəcəyi işlərlə bağlı mətbuatda gedən xəbərdən aydın olur ki, Obama hakimiyyətindən fərqli siyasət yürüdüləcək. Açığı, Azərbaycan ABŞ üçün prioritet olmadığı üçün, orada yeni dəyişiklikdən sonra ölkəmizə qarşı siyasətin dəyişməsini güman etmirəm. Bunu Buş və Obama dövründə görmüşük. Fikirlər dəyişə bilər, amma Amerika dövlətinin bəlli siyasəti dəyişə bilməz. Ənənəvi müxalifətdən fərqli olaraq, hansısa xülyalar qurmuram və gözləntilərim də yoxdur. Azərbaycan müxalifəti beynəlxalq gücə güvənməkdən daha çox xalqına


İqbal Ağazadə


Tural Abbaslı


Elman Fəttah

güvənməlidir. Amerika kimi praqmatik ölkə zəif müxalifətə, xalq tərəfindən dəstəklənməyən düşərgəyə dəstək verməz".

**Müsavat başqanının müavini Elman Fəttah gözləntilərinin xalqdan olduğunu söylədi:** "Bizim gözləntimiz yalnız xalqımızdandır. Azərbaycanda demokratiya kənardan gözləntilərlə yox, xalqın mübarizəsi ilə reallaşacaq".

**Azad Demokratlar Partiyasının sədri Sülhəddin Əkbər Trampın prezident seçilməsinin Amerikada belə normal qarşılanmadığını qeyd etdi:** "Tramp sistem xaricindən hakimiyyətə gəlmiş şəxsdir. Siyasətə daha çox biznes adamı kimi baxır. Onun həm də radikal irqçi baxışları var. Demokratiya istiqamətində hələ ki bir açıqlaması, öhdəliyi olmayıb. Gözləntilərin olmaması əsas bununla bağlıdır. Baxsaq görərik ki, Tramp daha çox Amerikanın güclənməsi və dünya işlərinə az müdaxiləsi barədə düşünür. Seçki kampaniyası və seçkidən sonra siyasət qurmaq tamam başqa anlayışlardır. Bu baxımdan, komanda siyasəti formalaşmayana qədər konkret nəsə demək çətindir. Respublikaçılar daim Rusiyaya qarşı sərt mövqeləri ilə seçiliblər. Putin düşünür ki, Tramp Rusiya ilə münasibətləri düzəltmək üçün addımlar atacaq. Amma mən tam əksini düşünürəm. Bir müddətdən sonra Tramp real Rusiya ilə tanış olacaq. Tramp komandası demokratiyanı xarici siyasətinin tərkib hissəsinə salmasa da, Rusiya amili onu buna sürükləyəcəyik. Yəni postsovet məkanının demokratikləşməsi önə çıxacaq".

**VİP sədri Əli Əliyev ABŞ prezidentlərinin seçkiöncəsi verdikləri vədləri fəaliyyətləri zamanı yerinə yetirmədiklərini düşünür:** "Artıq Tramp ilk şaşırdıcı bəyanatını verib. Rusiyaya qarşı sanksiyaların genişləndirilib Şimali Koreyanın gününə salınmasını bildirib. Amerikanın yeni prezidenti kifayət qədər ağıllı, təmkinli bir şəxsdir. Bu baxımdan, gözləmək lazımdır. Yanvarın 20-dən sonra, yəni idarəçiliyə başladıqdan sonra onun Azərbaycana nə vəd etdiyi barədə fikir bildirmək asan olacaq. Buş və Obamadan gözləntilərimiz oldu, amma siyasi mənada heç nə baş vermədi. Ümid edək ki, cənab Trampın dövründə demokratiya dalğası dünya üzrə inkişaf edəcək, Azərbaycanı da ağuşuna alacaq. Onu da arzu edək ki, onun dövründə Dağlıq Qarabağla bağlı Amerika obyektiv mövqe sərgiləsin".

❑ **Cavanşir ABBASLI**

# İŞİD Bakı yolunda-terrorçuların başqa ölkələrə sızma təhlükəsi var

## Suriyada və İraqda sıxışdırılan İŞİD üzvlərinin "geri dönməsi" Azərbaycana da təhlükə riskini artırır

**İraq və Suriyada sıxışdırılan İŞİD üzvlərinin digər ölkələrə qaçması haqda xəbərlər yenidən artıb. Son olaraq İŞİD lideri Bağdadinin qruplaşmasının Liviyaya qaçmağa hazırlaşdığı haqda xəbərlər yayılıb. Bundan başqa, İŞİD üzvlərinin böyük bir qrupunun Yəmənə keçməsi haqda xəbərlər yayılıb. Əlbəttə, hələlik bu xəbərlərin nə qədər dəqiq olması məlum deyil, amma aydın məsələdir ki, İraq və Suriyada bu qruplaşmalara qarşı başlayan yeni müharibə ilə bağlıdır. İŞİD döyüşçüləri də yaxşı anlayır ki, onların adıçəkilən ölkədəki mövcudluğu üzərindən xətt çəkilib. Bu səbəbdən də artıq mediada İŞİD üzvlərinin "geri dönməsi" mövzusu yenidən aktuallıq qazanır. Təbii ki, bu mövzu Azərbaycanda da narahatlıqla izlənilir. Çünki dünyanın bir çox ölkələri kimi, Azərbaycandan da xeyli sayda ölkə vətəndaşı savaşmaq üçün Suriya və İraqa gedib, onların böyük bir qismi (2013-cü ilin məlumatlarında 60 faizə qədəri - K.R) İŞİD sıralarında döyüşüb.**



Qeyd edək ki, İŞİD sırasında olan azərbaycanlıların sayı ilə bağlı bir-birindən fərqli rəqəmlər söylənilib. 2013-cü ildə Suriyada savaşan azərbaycanlılardan biri Türkiyə mediasına müsahibəsində bu ölkədə savaşan azərbaycanlıların 250 nəfərə yaxın olduğunu demişdi. Bir qədər əvvəl isə mətbuatda ABŞ-ın təhlükəsizlik orqanlarının İŞİD terror qruplaşmasına 70 millətin nümayəndəsinin qoşulduğu barədə məlumatın olması haqda xəbər yayıldı. 4600-ə qədər insanın adının olduğu siyahı keçmiş İŞİD üzvlərindən biri tərəfindən ABŞ-a ötürülmüşdü. Həmin siyahıda İŞİD-ə Səudiyyə Ərəbistanından (579 nəfər), Rusiyadan (141 nəfər), Azərbaycandan İŞİD-ə qoşulan muzdluların sayı 122, Türkiyədən qoşulanların sayı isə 243 nəfər olduğu deyilirdi.

İŞİD üzvlərinin və oradakı azərbaycanlıların sayı ilə bağlı ən son məlumatlardan biri də mediaya ABŞ-ın "Soufan Qrup" şirkəti tərəfindən təqdim olunub. Axar.az saytının yaydığı həmin siyahıda İŞİD tərkibində 86 ölkədən olmaqla, 31 min nəfərin döyüşdüyünü yazıb. Siyahıda Şimali Afrika və Yaxın Şərq ölkələrindən olan İŞİD üzvlərinin sayının 16 min nəfərdən çox olduğu, bunların Tunis (6000 nəfər) və Səudiyyə Ərəbistanı (2500 nəfər) vətəndaşlarının çoxlu təşkil etdiyi əksini tapıb.

Həmçinin İŞİD sıralarında Qərbi Avropadan 5 min nəfər olub ki, bunun da böyük hissəsi Fransa (1700 nəfər), Böyük Britaniya (760 nəfər), Almaniya (760 nəfər) və Belçikanın (470 nəfər) payına düşüb. İŞİD üzvləri arasında Rusiya və MDB ölkələrindən gedənlərin sayının 4700 nəfər olduğu, bunun 2400-nün Rusiya, əsasən də Dağıstan, Çeçenistan kimi respublikalardan olduğu məlum olub.

Maraqlıdır ki, bu siyahıya əsasən Azərbaycan və Gürcüstandan *(görünür, Cənubi Qafqaz və Gürcüstandakı azərbaycanlılar faktoru səbəbindən iki respublika birgə qeyd olunub - K.R.)* İŞİD sıralarında olan şəxslərin sayı 500 nəfərdir.

Qeyd edək ki, bir qədər əvvəl vesti.az saytı Suriyada döyüşən azərbaycanlıların təxmini sayını müəyyənləşdirmək məqsədilə Azərbaycanın 40 polis idarəsində sorğu keçirib. Sorğunun nəticələrinə əsasən, Suriyada Bəşər Əsədə qarşı döyüşən qruplaşmaların tərkibində Xaçmaz, Zaqatala, Qax, Yevlax, Şabran, Oğuz, Quba, Şəki, Qusar və Sumqayıtdan 104 nəfər döyüşüb, onlardan təxminən 60 nəfərə yaxını döyüşlərdə öldürülüb. Eyni zamanda Suriyaya ən çox azərbaycanlı Sumqayıt şəhərindən (40), Şabran (22) və Qusar rayonlarından (15) gedib. Sorğu zamanı Azərbaycanın əksər rayonlarında Suriyaya gedərək qanunsuz hərbi birləşmələrin tərkibində döyüşən azərbaycanlıların olmadığı müəyyənləşib.

Qeyd edək ki, Azərbaycandan Suriyaya savaşmaq üçün gedənlərlə bağlı ilk ciddi məlumat 2013-cü ilin yazında videogörüntülər yayılanda üzə çıxıb. Bundan sonra bu tip xəbərlər yerli və xarici mediada yer almağa başlayıb. Ancaq 2014-cü ilin yanvarında Suriyanın şimalında İŞİD və digər islamçı qruplar arasında mövqe müharibəsi başladıqdan sonra hər iki tərəfdən ölənlər arasında azərbaycanlıların olması mediada geniş əks-səda doğurdu. Yaranmış vəziyyətdən hökumət də narahat oldu və ilk dəfə geri qayıdanların həbsləri başladı, eyni zamanda Cinayət Məcəlləsində xarici ölkələrdə qeyri-qanuni silahlı birləşmələrin tərkibində vuruşanlara qarşı cəzalar sərtləşdirildi, geri qayıdanların həbsi başladı. Ümumilikdə son 2,5 il ərzində 100-ə yaxın ölkə vətəndaşı xaricdə silahlı birləşmələrin tərkibində döyüşdüyü üçün həbs olunaraq məhkum olunub.

Ancaq hazırda da İraq və Suriyada çoxlu sayda azərbaycanlı olduğu haqda məlumatlar var. Ara-sıra ictimaiyyətdə bu insanların geri qayıtması və yaranacaq təhlükələrdən bəhs olunur. Bu insanların radikal dini cərəyanların təsiri altında olması, terror fəaliyyətləri göstərməsi, dini dözümsüzlüyü olması, eləcə də müəyyən təşkilat və qruplara bağlılığı və nəhayət, müharibə yaşaması onların yenidən bu kimi fəaliyyətlərə dönməsi riskini yaradır. Bu səbəbdən də Azərbaycanda da bu istiqamətdə, yəni geri qayıdanlarla bağlı narahatlıq var. Məsələ burasındadır ki, İŞİD bu günə qədər mövcud olmuş ən güclü terror təşkilatı olub. Ona qədər ən güclü terror təşkilatı hesab olunan "əl-Qaidə" gizli fəaliyyət göstərib, dövlət elan etməyib. Ancaq İŞİD İraq, Suriya, Liviya, Yəmən və eləcə də ona sədaqətini bildirən terror təşkilatları vasitəsilə Afrikaya qədər bir çox ölkələrdə konkret ərazilərə nəzarət edirdi. İndi terror ekspertləri İraq və Suriyada əzilən qruplaşmanın "yer altına" çəkilməsi, gizli fəaliyyətə keçməsi ehtimalını müzakirə edirlər.

Azərbaycanda din sahəsində müəyyən tolerantlıq mühitinin olması, hüquq-mühafizə orqanlarının sərt tədbirləri və ən əsası bu günə qədər ölkəmizin beynəlxalq terror təşkilatlarının, eləcə də terroru himayə edən dövlətlərin hədəfində olmaması səbəbindən Azərbaycana qarşı ciddi terror təhdidi olmayıb. Ancaq bu siyasi-diplomatik vəziyyətin bir gün dəyişməsi riski hər zaman qaldığı üçün terror riski də ciddi təhdid olaraq qalır. Çünki İŞİD liderlərinin birbaşa ölkəmizi hədəfə alan çıxışları da olub.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 253 (6574) 15 noyabr 2016

# Trampdan Qarabağa ədalət gözləyəkmi...

Seçki kampaniyası dövründə Cənubi Qafqaz, Dağlıq Qarabağ münaqişəsi haqda heç nə deməyən yeni prezident erməni lobbisindən asılı deyil

**Donald Trampın seçki kampaniyası dövründə bir dəfə olsun Cənubi Qafqaz, Azərbaycan, Qarabağ barədə hər hansı fikir bildirməməsi, Krım məsələsi ilə bağlı isə ona ünvanlanan suala birmənalı fikir bildirməkdən yayınması hakimiyyəti dövründə ondan Qarabağla bağlı ədalətli mövqe gözləməyin məntiqli olub-olmadığı məsələsini gündəmə gətirir.**

**Politoloq Elçin Mirzəbəyli** hesab edir ki, Trampın seçki kampaniyasında ABŞ-ın xarici siyasətinin perspektiv istiqamətləri ilə bağlı səsləndirdiyi fikirləri onun prezident kürsüsünə oturduqdan sonra yürüdəcəyi siyasətlə əlaqələndirmək doğru olmazdı. Trampın seçki kampaniyası ərzində verdiyi açıqlamalar, debatlarda dilə gətirdiyi mülahizələr onu deməyə əsas verir ki, onun Birləşmiş Ştatların xarici siyasəti barədə aydın təsəvvürləri yoxdur. Bu da onu deməyə əsas verir ki, bu məsələdə əsas yük ABŞ-ın xarici siyasəti ilə bağlı qatı mühafizəkar mövqe tutan vitse-prezident Mayk Pensin və hələlik kimliyi tam dəqiqləşməyən dövlət katibinin üzərinə düşəcək: "Maykl Pens həm konqresmen, həm də qubernator kimi özünü təsdiq etmiş siyasətçidir. Onun oğlu İraq müharibəsi veteranıdır. Pens 2002-ci ildə İraqa silahlı müdaxiləni dəstəkləyib və Qəddafi rejiminin devrilməsinin ən qatı tərəfdarlarından biri kimi çıxış edib. ABŞ-da Maykl Pensi respublikaçıların Donald Tramp üzərindəki nəzarətçisi və Trampın tərbiyəçisi kimi təqdim edirlər. Bunu təsdiq etmək üçün bir məqama diqqət çəkim: Donald Tramp seçki kampaniyası dövründə müsəlmanların ölkəyə girişinə müvəqqəti qadağa qoyulması məsələsini gündəmə gətirəndə, Maykl Pens dərhal onun fikirlərinə düzəliş verərək bunun ölkə konstitusiyasına zidd olduğunu bildirdi və nəticədə Tramp bir daha vədinin üzərinə qayıtmadı. Belə nümunələrin sayını artırmaq olar. Yəni demək istəyirəm ki, ABŞ-ın xarici siyasətində Trampın komandası, o cümlədən peşəkar siyasətçi və bacarıqlı idarəçi olan Maykl Pens əhəmiyyətli rol oynayacaq. Trampın Krım məsələsini gündəmə gətirməməsi onun seçki kampaniyasının ümumi fəlsəfəsi ilə bağlıdır. Tramp Rusiyaya qarşı kəskin mövqe nümayiş etdirən Klintona əks mövqedə dayanırdı və istər-istəməz Krım məsələsinin üzərindən sükutla keçməliydi. Bir məqamı da diqqətinizə çatdırım ki, Tramp və onun komandası, xüsusilə də vitse-prezident Pens nəhəng sənaye biznesinin maraqlarından çıxış edir və bu sektorun da Rusiyada ciddi maraqları var. Düşünürəm ki, bu detallar da nəzərə alınmalıdır. Qarabağ məsələsinə gəldikdə isə Trampın komandasında Cənubi Qafqazı yaxşı tanıyan insanların olması deməyə əsas verir ki, bu məsələ ilə bağlı ABŞ-ın yeni prezidentinin baxışlarının formalaşmasına uzun müddət sərf olunmayacaq. İndiki şəraitdə bizim üçün əlverişli olan bir neçə məqam var:

**1.**Tramp ABŞ-ın Türkiyə ilə münasibətlərini qaydaya salmaq və Ankaraya regionda daha böyük səlahiyyət vermək niyyətindədir. **2.** Tramp və onun komandası ABŞ-Türkiyə-Rusiya əməkdaşlığına sıcaq yanaşır. **3.** Tramp yeganə ABŞ prezidentidir ki, qondarma erməni soyqırımı ilə bağlı heç bir vəd verməyib və bu sözü ümumiyyətlə dilinə gətirməyib. **4.** ABŞ-dakı erməni lobbisi və diasporu Trampın əleyhinə çıxış ediblər və hətta onun ünvanına aşağılayıcı fikirlər səsləndiriblər".



**Elçin Mirzəbəyli:** "Tramp yeganə ABŞ prezidentidir ki, qondarma erməni soyqırımı ilə bağlı heç bir vəd verməyib"

**Politoloqun fikrincə, bütün bunlar Trampın Dağlıq Qarabağla bağlı mövqeyinə təsir göstərə bilər. Lakin bütün bunlar ehtimallardır. Tramp bütün hallarda ABŞ-ın qlobal geosiyasi maraqlarından çıxış edəcək:** "Qlobal geosiyasi maraqların fonunda bizim üçün böyük görünən bir çox məsələlər diqqətdən yayına, yaxud güzəştə gedilə bilər. Çalışmaq lazımdır ki, Dağlıq Qarabağ probleminin ədalətli həllinin vacibliyi və Azərbaycanın önəmi qlobal geosiyasi maraqlar müstəvisinə daşınsın".

**Politoloq Natiq Miri isə bildirdi ki, Trampın seçki kampaniyası dövründə Cənubi Qafqaz və Qarabağ problemi ilə bağlı heç bir fikir işlətməməsi o demək deyil ki, Cənubi Qafqaz, Dağlıq Qarabağ məsələsi ABŞ-ın xarici siyasətində önəmli yer tutmayacaq:** "İndidən demək olmaz ki, Tramp Cənubi Qafqaza, Dağlıq Qarabağ məsələsinə diqqət ayırmayacaq. Trampın bu bölgə haqqında xüsusi anlayışı olmaya da bilər. Amma nəzərə almaq lazımdır ki, geosiyasi məsələlər təkcə prezidentin müəyyənləşdirdiyi məsələlər deyil. ABŞ bir şəxsin iradəsi ilə idarə olunan dövlət deyil. Trampın dövründə də ABŞ Cənubi Qafqazda, o cümlədən Dağlıq Qarabağ məsələsində öz maraqlarını həyata keçirməyə çalışacaq. Əgər Trampın rəhbərlik edəcəyi ABŞ-ın xarici siyasətində bütün dünya gücləri, eyni zamanda Rusiya ilə uzlaşma siyasəti yürüdüləcəksə, təbii ki, bunun Azərbaycana da, xüsusilə Dağlıq Qarabağ məsələsinə də təsiri olacaq. Dağlıq Qarabağ probleminin həlli yalnız qlobal regional münaqişələr kontekstində mümkün olacaq. Bu məsələyə Suriya və Ukrayna problemi kontekstində baxılmalıdır. Gələcəkdə Suriya məsələsində Tramp Kremllə anlaşacaqsa, bu uzlaşmanın Ukraynaya, ardınca isə Dağlıq Qarabağ məsələsinə də təsiri olacaq. Ona görə də məsələlərə kompleks şəkildə yanaşılmalıdır. ABŞ-la Rusiyanın anlaşması olmalıdır ki, regiondakı münaqişələr həllini tapsın. Bu olmadan nə Suriyada, nə Krımda, nə Dağlıq Qarabağda münaqişənin həllini görməyəcəyik. Dağlıq Qarabağ probleminin ayrıca həll olunması mümkün deyil. Bu məsələlərdə bir bütün olmaq lazımdır".

**Politoloq Trampın erməni lobbisi ilə əlaqəsinin olmamasının Azərbaycanın da xeyirinə olduğu qənaətindədir:** "Trampa erməni lobbisinin maliyyəsi ehtiyac deyil. Seçki kampaniyasında da erməni lobbisi ilə əlaqəsi, əməkdaşlığı olmadı. Erməni lobbisi Klintonu dəstəkləyirdi. Bu detallar Dağlıq Qarabağ probleminin həllində müsbət baxımdan özünü göstərəcək. Odur ki, Trampın timsalında mühit Azərbaycanın xeyrinədir".

❑ **Etibar SEYİDAĞA**



# ABŞ prezidentləri ilk səfəri hansı ölkəyə edir?

Son 35 ildə ilk səfərlər bir qayda olaraq qitə daxilində olur

**Dünya ölkələrində yeni seçilən prezidentin fəaliyyətə başladıqdan sonra ilk rəsmi səfərini hansı ölkəyə etməsi xüsusi siyasi məna daşıyır. Bu cür səfərlər həmin dövlətin və ya dövlət başçısının səfər etdiyi məmləkətə verdiyi önəm və ya o ölkənin dövləti üçün xüsusi yerini göstərir.**

Məsələn, Türkiyə prezidentləri uzun illərdir yazılmamış qanunu yaşadırlar. Seçilmiş dövlət və hökumət başçıları ilk xarici səfərlərini Şimali Kipr Respublikasına edirlər. Son 10 ildə isə Türkiyə rəhbərliyi seçkilərdən sonra ilk rəsmi səfərini Azərbaycana edir. Şimali Kipr tanınmamış respublika olduğu üçün ilk rəsmi dövlət səfərləri Azərbaycana edilir. Yeri gəlmişkən, daha əvvəl Türkiyə liderləri Kipr səyahətindən sonra ilk səfərlərini adətən ABŞ-a edirdilər.

Son günlərin əsas müzakirə mövzusu heç şübhəsiz ki, ABŞ-ın yeni seçilmiş prezidenti Donald Trampdır. 45-ci prezident ənənəyə uyğun olaraq gələn il yanvarın 20-də and içərək vəzifəsinin icrasına başlayacaq. Trampın prezident olaraq ilk xarici rəsmi səfərini hansı ölkəyə edəcəyi ilə bağlı artıq versiyalar ortaya atılıb. ABŞ prezidentinin Rusiyaya, Türkiyəyə, hətta Azərbaycana gələcəyi ilə bağlı iddialar var.

Axır 30-40 il ərzində seçilmiş ABŞ prezidentlərinin ilk xarici səfərlərini araşdırarkən maraqlı nəticələr ortaya çıxdı. Məlum oldu ki, istisnalar xaric ABŞ prezidentlərinin ilk xarici, səfərləri qonşu Kanadaya olub. Məsələn, 1980-ci il seçkilərində qələbə qazanan və 1981-ci ilin yanvarında vəzifəsinin icrasına başlayan prezident Ronald Reyqan ilk xarici səfərini martın 10-11-də Kanadaya edib. 1988-ci il seçkilərində qələbə qazanaraq prezident seçilən ata Corc Buş da bu ənənəni davam etdirib. 1989-cu ilin yanvarında səlahiyyətlərinin icrasına başlayan Corc Buş 20 gün sonra, fevralın 10-da Kanadaya səfər edib. Bu qaydanı 1993-cü ilin yanvarında ABŞ prezidenti kimi and içərək vəzifəsinin icrasına başlayan demokrat prezident Bill Klinton da davam etdirib. Klinton aprelin 3-4-də Kanadaya səfər edib.

2000-ci ildə seçkiləri qazanaraq ABŞ-ın prezidenti seçilmiş kiçik Corc Buş vəzifə səlahiyyətlərinin icrasına başladıqdan 3 ay sonra - aprelin 20-22-də Kanadaya səfər edib. Və nəhayət, hazırkı prezident Barak Obama 2009-cu ildə vəzifəyə gəldikdən düz bir ay sonra fevralın 19-da qonşu Kanadaya səfər edib. Apreldə isə Obama qitəni tərk edərək Yaxın Şərqə səfər edib, Misir və Türkiyədə rəsmi görüşlərə qatılıb. Yeri gəlmişkən, Obama ikinci dəfə seçildikdən sonra ilk xarici səfərini İsrailə edib. Ancaq buna baxmayaraq, ABŞ və İsrail hökumətləri arasında münasibətlər o qədər də isti olmayıb. Baş nazir Netanyahu ilə prezident Obama arasında soyuq küləklər əsib.

Qeyd edək ki. ABŞ prezidentlərinin ilk səfərlərini Kanadaya etməsinin əsas səbəbi kimi bu ölkə ilə coğrafi qonşuluq göstərilir. ABŞ-ın cəmi iki ölkə ilə - Kanada və Meksika ilə quru sərhədləri var. Ən böyük quru sərhədi isə Kanada ilədir. Bundan başqa, tarixi, siyasi, iqtisadi cəhətdən ABŞ və Kanada yaxın ölkələrdir.

❑ **Kənan RÖVŞƏNOĞLU**

YENİ MÜSAVAT
N 253 (6574) 15 noyabr 2016



# "Avatar"da yaşamaq

Zamin HACI
zaminhaci@gmail.com

**Telekanalizasiyalardan birinin şou verilişində ciddi saxtakarlığı isbat edən kadrlar yayılıb. Bu, azərbaycanlıların kövrək və saf qəlbi ilə oyun oynamaq, insanları aldadıb ağlatmaq cəhdidir, yumşaq yazsaq, vicdansızlıqdır. Həmin kadrların üstündə "bu bir kinodur", "biz burda aktrisalıq edirik" yazılsa, kimin nə sözü olardı? İndiki halda həmin telejurnalist öz hərəkəti ilə yalan yazan qəzetçidən, işgəncə verən, cibə narkotik atan, qanunsuz hökm kəsən hüquq-mühafizə orqanı işçisindən, tumanında bülleten daşıyan "müəllimdən", xəstəyə yalançı resept yazan həkimdən heç fərqlənmir.**

Bəziləri deyir ki, burda jurnalistin günahı yoxdur, telekanal rəhbərliyi əmr edib, o da belə şeylər düzəldib. Çox mənasız bəraət cəhdidir. Rəhbərlik hər cür əxlaqsızlıq təklif edə bilər, bəs sənin öz vicdanın hardadır? Niyə saxtakarlıq edirsən? Oyuncaqsan, yoxsa insan?

İctimai nəqliyyatda bənzər səhnələr görürük. Hansısa saxta dilənçi əl-qolunu əcaib bükərək gəlir, beş-on kəlmə ağlaşma quraraq sadəlövh, ürəyiyumşaq adamlardan bəzən 1-2 manata qədər pul toplayıb gedir. İndi bu verilişi də hansısa mətbəx qadınları auditoriyasına yönəlmiş, ziyansız veriliş sayanlar tapılır. Deyirlər əşi, onsuz da bu verilişə heç bir ciddi adam baxmır, baxanlar da bilirlər saxta olduğunu, vaxt öldürmək üçün baxırlar və sairə.

Əlbəttə, həmin "məntiqlə" bizim ölkədə istənilən məsələyə fikir vermək mənasızdır. Örnək üçün, konstitusiyanı istədikləri kimi dəyişdirib yazırlar, yazsınlar da, onsuz kim o kağız parçasına baxırdı? Uşağa məktəbdə dərs keçmirlər... Əşi, guya oxuyub qurtaranlara iş var? Yolumuz bərbaddır... Olsun da, guya hara gedirsən, fərli bir yer var? Suyumuz gəlmir... Cəhənnəmə gəlsin, gələndə qonşu maşın yuyur, həyət palçıq olur. Həkim sağ ayaq yerinə sol qolu kəsib... Əşi, axırı ölümdür, fikir vermə.

Bu mənada, milli telekanalizasiya şurası sədrinin açıqlaması ibrətamizdir. Deyir, bu kadrları mən hələ 2014-cü ildən görmüşəm. Bəs tədbiri nə olub? Heç zad: verilişi bir kanaldan o birisinə qovublar, indikindən də şikayət edən yoxdur. Guya köhnədən var idi ki? "Bir kub dərman vurulub yatızdırılan", ayağı xərəyə bağlanan yazıq adamlar nədən, kimdən şikayət edəcəkdilər? Onların buna imkanı qalırmı?

Ümumiyyətlə, hərənin ayağını bir yerdən və bir yerə bağlayıblar, tərpənməyə qoymurlar. Bütün Azərbaycan o xərəkdə studiyaya gətirilən qocanın günündədir. Yeri gəlmişkən, qocanın Rusiyadan "tapılıb" gətirilmə anı da yetərincə karikatur, tragikomik alınmışdı: deyəsən, qoca heç Azərbaycana gətirilməsini istəmirdi, deyirdi burda pensiyam, hər şeyim var, əl çəkin məndən. Ancaq verilişin manyakları bədbəxti ayağından bağlayıb zorla gətirdilər.

Şübhəsiz, belə yalançı verilişlərin reytinq yığmasında iqtisadi çətinlik, təhsilsizlik, siyasi bataqlıq qədər din də rol oynayır. Bunlar qarşılıqlı olaraq bir-birini gübrələyən, bəsləyən kateqoriyalardır. O üzdən istənilən saxtakar dilənçi, həmçinin, telekanalizasiyada ağlaşma şoularının mərsiyəxan və ağıçı arvadlarının dilində birinci kəlmə "Allah rizası üçün, Allah xətrinə filan cür edək" olur. Kasıb ölkədə, avtoritar bütlər ölkəsində istənilən studiyadan pir düzəltmək çox asandır. Şübhəçilər, araşdıranlar, düşünənlər türmələrdə çürüyürsə, başqaları da uymağa meyllənəcək. Açığı, belə bir az da rahatdır: azadlıq və məsuliyyət, öz ölkəni, öz xalqının taleyini düşünmək baş ağrıdırsa, studiyada "bir kub dərman" vurulub uzadılan adamlara paxıllıq hissi yaranır.

Bu yaxında internetdə bir TV süjeti gördüm. Xaçmaz tərəfdə yol çəkiblər, yaxşı bir iş görüblər: yolun üstünə düşən ağacı kəsməyiblər, qıraqdan işləyiblər, ağac da qalıb yolun ortasında. Dünyanın başqa ölkələrində belə təbiətə hörmət hadisələrini çox görmüşük, şəxsən mən sevindim ki, nə yaxşı bizdə də var. Ancaq süjetin ardı tragikomediya idi. "Telejurnalist" bir "mühəndisi" danışdırdı, o isə dedi ki, haçansa (? - Z.H) yol çəkiləndə traktor bu ağacı çıxartmaq istəyib, ancaq traktor özü qırılıb. Lap axırda isə kamera maşınla ağacın yanına çatıb dayanan, daşın üstündəki dəmir kasaya qəpik atıb gedən adamı göstərdi. Ağac pir olub artıq.

İndi Ceyms Kemeronu danışdırsan, deyəcək, mən "Avatar" kinosu çəkmişəm. Qardaş, biz bunun həyatını yaşayırıq e...

# Bakıdan savaş hədəsi, Kremldən "ortaq ordu" təsəllisi - işğalçı qorxu və ümid arasında...

## Prezidentin cəbhə xəttindən düşmənə verdiyi sərt xəbərdarlıq mesajları hədəfə dəyib; seçim yenə Ermənistanındır: sülh istəməsə, müharibə alacaq; Moskva erməni silahlı qüvvələrinə daha yaxşı nəzarət mexanizmi hazırlayır?..



**Azərbaycan Ordusunun noyabrın 12-də - Konstitusiya günü başladığı və müstəqillik tariximizdə ən iri hərbi təlimləri davam edir. Təlimlərin ilk günündəcə ölkə prezidenti, Ali Baş Komandan İlham Əliyevin cəbhə bölgəsində olması, faktiki, hərbi təlimlərin açılışını etməsi, üstəlik də düşmənlə cəmi bir neçə yüz metrlik məsafədə, həm də kamuflyajda ona sərt ismarışlar göndərməsi təlimlərin effektinə xüsusi ağırlıq qatır.**

Bu, əlbəttə ki, sadəcə, olaraq əzələ nümayişi deyil. Bu, ən əvvəl və bir daha ordumuzun, bütövlükdə Azərbaycanın işğal altındakı torpaqlarla bağlı məramının ciddiliyinin təsbitidir. İşğalçı ölkə tezliklə ədalətli mövqeyə gəlməzsə, bunun ağır nəticələrindən onun qaça bilməyəcəyinin ən barizi şəkildə anonsudur.

Nəhayət, bu, o deməkdir ki, Bakının sülh çağırışlarını, optimal muxtariyyət təklifini qəbul etməyən, kəsəsi, sülh istəməyən düşmən məhz müharibə alacaq. Prezident necə demişdi? Qoy "Ermənistan başqalarının gücünə güvənməsin, ağlını başına yığsın, əks halda, Lələtəpə kimi uğurlu əməliyyatlar təkrarlana bilər". Bundan aydın mesaj?

***

Məsələ də ondadır ki, rəsmi Bakı İrəvanın hətta "başqa güclərə" - havadarlara ümid eləməsini də ondan ötrü xilas yolu olmayacağının anonsunu verib. Əslində düşmən üçün ən ciddi xəbərdarlıq elə budur. Çünki Ermənistanın hər variantında ümid elədiyi yeganə qüvvə - müttəfiqi Rusiyadır.

Lakin 4 günlük aprel döyüşlərindəki rüsvayçı uğursuzluq göstərdi ki, ermənilərin ruslara bel bağlaması bir elə etibarlı, zəmanətli məsələ deyil. Çünki bəlli odlu ki, Kremlin də bölgə ilə bağlı öz maraqları, o sırada ciddi önəm verdiyi Türkiyə və Azərbaycanla münasibətlər məsələsi var və s.

Təsadüfi deyil ki, apreldə - erməni ordusunun "məğlubedilməzlik" mifinin darmadağın edilməsindən dərhal sonra işğalçı ölkədə Rusiyaya qarşı əsl isterika baş qaldırdı, etirazlar, yürüşlər keçirildi, hətta Putinin portreti və Rusiya bayrağı yandırıldı. Doğrudur, bunun ardınca Moskva ermənilərin könlünü almaq, onları sakitləşdirmək üçün müəyyən addımlar atdı, ermənilərə "İsgəndər oyuncağı" verdi.

Amma düşmənin təlaşı keçmədi. Ona görə ki, ilk dəfə anladı ki, Rusiya həmişə onun arxasında durmaya da bilər. Bu təlaş Moskva-Ankara münasibətlərinin qaydaya düşməsi və istiləşməsi fonunda davam edir və yəqin ki, heç vaxt Ermənistandakı kriminal Sərkisyan rejimini tərk etməyəcək.

***

Rusiya ilə Ermənistanın "ortaq ordu" məsələsi də faktiki şəkildə Kremlin eyni hədəfə hesablanmış növbəti gedişidir. Xəbər verildiyi kimi, prezident Vladimir Putin Rusiya və Ermənistanın birləşmiş ordu qrupunun yaradılması haqda saziş bağlanması haqda sərəncam verib. O, Müdafiə Nazirliyinə Xarici İşlər Nazirliyinin iştirakı ilə Ermənistanla müzakirə aparmaq və razılıq əldə olunacağı təqdirdə sazişi imzalamağı tapşırıb.

Hələ ki ortaq ordunun əsas hədəfinin nə olduğu bilinmir. Ancaq məlumatlara əsasən, belə birləşmə yaradılarsa, ona dinc dövrdə erməni generalın, müharibə şəraitində isə rus generalın rəhbərlik eləməsi nəzərdə tutulur. Bu da erməni tərəfi qane eləmir. Çünki onlar üçün əsas olan elə müharibə situasiyasıdır.

Lakin aydındır ki, Rusiya belə kritik vəziyyətlərdə hansısa erməni generalın rus zabit və əsgərlərə komandanlıq edib, onlardan istədiyi şəkildə Azərbaycana qarşı açıq-aşkar hərbi təxribatlar törətməsinə, beləliklə də Moskva- Bakı və Moskva-Ankara münasibətlərini risk altına qoymasına imkan verməz.

Yeri gəlmişkən, hələ Türkiyə-Rusiya münasibətlərinin kritik olduğu dönəmdə - apreldə Ermənistan o vaxt öz ərazisindəki "İsgəndər" raket komplekslərindən istifadə etməyə cürətlənməmişdi - həm də ona görə ki, buna Moskva icazə verməmişdi. Verməzdi də...

***

Deməli, "ortaq ordu" söhbəti də ermənilər üçün bir iliğım, lap dəqiqi isə bir tələdir. Ona görə ki, əslində bu layihə müharibə variantında erməni birləşmələrinin hərəkətinə Rusiyanın daha güclü nəzarət eləməsinə imkan yarada bilər.

Bir sözlə, Kremlin "ortaq ordu" projesi də işğalçı üçün sanballı təsəlli hesab oluna bilməz. Bu söhbətin məhz Azərbaycanın ən iri hərbi təlimlərə başladığı və İlham Əliyevin düşmənə sərt xəbərdarlıqları fonunda gündəmə gətirilməsi isə olsa-olsa işğalçıya "qorxma yanındayam" təsəllisidir. Təsəlli isə hələ "həmişə yanında olacağam" anlamına gəlmir.

Daha bir səbəbdən: Rusiya rəsmi şəxsləri və generaliteti dəfələrlə bəyan ediblər ki, Ermənistandakı rus hərbi birləşmələrindən heç vaxt Ermənistan hüdudlarından kənarda, o sırada Dağlıq Qarabağda istifadə edilməyəcək. Yalnız Ermənistanın özünə real təhlükə yaranarsa, iki və çoxtərəfli (KTMT) hərbi müttəfiqlik öhdəliyi işə düşə bilər. Azərbaycan və Türkiyə isə Ermənistana hücum etməyə hazırlaşmır.

Əlbəttə ki, bu heç də o demək deyil ki, Azərbaycan yüz faiz Rusiya sarıdan arxayın ola bilər. Ən azı, yaxın 200 ilin tarixi göstərir ki, Moskvanın bölgədə daimi dostları yox, daimi maraqları var. Bəlkə də normaldır. O zaman niyə Azərbaycan da öz daimi maraqlarından çıxış eləməsin ki...

❑ **Siyasət şöbəsi**



# Moskva İrəvana müasir silahlar verdi

**Rusiya Ermənistana 6 ədəd "Smerç" reaktiv artilleriya sistemi və 6 ədəd TOS-1A ("Solnçepyok") ağır odpüskürmə sistemi verəcək.**

Axar.az xəbər verir ki, bu barədə informasiya Rusiyanın Dünya Silah Ticarəti Analizi Mərkəzinin hesabatında yer alıb. Hesabata əsasən, Ermənistan bu "Smerç" sistemlərinə görə Rusiyaya 60 milyon dollar, "Solnçepyok"a görə isə 40 milyon dollar ödəməlidir. Bu il İrəvan Rusiyadan "Tiqr" tankları və İqla-S zenit-raket komplekslərı də alacaq.

Qeyd edək ki, bu silahların hamısı İrəvana Moskvanın bir neçə ay öncə ayırdığı 200 milyon dollar kredit sayəsində veriləcək. Tərəflər arasında razılaşmaya əsasən, kredit Ermənistan ordusunun müasir silahlarla təchizatına xərclənməlidir. İrəvan Moskvadan aldığı krediti 2018-ci ildən etibarən ödəməyə başlayacaq. Kredit 10 il ərzində ödənilməlidir. Bu silahların hər birinin adı bundan öncə Ermənistanın Rusiyadan hansı silahları alacağı ilə bağlı hazırladığı siyahıda yer almışdı.

Maraqlı məqam odur ki, Rusiya bu silahları Ermənistana tam güzəştli şərtlərlə satır. Belə ki, hazırda "Smerç" sistemlərinin eksport versiyası 12,5 milyon dollaradır. Əgər hesabata nəzər yetirsək, Moskvanın onu Ermənistana 10 milyon dollara verdiyini görə bilərik.

YENİ MÜSAVAT
N 253 (6574) 15 noyabr 2016

# Qərb Rusiyaya uduzurmu...

## Moldova və Bolqarıstandakı seçkilərdə Putinin dəstəklədiyi namizədlər qalib gəlib; ekspertlərin məsələyə baxışı müxtəlifdir

**Moldova və Bolqarıstanda keçirilən prezident seçkiləri dünya üçün bir sıra məqamlarla yadda qaldı. Ən maraqlısı odur ki, hər iki ölkədəki seçki marafonuna Rusiya və Qərb də qoşulmuşdu, müvafiq olaraq iki namizəddən birinə açıq şəkildə dəstək verdilər.**


İqor Dodon


Rumen Radev

Bu kontekstdə son nəticədə Qərbin Rusiyaya uduzduğunu desək, daha doğru olur. Belə ki, seçkilərin nəticələrinə əsasən, hər iki ölkədə qərbmeylli deyil, rusiyameylli namizədlər hakimiyyətə gəldilər.

Moldovada seçkilərin ikinci turunda rusiyameyilli Moldova Respublikasının Sosialist Partiyasının (MRSP) lideri İqor Dodon qalib gəlib.

“Report” xəbər verir ki, ölkənin Mərkəzi Seçki Komissiyasının ilkin məlumatına görə, o, bülletenlərin 98%-nin hesablanmasından sonra səslərin 54,4%-ni toplayıb.

Dodonun rəqibi - avropayönlü müxalifətdən olan yeganə namizəd - Fəaliyyət və Həmrəylik Partiyasının rəhbəri Mayya Sandu seçicilərin 45,5 %-nin dəstəyini qazanıb.

41 yaşlı İqor Dodon iqtisad elmləri doktorudur. Moldova hökumətində müxtəlif postlar, o cümlədən baş nazirin birinci müavini, iqtisadiyyat və ticarət naziri vəzifələrini tutub. Sosialist Partiyasının sədri, Moldova Şahmat Federasiyasının prezidentidir.

Bolqarıstanda da prezidentin adına seçkilərin ikinci turunda aydınlıq gəlib. Bolqarıstan Sosialist Partiyasının üzvü, Hərbi Hava Qüvvələrinin sabiq komandanı Rumen Radev seçkilərdə qalib gəlib. “Gallup” sosial agentliyi keçirdiyi exitpolun nəticələrini açıqlayıb. Belə ki, Rumen Radev seçicilərin 58,5 faizinin səsini qazanıb.

Onun rəqibi hakim “Vətəndaşlar Bolqarıstanın Avropa inkişafı uğrunda” (GERB) Partiyasının namizədi, Xalq Yığıncağının sədri, xanım Tsetska Tsaçeva isə seçkini 35 faiz səslə başa vurub.

Əksər ekspertlər də Moldova və Bolqarıstandakı seçkilərin nəticələrini Qərbin məğlubiyyəti kimi qiymətləndirirlər. Bundan sonra hər iki ölkənin yeni başçısının rusiyameylli siyasət yürüdəcəyinə artıq kimsədə şübhə qalmayıb. Çünki zaman-zaman digər ölkələrdə bu tipli hadisələrin şahidi də olmuşuq, sonradan həmin dövlətlərdə şimal qonşumuzun mövqelərinin nə qədər gücləndiyini də görmüşük. Ümumilikdə götürəndə Rusiyanın Qərblə bu tipli qarşıdurmalarda əksərən qalib olduğuna şahidlik edirik. Təkcə ötən ay qonşu Gürcüstanda keçirilən parlament seçkilərini və Qərbin adamı olan keçmiş prezident Mixail Saakaşvilinin acı məğlubiyyətini xatırlamaq kifayət edər.

**Politoloq Şahin Cəfərli baş verənlərin Rusiya-Qərb qarşıdurması kimi qələmə verilməsinin əleyhinədir:**

### Şahin Cəfərli: “Seçkilərin nəticələri Qərb və Rusiyanın bu ölkələrdəki mübarizəsinin nəticəsi deyil”

“Hazırda qlobalizm və liberal-demokratik dünya düzəni böhran mərhələsinə qədəm qoyub. Hər yerdə hakim sistemə əks olan reaksion və revizionist qüvvələr populyarlaşır, radikallıq artır, eyni zamanda içə qapanma hissi, özünüqoruma instinkti insanların şüuruna hakim kəsilir. ”Brexit" hadisəsini, ABŞ-dakı Donald Tramp fenomenini bununla izah etmək olar. Gələn il Avropa Birliyinin 2 lokomotiv ölkəsi - Almaniya və Fransada keçiriləcək seçkilərdə də ifrat sağçı qüvvələrin uğurunu gözləmək olar - hakimiyyətə gələ bilməsələr belə, onların öz səslərini artıracağı şübhəsizdir. Baş verənlər qlobal miqyaslı yeni bir prosesin tərkib hissəsidir və bunu birbaşa Qərb-Rusiya rəqabəti ilə əlaqələndirmək doğru olmaz. Yəni, konkret Bolqarıstan və Moldovadakı seçkilərin nəticələri Qərb və Rusiyanın bu ölkələrdəki mübarizəsinin nəticəsi deyil, ilk növbədə həmin ölkələrin öz daxili problemlərindən irəli gəlir. Şübhəsiz ki, bu nəticələr Rusiya üçün əlverişli beynəlxalq situasiya yaradır. Lakin Bolqarıstan və Moldovada Rusiya ilə əlaqələrin inkişafına tərəfdar olan şəxslərin iqtidara gəlməsi, hələ ki bu ölkələrin strateji kursunun dəyişməsi demək deyil. Əvvəla, hər iki ölkə parlamentar sistemlə idarə olunur və prezidentin dəyişməsi siyasətin dəyişməsi ilə nəticələnməyəcək. Xüsusən Bolqarıstan NATO-nun, Avropa Birliyinin üzvü kimi öz strateji kursunu çoxdan müəyyənləşdirib və geri dönüş mümkün görünmür. Sadəcə, bu ölkə Avropa Birliyi daxilində Rusiya ilə bağlı bəzi məsələlər, məsələn, sanksiyaların uzadılması müzakirə olunarkən daha yumşaq mövqe tuta bilər, lakin bunun baş verməsi üçün parlament seçkilərində yeni prezident Rumen Radevin dəstəklədiyi və ya onunla eyni mövqedə olan partiyaların hakimiyyətə gəlməsi lazımdır. Ona görə də hesab edirəm ki, Bolqarıstandakı seçkilərin nəticələrini şişirtməyə ehtiyac yoxdur. Moldovada isə sosialistlərin nümayəndəsi İqor Dodonun prezident seçilməsi sürpriz kimi qiymətləndirilə bilməz. Müstəqillik dövründə bu ölkədə keçirilən seçkilərə nəzər salsaq, avropayönümlü siyasi partiyalarla sol qüvvələrin hər zaman bir-birinə çox yaxın miqdarda səs aldığını görərik. Hətta elə vaxtlar olub ki, parlamentdə 1-2 səs üstünlüyü hökumətin formalaşdırılmasında həlledici olub. 2001-2009-cu illərdə Moldovada kommunist Vladimir Voronin prezident kürsüsündə əyləşib. Kommunistlər müəyyən müddət digər sol qüvvələrlə birlikdə parlamentdə də üstünlük təşkil edərək ölkəni idarə ediblər. Yəni solçuların Moldova siyasətində hər zaman ciddi ağırlığı olub. Moldovada Rusiyaya simpatiya və bağlılığı şərtləndirən əsas amil din faktorudur. Əhalinin əksəriyyəti *(o cümlədən qaqauz türkləri)* pravoslav xristianlardır və Moldova Pravoslav Kilsəsi Moskvadakı Rus Pravoslav Kilsəsinə tabedir. Ölkədə bir müddətdir iqtidarda olan avropayönümlü sağçı qüvvələrdən, ümumən avrointeqrasiyadan məyusluq da seçkinin nəticələrində rol oynayıb. Ötən müddətdə banklardan 1 milyard dollar pulun oğurlanaraq xaricə çıxarılması ciddi narazılığa səbəb olub, bu hadisə ilə əlaqədar ölkədə kütləvi etiraz aksiyaları da keçirilmişdi".

**Politoloq Moldovanın yeni prezidentinin əvvəlki dövlət siyasətini dəyişmək imkanının olmadığını da qeyd etdi:**

“Hələlik Moldovada qərbyönlü hökumət iqtidardadır və ölkədə parlament üsul-idarəsi mövcud olduğu üçün yeni prezident İqor Dodonun strateji inkişaf kursunu dəyişmək imkanı yoxdur. Moldova Ukrayna və Gürcüstanla birlikdə Avropa Birliyi ilə assosiasiya sazişi imzalayan 3 postsovet ölkəsindən biridir. Bu baxımdan, ölkə öz strateji seçimini edib. Əslində İqor Dodonun seçkiqabağı vədləri içərisində avrointeqrasiyadan imtina məsələsi yoxdur, o, sadəcə olaraq, bütün problemli məsələlərin üçtərəfli Moldova-Avropa Birliyi-Rusiya formatında müzakirəsinə və Rusiya ilə əlaqələrin inkişafına tərəfdardır. Avrointeqrasiyadan imtina Moldovada yeni ”Maydan"la nəticələnə bilər. Çünki cəmiyyətin avanqard hissəsi olan təhsilli gənclər avrointeqrasiya tərəfdarıdır. Rumıniya ilə birləşmə tərəfdarı olan “unionistlər” də var. Bu səbəblə, sol qüvvələrin ölkənin strateji inkişaf kursunu 180 dərəcə dəyişmək kimi radikal addıma gedəcəyi az ehtimal olunandır".

❑ **Cavanşir ABBASLI**

# Yağış suları və idarəçilik prinsipi...



**Hüseynbala SƏLİMOV**

**Bəzən biz yazarlar, xüsusən də siyasi təhlilçilər sosial problemlərə, ən əsası da adi təsərrüfat məsələlərinə barmaqarası baxırıq.**

Bunun günahını bəlkə də bizim taleyimizin “aktiv”inə yazmaq daha düzgün olardı: bizə məmur olmaq, gündəlik dövlət işlərilə məşğul olmaq qismət olmadı ki, görək, bu təsərrüfat məsələləri nə olan şeydir...

Nə etmək olar? Taledir və biz də hesablaşmağa məhkumuq, ələlxüsus də yaş əllini keçəndə...

Həm də ulu millətimiz belə qərar verdi ki, indiki məmurlar daha səriştəli və işbacarandırlar. Biz də bu qərara boyun əydik...

Qərəz, nə başınızı ağrıdım, dövlətimiz yağış suları ilə qəti mübarizəyə qərar verdi. Demirəm ki, səhv etdi. Amma bir sıra nüanslar var burada...

Bir məsələ çıxan kimi başlayırıq komissiyalar, komitələr və yaxud qruplar yaratmağa. Yağış suları bir yana, devalvasiya başlayandan o qədər komissiya, komitə və qrup yaratmağa qərar verildi ki, axırda bir də gördük başımız gicəllənir...

Həmin qurumlardan neçəsinin qurulduğunu bilmirik, onu deyə bilərik ki, bütün bunlar manatın “qiblə”sini dəyişmədi...

Qayıdaq mətləbə... Bilirsiniz, son 23 ilin ən acı qənaətlərindən biri nədir? Yerlərdəki vəzifə adamlarının şəhərsalma adlı məsələdən xəbəri belə yoxdur. Hər rayonda icra aparatları var və onlara hər il xeyli vəsait ayrılır. Yağış suları və kanalizasiya məsələləri ilə də ayrıca qurum və yaxud da qrup məşğul olacaqdısa, onda icra aparatları və ya bələdiyyələr nəyə lazım idi?..

Əslində bugünün və dünənin söhbəti deyil bu... Məgər yolları təmir edərkən kanalizasiya lyukların da üstünə asfalt çəkilməsi yadınızdan çıxıbmı?

Şükr ki, böyük mətləblərə baş vura bilməsələr də, jurnalistlərimiz hələki belə problemləri işıqlandıra bilirlər...

Təsəvvür edin, icra başçılarımızdan şəhərlərin qışa, xüsusən də qarlı havalara hazır olub - olmamasını soruşanda qayırdırlar ki, bəs buralarda qış sərt keçmir və qarlı hava da uzağı iki-üç gün çəkir...

Amma bu, təbiətdir, iqlim də ildən - ilə dəyişir. Bəlkə də icra başçıları özləri çox az dəyişdirildiklərindən və vəzifədə on illərlə oturduqlarından elə bilirlər təbiətdə də belədir: hər şey sabit və sakitdir...

Bunlar da məsələnin yalnız bircə tərəfidir... İndi Bakı ətrafındakı lilli -palçıqlı yolları göstərirlər. Səhv etmirəmsə, gümanım aldatmırsa, bir neçə il əvvəl Bakı ətrafındakı yolları abadlaşdırmaq üçün xüsusi proqram qəbul edilmiş, hətta vəsait də ayrılmışdı!..

Maraqlıdır, o proqram necə icra olundu? Yoxsa orada da kanalizasiya lyuklarının üstünü asfaltladılar?..

Hakimiyyət illərdir, insanların beyninə yeridir ki, guya, “ölkə idarə etmək elmi”ndən yalnız bunlar agahdır...

Demirəm, idarə edə bilmirlər. Bilməsəydilər, 23 il hakimiyyətdə olmazdılar. Amma necə idarə edirlər?.. Sual da budur. Bir az əvvəldə ərz etdiyim kimi, 20 ildə adicə yol çəkməyi də əməlli-başlı öyrənə bilməyiblərsə, hansı ciddi təcrübədən və ya səriştədən danışmaq olar?...

Bəzən özləri də çaşaraq ictimaiyyətə elə xəbərlər çatdırırlar ki, bunların “səriştə”sinin bütün mahiyyətini gözəlcə açır...

Yaxınlarda telekanalların birinə baxırdım. Deyirdilər ki, bəs filan rayonda filan bina əsaslı təmirdən sonra yerli sakinlərin istifadəsinə verilib...

“Filan bina”nın “filan rayon”un sakinlərinə nə qədər gərəkli olub - olmamasını bir tərəfə qoyuram. Lap tutaq ki, gərəkdir, hətta vacibdir!..

Başqa sual rahatlıq vermir adama. Görəsən, bunların tikdiklərinin istismar müddəti neçə il olur? Cəmi üç-beş il öncə inşa edilmiş tikilinin əsaslı təmirə ehtiyacı olarmı?..

Nə isə. Çox yormayacam sizi... Hətta onu da qəbul edirəm ki, Bakı son illərdə çox böyüyüb, az qala, lap meqapolis olub...

Bu səbəbdən də bəlkə də Bakının kanalizasiya sistemini tamam yenidən qurmağa ehtiyac var. Bütün bunlar, necə deyər, qəbul...

Amma neçə illər Avropa Şurasında olsaq da, nəticə etibarilə Avropadan heç nə götürmədik. Bəli, Avropa idarəçilik modelinin əsasını subsidarlıq prinsipi (yerlərdə həll oluna bilən bütün məsələlər yerli hakimiyyətlərin səlahiyyətinə verilir!) təşkil edir...

Doğrusu, vaxtilə mən də bir vətəndaş və sakin kimi bizim bu bələdiyyələri icra institutları - meriyalar yanında kiçik parlamentlər kimi təsəvvür edirdim. Amma, necə deyər, olmalı idi, olmadı...

Düşünürdüm, bələdiyyələr meriyaların işinə ciddi nəzarət edəcəkdir, hətta lazım gəlsə, merin təzədən seçilməsini (və ya təyin edilməsini!) də gündəmə gətirə biləcəkdir. Camaat da “bələdiyyə” sözünü eşidəndə daha üz-gözünü turşutmayacaq... Amma hanı bütün bunlar? Nə əməlli-başlı bələdiyyə var, nə də ki, onun seçkiləri...



# Qurama şounun boylu gəlini

Samir SARI

**Ogün Türkiyədə fəaliyyət göstərən "Kanal D" telekanalı ilə "Altın kələbək" ödüllərinin, türkün sözü, dağıdılması törəninə baxırdım. Maraqlıydı.**

Amma arada bir qanqaraçılıq oldu. Bir gədə səhnəyə atılıb aktrisa Banu Alkanın mərasimə dəvət edilməməsinə dair söz söylədi və sonra da dedi ki, bu boyda zalda Banu Alkan qədər gözəl bir xanım görmür. Aparıcı Okan Bayülgən ha ortalığı düzəltməyə çalışdı, xeyri olmadı, axırda kameralar tamaşaçıları göstərdi və bu arada, güman ki, səhnədəki gerontofil (qoca qadınları sevən) gədəni danaboyun (və ya itsürütməsi) eləyib apardılar.

Ancaq törəndə iki maraqlı epizod oldu ki, bunlar bugünkü mövzumuzun açar-kilid hissəsidir. Biri odur ki, FOX TV-nin ölkəmizdə də məşhur olan və sevilən aparıcısı Fatih Portakal mükafatını alanda belə bir cümlə qurdu: "Bu ödülü bütün televizyonçular adına almıram, vicdanlı, dürüst, tərəfsiz xəbərlər verən məsləkdaşlarım adına alıram".

Fatih qardaşın bu fikri alqışlarla qarşılandı və məlum oldu ki, Türkiyədə də müxalif düşüncəli jurnalistlər, saraya yaltaqlıq etməyənlər edənlərdən daha çox sevilir. Xatırlayırsınızsa, bizdə jurnalistlər günündə əksər insanlar bütün jurnalistləri yox, dürüst, obyektiv saydıqlarını təbrik edirlər.

Burası belə. İndi keçək söhbətin ikinci hissəsinə.

"Doğan qrup"un payladığı ödülləri, əlbəttə ki, bu media qrupuna daxil və yaxın olan telekanal və qəzetlərin, eləcə də bu TV-də yayınlanan serial və verilişlərin alması təbii idi. Ona görə də heç kəs "Kanal D"-də efirə çıxan "Qismətsə olur" verilişinin aparıcısı Seda Akgülün "Altın kələbək" almasına şaşırmadı. Düzdür, 45 yaşını aşırmış Seda xanımın səhnəyə tətilə getmiş 15 yaşlı lisey qızları kimi, dizindən iki qarış yuxarı əlbisədə çıxması bir az dartışmalıydı, amma bunu xanım bilər, bir də axırıncı əri bilər, kimin nə borcunadır. Əsas məsələ xanım Akgülün iki cümləylə mükafata layiq görülmüş verilişinin tənqid edilməsinə deyinməsiydi.

S.Akgül dedi ki, onun verilişinin qurama olduğunu deyənlər bilsinlər, "Qismətsə olur"da tanış olan, bir-birinə mehr salan cütlüklərin biri artıq uşaq gözləyir, iki cütlük isə hələ nişanlıdır.

Aparıcı xanım bunu ona görə dedi ki, Türkiyədə bu verilişin quramalığı, xüsusi bir ssenari əsasında çəklidiyi, dava-dalaşların saxta, sevgilərin ondan da saxta olduğu barədə geniş yayılmış iddialar var. Hətta bir dəfə məşhur siyasət yazarı Emil Çölaşan bu cür saxta verilişlərin içini, mahiyyətini açan bir yazıyla çıxış etmiş, türk toplumunun, milyonlarla tamaşaçının həyasızcasına aldadıldığını göstərmişdi.

O yazıdan, ifşaedici faktların açıqlanmasından sonra da Türkiyədə, eləcə də bizdə milyonlarla izləyici o cür verilişlərə tamaşa etməkdə, iki gün əvvəl "birlikdə bir yola çıxdıq" deyən erkək yarışmaçının qəfildən "nervilənib" sevgilisindən ayrıldığına, qızın həzin musiqi sədası altında göz yaşı tökməsinə *(hərçənd gələn verilişdə başqa bir damad namizədi ilə "yola şıxacaq")* üzülməkdədir.

Telekanallar bu cür verilişlərlə reytinq qazanmaqda, reklam tutmaqda, milyonlar qazanmaqdaykən, milyonlar ekran qarşısında qəhr olmaqdadır: göz yaşları sel olub gedir, camaat ictimai yerlərdə, kollektivlərdə bu insanların taleyini müzakirə edir. Axırda da belə, Aydın Doğan reklamlardan milyonlar qazanır, Seda Akgül çıxıb ödül alır və müjdə verir ki, verilişdə sevib-sevilən gəlinlərdən biri boyludur.

Axtarsan, belə verilişlər dünyanın bütün ölkələrində var. Hər yerdə camaatı aldadır, ağladır, güldürür, pul-para qazanırlar. Hər yerdə hamı bilir ki, bütün bu səhnələr qurub-quraşdırmadır. Və bütün ölkələrdə televiziya tamaşaçılarının mühüm bir hissəsi bunu bilə-bilə bu cür verilişlərə baxır. Ona görə ki, bu, onlara maraqlı gəlir.

Bir qrup insan da var ki, belə qurama verilişlər onlara maraqlı gəlmir, baxmırlar, hətta özləri ilə qürur duyurlar ki, bu cür verilişlərə baxmayacaq qədər yüksək səviyyəli zövqləri var.

Bizim ölkəmizdəki analoji verilişlərə gəlincə, biz indiyə qədər verilişlərin qurama olduğunu bilməyə-bilməyə baxırdıq, amma artıq bilə-bilə baxacağıq. Burada ürəyə salmalı bir bir şey yoxdur. Biz ətraf dünyanı yamsılayıb-kopyalamaq meyli güclüdür, arada baltanı daşa vurmaq halları da təbiidir.

Kim istəmirsə, öz zövqünü yüksək hesab edirsə, qurama verilişlərə baxmasın.

# Hadı Rəcəbli Lənkəranda özünə heykəl qoydurub

## Deputatın "Palıdlı sahil"indən "Mayak"ına uzanan mübhəm izlər...

**Hadı Rəcəblinin qalmaqallı müsahibələri ona dövri mətbuatda "kasıbların qənimi" imicini qazandırıb. Son olaraq Qarabağ əlillərinə güzəştlərin ləğv olunması ilə gündəmə gələn Milli Məclisin Əmək və sosial siyasət komitəsinin sədri guya doğma Lənkəranından gəlmiş dəstək məktublarını dövrü mətbuata ötürdü.**

"Azpolitika" saytı belə silsilə məktublardan beş-altısını yaxınlarda öz səhifələrində yayıb: "Azərbaycan Vətən Müharibəsi Veteranları İctimai Birliyi" Lənkəran şöbəsinin sədri İlham Qurbanov: "Hadı müəllim bütün dövrlərdə bizə yaxından köməklik göstərmişdir. Onun yazdığı qanunlar həmişə biz veteranların mənafeyini müdafiə edib. Bu işlərin qanun-yaradıcılıq prosesində heç bir millət vəkili Hadı Rəcəbli qədər fəal iştirak etməmişdir". Lənkərandan göndərilmiş məktubların birində mətləb lap qəlizdir: "Aprel döyüşləri"ndə yaralanmış sıravi əsgər, Lənkəranın Verəvul kənd sakini Kamil Qurbanlı görün orda nə deyir: "Əslən bizim kənddən olan Üzeyir Cəfərov adında bir nəfər var. Tanışlarımdan telefon nömrəsini öyrənib dəfələrlə onunla əlaqə saxlamaq istəmişəm, ancaq alınmayıb. Nə vaxtsa onunla danışmaq nəsib olsa soruşacam mən vətən uğrunda yaralananda sən mənim ziyarətimə gəlmişdin, ya Hadı müəllim? Mənim müalicəmi, problemlərimi kim həll etmişdi? Sənin də, mənim də doğulub böyüdüyümüz kənddə yeni tipli məktəbin, poctun, həkim məntəqəsinin tikilişi bilavasitə Hadı müəllimin sayəsində olmuşdur. Yalanı şərh yazıb müzakirə etmək ayıbdı".

Məktubun izi ilə durub gəldik Lənkərana. Gördük Hadı Rəcəbli "Cənub incisi" adlanan bu gözəl ünvanda, bəli, nəhəng tikinti işləri ilə məşğuldur. Çoxsaylı turistlərin istirahətini də təşkil edir. Ancaq turistlərin arasında əli əsalı veteranlar deyil, daha çox ağır çəkili dövlət məmurları, AA seriyalı qara nataraz maşınlardan düşən biznesmenlər çoxluqdadır.

***

Sovet hakimiyyəti Lənkəranda nə edib, hə, sizdən soruşuram? Heç nə, varlıların mülkünü, malikanələrini əllərindən alıb qapazlayıb. Ötürüb kasıbların ixtiyarına. Çöndərib bu mülkləri uşaq bağçalarına, idman zallarına, kitabxana və s. kimi sosial təyinatlı müəssisələrə. Bəs Hadı Rəcəbli nə edib əvəzinə? Heç, götürüb həmin mülkləri yenidən özəlləşdirib. Ancaq öz həqiqi sahiblərinə qaytarmayıb bu malikanələri...Öz kefinə iş görüb bu ünvanlarda.

Belə ünvanlardan biri Lənkəranın düz mərkəzində, Heydər Əliyev prospektindəki "Mayak" hotelidir. Əvvəllər, Nikolay zamanları qırmızı kərpicdən binə edilən bu memarlıq abidəsi yerli milyonerlərin birinə məxsusmuş. 1920-ci il aprel işğalından sonra bina milliləşdirilir. Dönür uşaq xəstəxanasına. Minlərlə xəstə uşağın gözündə ikinci ev statusunu qazanır. Hadı Rəcəbli burda da tarixin təkərini geri fırlatmağı bacarıb, vallah. Sosial təyinatlı müəssisəni döndərib şəxsi mülkə. Sonra birinci mərtəbəsində "Zaminbank" şöbəsini açaraq başlayıb Rusiyadan Lənkərana axan pul selinə nəzarət etməyə.

Binadakı hotelə girərkən ortada bir uşaq oyuncağı-masaüstü futbol meydançasını aşkarlayıb sevindik. Dedik özümüzə - futbolçu istedadımızı gərək bu meydançada sınayaq. Bu vaxt hotel qapıçısı, kasıbtəhər yaşlı kişi "Patronundu. Yadından çıxıb qalıb burda. Nəvələri çox sevərlər bu oyunu" deyib, bizi bəzi gizlinlərlə tanış edir. Bəlli olur ki, işçilər öz aralarında Hadı Rəcəbliyə "patron" deyə müraciət edirlər. Görürük, nəvələri də futbol həvəskarıdır, babaları da. Amma hərdən başları özgə, yad işlərə çox qarışır elə bil ki. Əşyalarını, bu futbol oyuncağı kimi, orda-burda tez-tez unudub gedirlər...

Hadı Rəcəblinin Lənkərandakı mal-mülkü təkcə elə bununla kifayətlənsəydi nə vardı ki? Deputatın bir başqa ünvanı dəniz kənarındakı "Palıdlı sahil" istirahət məskənidir. Ərazini bəzəyən gil heykəllər barədə ayrıca danışmaq lazımdı. Əvvələ, burda hamı Hadı Rəcəblini bu heykəllərin ideya müəllifi kimi tanıyır.

Xalqı da bu cür görmək istəyir "patron". Əlləri qoynunda, beli bükülü, baxışları sönük...Bu da "patron"un karetası, faytonu...Nəvələri, Hadı Rəcəblinin özü də çox sevər minsin bu karetaya...Ətrafda dolanısınlar...

Bir tərəfdə də ki, köhnə "Zaporojest"i çəpərə aldırıb. Onu Qarabağ döyüşçülərinə çox gördüyü həmin o "tır-tır"ları sovetlər dönəmində əmək veteranlarına müftə-müfəssəl verərdilər. Axtarsaq, Hadı müəllimin bioqrafiyasında əmək veteranı kitabçası, onun verdiyi güzəştlərlə alınan bir nəqliyyat da tapmaq olar. Hərçənd buna gərək yox. Görünən dağa nə bələdçi?

Öyrənəndə ki, bəs burda kral karetası, fayton da var, cumuruq həmin yerlərə. Gördüyümüzə, gözlərimizə inanmırıq əvvəlcə.


















Sonra görürük ki, yox ey, bu mənzərə ilğım-filan deyil, vallah. Tam reallıqdır. Hadı Rəcəbli reallığı. Özünü şah karetasında hiss etmək duyğusunu Hadı Rəcəbli, görünür, burda dəfələrlə yaşayıb. Amma bilməyib ki, bu hissə aludə olmaq onu hansı faciənin qapısına gətirib çıxara bilər...

Deputatın yaxınlarının idarəçiliyində olan bu obyektlərdə 1 nəfərin günlük xərcləri 100-150 manatı aşır. Üstəlik, "Palıdlı sahil"də göstərilən xidmətlərin çeşidi də genişdir.

Lənkəran çayxanalarını 1-2 saat dolaşıb çaylamaq kifayət edir ki, çoxillik deputatın gəlir mənbələri haqda müfəssəl təsəvvür yaranısın.

***

Lənkəranda gördüklərimizi yazdıq, çəkdik. Deputatın gəlirləri, maşallah olsun, az deyil. Azərbaycandakı 7 min nəfər Qarabağ qazisinin aylıq müavinətini üst-üstə toplasan tərəzi yenə də Hadı müəllimə tərəf əyilər, hətta aşar da. Belə olan təqdirdə deputatın bəzi həmkarları kimi ağzına su alıb oturması daha yaxşı olmazmı?

❑ Həmid HERİSÇİ,
❑ Elşən BALAXANILI

**Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin ötən həftə Füzuli bölgəsinə səfər edərək, aprel ayında ordumuzun düşməndən azad etdiyi Lələtəpə yüksəkliyində əsgər və zabitlərimizlə görüşməsi, işğalçıya və havadarlarına etdiyi xəbərdarlıq təkcə ölkəmizdə deyil, Ermənistanda da ciddi müzakirə mövzudur.**






# Lələtəpə xəbərdarlığı Ermənistanı təşvişə saldı

## Düşmən ölkə Azərbaycanı mühakimə etmək üçün beynəlxalq təşkilatlara müraciət etməyə başladı; **Zahid Oruc:** "Qarabağ cəbhəsində növbəti savaş lokal olmaya bilər..."

Son aylarda himayədarından "pay" aldığı silah-sursat, raket komplekslərinə görə danışıqlardan imtina yolunu seçən, üstəlik, cəbhəboyu təxribatları yenidən artıran işğalçı Azərbaycan prezidentinin xəbərdarlıqlarının ardınca ənənəvi hay-küy şousuna başlayıb.

Musavat.com erməni mediasına istinadən xəbər verir ki, Ermənistanın xarici işlər nazirinin müavini Şavarş Köçəryan beynəlxalq birliyə müraciət edərək cəbhə zonasında eskalasiyaya yol verməməyə çağırıb. Ehtiyatda olan general-mayor Vardan Avetisyan isə qeyri-nizami dəstələrin komandirlərini bütün könüllü gücləri səfərbər etməyə çağırış edib. Erməni saytları Azərbaycan prezidentinin cəbhə zonasına kamuflyajda gəlməzdən öncə ABŞ-ın yeni lideri D.Trampa yazdığı təbrik məktubunda Azərbaycanın 20% işğal olunmuş ərazisi, BMT-nin 4 qətnaməsinin icra olunmamasına diqqət çəkməsini xatırladıb.

Qeyd edək ki, Azərbaycan prezidenti Lələtəpədəki çıxışında ölkəmizin son illər ərzində milyardlarla dollar dəyərində ən müasir silah-sursat, hərbi texnika aldığını xatırlatmaqla, "əgər erməni silahlı qüvvələri aprel döyüşlərindən düzgün nəticə çıxarmasalar, gələcəkdə Lələtəpə əməliyyatı kimi bir çox uğurlu əməliyyatlar olacaq" - xəbərdarlığı növbəti döyüşlərin anonsu kimi dəyərləndirilir. Prezidentin Lələtəpədən düşmənə və beynəlxalq aləmə çağırış etdiyi saatlarda isə Silahlı Qüvvələrimizin 60 min nəfərlik şəxsi heyəti, döyüş texnikalarının iştirakı ilə irimiqyaslı hərbi təlimlərə başlayıb.

Bu arada prezident Vladimir Putin Rusiya və Ermənistanın birləşmiş ordu qrupunun yaradılması barədə saziş bağlanmasına sərəncam verib. Müdafiə Nazirliyinə Xarici İşlər Nazirliyinin iştirakı ilə Ermənistanla müzakirə aparmaq və razılıq əldə olunacağı təqdirdə sazişi imzalamaq tapşırılıb. Görünür, Lələtəpə xəbərdarlığından sonra İrəvanın növbəti dəfə həyəcanlanması Kremli bəzi addımlara vadar edib.

**Deputat, Milli Məclisin Təhlükəsizlik, müdafiə və korrupsiya məsələləri komitəsinin üzvü Zahid Oruc "Yeni Müsavat"a bildirdi ki, aprel döyüşlərindən sonra yeni təmas xətti yaranıb:** "Ermənistanın son 6 ayda həyata keçirdiyi diplomatik və hərbi tədbirlərə baxanda düşmənin Azərbaycan əleyhinə hansı əməliyyatlara əl atdığını aydın görmək olur. Sankt-Peterburq görüşü ilə bütün cəbhəyanı bölgəyə müşahidə qrupunun yerləşdirilməsinə və tərəflərin hərbi eskalasiyadan çəkinməsinə dair öhdəlik götürməsinə nail olmayınca, erməni hakimiyyəti Ağdam və ətraf rayonlara yeni texnika və canlı qüvvə gətirməyə başladı. Kəşfiyyat məlumatları ilə bunları müşahidə edən Azərbaycan tərəfi Pakistan və İsraildən aldığı silahlarla Bakının təhlükəsizliyini gücləndirmək üçün hava hücumundan müdafiə sistemlərini artırdı. Deməli, müharibə başlayacağı təqdirdə strateji nöqtələrə zərbə endiriləcəyi haqda tam əminlik var. Neft və su mənbələrinə, həmçinin enerji sektoruna gözlənilən təhlükəni neytrallaşdırmaqla arxa cəbhədə dayanıqlığa nail olan olmağa çalışan Azərbaycan prezidenti məhz ön cəbhəyə gedərək, Lələtəpədən növbəti çağırışlarını etdi. Ali Baş Komandanın hərbi libasda əsgər və zabitlərin yanında olması, döyüş tapşırıqlarına bilavasitə nəzarət etməsi ordumuza mənəvi ruh verməklə bərabər, prezidentin böyük planlarını təyin etməyə imkan verdi".

**Z.Oruc hesab edir ki, hazırki beynəlxalq şərait siyasi vasitələrin yaxın müddətdə işə düşməyəcəyini deməyə imkan verir:** "ABŞ-da keçirilən seçkilərin nəticələri Minsk Qrupunun taleyini sual altında qoyur. Belə olan təqdirdə Qarabağ cəbhəsində növbəti savaş aprel toqquşmalarından fərqli olaraq, lokal olmaya bilər. Əgər qırıcı təyyarələr və helikopterlər tankları müşayiət edirsə, deməli, çox mürəkkəb coğrafiyalarda müharibəyə hazırlıq gedir. Kəlbəcər, Laçın, Ağdərə və digər cəbhəyanı zonalarda, dağlarda və çökəklik ərazilərdə hərbi əməliyyatları yerinə yetirmək üçün ordu qüvvələri hazırlıq vəziyyətinə gətirilib. Razılaşın ki, həmin relyefləri-strateji yüksəklikləri çox asanlıqla əldən verdiyimiz halda, indi yalnız "Smerç" raketləri, yaxud T-90 tankları ilə onları geri qaytarmaq mümkün deyil. Havadan hücumsa, mülki insanları canlı şitə çevirən ermənilərin kütləvi qırğın səhnələri yaratmasının yeganə yoludur. Ona görə də qarşı tərəf dünəndən başlayaraq, Azərbaycanı mühakimə etmək üçün beynəlxalq təşkilatlara müraciət etməyə başlayıb. Hər halda, Lələtəpədən Ali Baş Komandanın baxdığı hərbi nöqtələrdə atəşkəsin pozulacağı təqdirdə daha böyük toqquşmalar qaçılmaz olacaq. Bu arada Ermənistan hakimiyyəti sürətlə silahlanma yarışına getməklə xalqın sosial vəziyyətini daha da ağırlaşdıraraq siyasi böhranı bir az da yaxınlaşdırır. Bizə də elə bu lazımdır".

**Deputat Kremllə İrəvan arasındakı növbəti hərbi razılaşmaya fərqli prizmadan yanaşır:** "1 milyondan artıq ordu qüvvəsinə malik Rusiyanın zəif bir dövlətin hərbi imkanlarına ehtiyac duyması absurd görünərdi. Lakin Ermənistan aprel döyüşlərindən sonra anti-Putin və anti-Rusiya mitinqləri ilə Moskvanın tam himayəsini qazanmaq istəyirdi. İndi qeyd etdiyiniz birləşmələrin sayı, qoşun növü, hərbi bazası bəlli olmadan onu rusların gəlib Qarabağda Azərbaycana qarşı döyüşəcəyi kimi qələmə vermək qarşı tərəfin avantürasıdır. Məqsəd Moskva-Bakı arasında yüksək siyasi-hərbi əlaqələrinə zərbə vurmaqdır. Ruslar ikinci dəfə ermənilər əvəzindən başqa torpaqlarda vuruşub işğalçılıq müharibəsində iştirak etməyəcəklər. Lakin vahid hərbi birləşmələr NATO-nun Gürcüstanda həyata keçirdiyi tədbirlərə, cənub cinahının Türkiyədən qorunmasına və Yaxın Şərqdən gələn təhlükələrə qarşı cavab reaksiyasıdır. Azərbaycan Türkiyə ilə demək olar ki, vahid ordu qüvvələri halına gəlib. Ümidvarıq ki, Rusiya siyasi rəhbərliyi ermənilərin son addımdan ölkəmiz əleyhinə canfəşanlıqla istifadəsini yaxşı görürlər. Dünənə kimi Gümrüdəki bazanı "işğalçı qüvvə" adlandıranlar indi sanki əsrin əvvəlindəki bolşeviklərin xilas ordusunu qarşılayırlar. Azərbaycan Rusiya ilə səngərdə üz-üzə deyil və Sərkisyanın avantürası onu xilas edə bilməyəcək".

**"Atlas" Araşdırmalar Mərkəzinin rəhbəri, politoloq Elxan Şahinoğlu isə bu qənaətdədir ki, Azərbaycan prezidenti İlham Əliyevin noyabrın 12-də Füzuli rayonuna səfəri zamanı bu ilin aprel ayında işğalçılardan geri alınan Lələtəpəyə gedib hərbçilər qarşısında çıxış etməsinin simvolik əhəmiyyəti var:** "Birincisi, İlham Əliyev Lələtəpəyə getməklə rəsmi İrəvanın təxribatlarına cavab vermiş oldu. Məsələ burasındadır ki, son vaxtlar Ermənistan rəsmiləri və generalları cəbhə bölgəsindəki Talış kəndinə getməklə bir növ Azərbaycana açıq verirdilər ki, "bu kənd bizim nəzarətimizdədir". İlham Əliyev isə Lələtəpəyə gedərək strateji yüksəklikdən düşmən mövqelərinə baxış keçirməklə Talış kəndinin istənilən an işğaldan azad oluna biləcəyinə eyham vurdu. İkincisi, İlham Əliyevin səfərə hərbi formada çıxmasının özü Ermənistana mesaj idi. Başqa sözlə, elə bilməyin ki, aprel döyüşləri təkrarlanmaya bilməz. Danışıqlar uzanır, ortada isə konkret nəticə yoxdur. Üçüncüsü, İlham Əliyevin vücud dili vasitəsilə verdiyi ismarıclardan başqa Lələtəpədə verdiyi konkret açıqlamalar da var idi ki, onları kifayət qədər sərt qiymətləndirmək mümkündür".

**Ekspert şübhə etmir ki, Azərbaycan hərbi potensialını artırmaqda, yeni növ silahlar almaqda davam edəcək:** "Prezidentin "Şuşa və Xankəndi də Azərbaycandır" sözləri isə ona dəlalət edir ki, söhbət yalnız Dağlıq Qarabağ ətrafındakı rayonların boşaldılması vacibliyindən getmir, sıralamada Dağlıq Qarabağın özü də var. Dördüncüsü, İlham Əliyevin Lələtəpədə verdiyi ən əhəmiyyətli mesajlardan biri bu oldu: "Ermənistan rəhbərliyi başqasının gücünə güvənməsin". İlham Əliyev bu cümləsində Rusiya-Ermənistan hərbi ittifaqını nəzərdə tutub. Yəni dövlət başçısı demək istəyib ki, Ermənistan hakimiyyəti və cəmiyyəti elə bilməsin ki, Rusiya-Ermənistan hərbi ittifaqına görə Azərbaycan işğal altındakı torpaqları güc yolu ilə həllinə girişə bilməz. Rusiya Dağlıq Qarabağ və ətraf rayonları Azərbaycanın ərazisi sayır. Deməli, Rusiya digər ölkələr kimi Azərbaycanın bu torpaqlardakı hüququnu tanıyır. Yox, əgər Rusiya hərbi birləşmələri işğalçı ilə birgə Azərbaycana qarşı hər hansı təxribat həyata keçirərlərsə, müharibə total xarakter daşıyacaq ki, bu, heç Rusiyanın da maraqlarına cavab vermir".

Ekspertin fikrincə, Putinin Ermənistanla birgə qoşun yaradılması barədə sənədi imzalaması təsadüf də ola bilər, mesaj da...

Lakin eyni zamanda növbəti "təsadüf"ün olması inandırıcı görünmür. Belə ki, Rusiya Ermənistana 6 ədəd "Smerç" reaktiv artilleriya sistemi və 6 ədəd TOS-1A ("Solnçepyok") ağır odpüskürmə sistemi verəcək. (axar.az) Dünya Silah Ticarəti Analizi Mərkəzinin hesabatında bildirilir ki, Ermənistan bu "Smerç" sistemlərinə görə Rusiyaya 60 milyon dollar, "Solnçepyok"a görə isə 40 milyon dollar ödəməlidir. Bu il İrəvan Rusiyadan "Tiqr" tankları və "İqla-S" zenit-raket kompleksləri də alacaq.

Moskva Azərbaycana silah satdığına görə şivən qoparan işğalçı nədənsə bu faktların üstündən sükutla keçir. Rusiya prezidentinin son qərarı və Ermənistana göndəriləcək silahlarla bağlı məlumat şübhə yoxdur ki, panik vəziyyətdə olan Ermənistanı sakitləşdirmək niyyəti daşıyır. Moskva Ermənistanda yenidən anti-Rusiya aksiyalarının başlanmasını istəmədiyi üçün ermənilərə təskinlik verir.

Amma şübhə yoxdur ki, bununla Kreml Bakını növbəti silah və hərbi texnika almaq üçün hərəkətə keçməyə də sövq edir. Necə ki, Rusiya Federasiya Şurasının üzvü Nikolay Rıjkov ötən həftə buna eyham vuran açıqlama vermişdi. Dekabr ayında isə bu mövzuda müzakirələrə məsul şəxslərdən biri, Rusiya baş nazirinin müavini Dmitri Roqozin Bakıya gələcək.

Azərbaycan Respublikasının Prezidenti yanında Kütləvi İnformasiya Vasitələrinin İnkişafına Dövlət Dəstəyi Fondunun maliyyəsi əsasında. Səhifəni hazırladı: Elşad PAŞASOY

YENİ MÜSAVAT
N 253 (6574) 15 noyabr 2016



# Manatın dəyərdən düşmə tempi sürətlənib

## Natiq Cəfərli: "İlin sonuna qədər hər gün manatın məzənnəsində yeni rekordlar görəcəyik"

**Milli valyuta olan manat artıq ciddi şəkildə ucuzlaşmaqdadır. Manat hər gün bir qədər də dollar qarşısında dəyər itirir. Ekspertlər bildirirlər ki, artıq hökumət manatın ucuzlaşmasını sürətləndirməklə, qəfləti devalvasiyanı gecikdirmək istəyir. Ancaq manat hər gün bir az da dəyər itirir. Ekspertlər ilin sonunda bir dolların iki manata qədər bahalaşacağını da proqnozlaşdırırlar.**

**Ekspert Natiq Cəfərli** məsələ ilə bağlı musavat.com-a açqılamasında bildirib ki, manatın ucuzlaşma sürəti artıb: "Görünən odur ki, Mərkəzi Bank manatın dəyərdən düşməsinin sürətini artırıb. Bu da anlaşılandır. Çünki bir gecəlik kəskin devalvasiyaya getmək istəmir. Kəskin devalvasiya Azərbaycan iqtisadiyyatına az qala sağalmaz yaralar vurub. Bank sistemini iflic vəziyyətə salıb. Buna görə Mərkəzi Bank və hökumət bir gecəlik devalvasiyadan çəkinir. Ona görə manatın dəyərdən düşmə sürətini artırıb. Çünki son zamanlar məzənnənin dəyişmə dinamikasına baxdıqda, bunu aşkar görmək olur. Bununla Mərkəzi Bank həm də ölkənin valyuta ehtiyatlarının qorunmasına çalışır. Həm də ABŞ-ın Federal Rezerv Sisteminin faiz artımına indidən hazırlaşır. Çünki dekabrda baş verəcək faiz artımından sonra dolların dünya üzrə bahalaşması sürətlənəcək. Bu sürətin qarşısını almaq üçün indidən o sürətə uyğunlaşmaq lazımdır. Mərkəzi Bank da indidən manatın məzənnəsinin dəyərdən düşməsini artırır. Düşünürəm ki, ilin sonuna qədər biz demək olar hər gün hərraclarda və Mərkəzi Bankın təyin etdiyi məzənnədə yeni rekordlar görəcəyik. İlin sonuna qədər hər gün bu proses baş verəcək. İlin sonuna ən yaxşı halda, dollar 1,80-1,85 manat olacaq. Daha pis ssenaridə isə iki manat ola bilər. Neftin qiymətində də kəskin enişlərin olması ehtimalı var. Bu da pis ssenarinin olacağını deməyə əsas verir. Neftin qiymətinin azalma sürəti artsa, dollar təqribən iki manata yaxın olacaq".

**Ekspert Samir Əliyev isə bildirib ki, ilin sonunda dolların qiyməti 1,80 manat civarında olacaq. Onun sözlərinə görə, FES uçot dərəcələrini qaldırmasa belə, Azərbaycanda dollar bahalaşacaq.** "Deyirlər inflyasiya 1,5 səviyyəsinə çatıb. Dekabra bir ay müddət var. Bu müddətdə Amerika iqtisadiyyatında hansısa bir dəyişiklik ola bilər. Əgər inflyasiya arzuolunan səviyyəyə- heç olmasa 2 faizlik həddə yaxınlaşarsa, uçot dərəcələri qaldırılacaq. Əgər makroiqtisadi vəziyyət pisləşərsə, işsizlik artarsa, inflyasiya səviyyəsi bir az da aşağı düşərsə, onda uçot dərəcələrinin qaldırılması gələn ilə saxlanıla bilər. Dekabra yaxın zamanda iqtisadi mənzərə bir az da aydınlaşacaq. Onda nisbətən fikir söyləmək olar. O zaman dollar dünya bazarlarında bahalaşacaq. Bu gün dolların tendensiyası bahalaşma istiqamətində olacaq. Azərbaycanda da dərəcələr qaldırılmasa belə dolların bahalaşması prosesi gedəcək. Sadəcə, dərəcələr qaldırılsa, dolların bahalaşması bir qədər də sürətlənə bilər. Hər bir halda bizdə manat bazar dəyərini almadığına görə məzənnəsi getdikcə aşağı düşməkdə davam edəcək. Bu prosesi indi də müşahidə edirik",- deyə o, "Bakupost"a açıqlamasında bildirib.

**Ekspert dolların bahalaşmasında həm daxili, həm də xarici amillərin rol oynadığını vurğulayıb:** "Əgər proses indiki məcrada davam edərsə, gözlənilməz hadisələr baş verməzsə, ilin sonunda dollar 1,80 olacaq. Söhbət rəsmi məzənnədən gedir. Amma gözlənilməz fövqəladə bir hadisə baş verə bilər. Yəni neft birdən-birə kəskin ucuzlaşa, həm xarici, həm daxili bazarlarda hər hansı panika, ölkədaxili siyasi və maliyyə gərginliyi yarana bilər. Bu amillər məcbur edə bilər ki, manat daha çox ucuzlaşsın. Amma adi qaydada düşünürəm ki, ilin sonunda dollar 1,80 civarında olacaq".

**Onun sözlərinə görə, uçot dərəcələrinin qaldırılmasının Donald Trampın prezident seçilməsi ilə hər hansı bir əlaqəsi yoxdur:** "ABŞ-ın Federal Ehtiyatlar Sistemi (FES) uzun fasilədən sonra 2015-ci ilin dekabrında uçot dərəcələrini qaldırdı. 2016-cı ildə isə uçot dərəcələrini 4 dəfə qaldırması gözlənilirdi. FES Amerika iqtisadiyyatının makroiqtisadi göstəricilərinə istinad edərək bu addımı atmalı idi. Makroiqtisadi göstərici olaraq işsizlik səviyyəsinin azalması və xüsusən də inflyasiyanın 2 faizlik həddə çatdırılması idi. Çünki Amerikada inflyasiya çox aşağıdır. Hələ ki digər makroiqtisadi göstəricilər lazım olan həddə çatmadığından FES uçot dərəcələrini qaldırmaq planını hər dəfə təxirə salırdı. Əvvəl 4 dəfə deyilirdi, sonra isə bu, 2 dəfəyə salındı. Amma sonra məlum oldu ki, hazırda bir dəfə qaldırmağın özü də sual altındadır. Dekabrda bu ilin sonuncu iclası olacaq. Əvvəldən də böyük ehtimalla dekabrda dərəcələrinin qaldırılacağı deyilirdi. Noyabr görüşündə Amerikada seçki olduğu üçün bu addım atılmadı. Təbii ki, Klinton və ya Trampın hansından birinin seçilməsinin dekabrda uçot dərəcələrinin qaldırılmasına hər hansı təsiri yoxdur. Amerikada FES Mərkəzi Bank funksiyasını daşıyır. Onlar hökumətdən asılı deyillər. Yəni prezidentin kim olmasının onlar üçün fərqi yoxdur. Onlar Amerikanın manitar siyasətinə cavabdeh olan bir qurumdur. Uçot dərəcələrini qaldırıb-qaldırmamağı özləri müəyyən edir. Bu baxımdan, dərəcələrin qaldırılması Trampın seçilməsi ilə bağlı deyil. Hətta Klinton seçilsəydi belə, yenə də son sözü FES deyərdi. Amma yenə də dərəcələrin dekabrda da qaldırılması məsələsi sual altındadır. Bunu birmənalı demək çox çətindir. Amma təbii ki, ehtimal yüksəkdir".

❑ RÖYA

# Kredit borcuna görə şəxsiyyət vəsiqəsinin verilməməsi qanunsuzluqdur

## Ekspert: "Bu, hüquq və azadlıqlara birbaşa ziddir; DİN: "İddialar həqiqəti əks etdirmir"

**Ölkədə problemli kreditlərin həcmi artdıqca, buna qarşı yeni üsullar da düşünülür, vətəndaşlara kreditlərini ödəmələri üçün müxtəlif təzyiqlər edilir. Daha öncə bankların kredit borcunu vaxtında ödəməyən vətəndaşlara qarşı inzibati təzyiqlər etməsi, hətta onların evlərinə "qolu zorlu" əməkdaşlarını göndərməsi ilə bağlı mətbuat səhifələrində çoxsaylı məlumatlar dərc olunub.**




Belə görünür ki, indi də tamam fərqli üsula əl atılıb. Belə ki, deputat Fazil Mustafanın Milli Məclisdə çıxışı zamanı səsləndirdiyi fikrə görə, artıq vergi, kredit borcu olanların şəxsiyyət vəsiqələrinin vaxtını uzatmırlar. Məsələ ilə bağlı deputat tam olaraq aşağıdakıları bildirib: "Azərbaycanda bir sıra xidmətlərin "ASAN xidmət"ə verilməsi çox yaxşıdır. Ancaq indi şəxsiyyət vəsiqəsini dəyişdirmək istəyənlər üçün ciddi problemlər yaranıb. Ya kredit borcu, ya da vergi borcuna görə deyirlər ki, şəxsiyyət vəsiqəsinin vaxtı uzadıla bilməz. Vətəndaş nə etsin ki, devalvasiya baş verib, nəticədə o, yoxsullaşıb və kreditini ödəyə bilmir. Şəxsiyyət vəsiqəsi cinayətkara da verilir. Bu hüququ məhdudlaşdırmağın mənası yoxdur".

**Məsələ ilə bağlı "ASAN xidmət"in İnformasiya şöbəsinin müdiri Anar Hüseynov bildirib ki, vətəndaşlara şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi "ASAN xidmət"də həyata keçirilsə də, bu məsələ Daxili İşlər Nazirliyinin nəzarətindədir:** "Bu cür problemlə üzləşən vətəndaş Daxili İşlər Nazirliyinə müraciət etməlidir. Çünki mərkəzlərdə şəxsiyyət vəsiqəsinin verilməsi və dəyişdirilməsi xidməti Daxili İşlər Nazirliyinin əməkdaşları tərəfindən həyata keçirilir".

**Problemin hüquqi tərəfləri ilə bağlı hüquqşünas Ələsgər Məmmədli "Yeni Müsavat"a bildirdi ki, bu cür yanaşma doğru deyil:** "Çünki şəxsiyyət vəsiqəsinin verilməməsi ilə bağlı vergi və ya kreditin olması fərq etmir. Hər hansı bir vergi borcunun olması insanların şəxsiyyət vəsiqəsinə çıxış imkanını əlindən almır. Heç bir qanunda verilməyən halların içərisində bu, nəzərdə tutulmayıb. Eyni zamanda da kredit borcları, yaxud da şəxsin dövlətə olan bir öhdəliyinə görə başqa hüququndan məhrum olunması doğru yanaşma deyil. Şəxsin şəxsiyyət vəsiqəsi və ya xarici pasportu bütün hallarda onun şəxsiyyətini müəyyən edən və istisnalar olmadan təqdim edilən sənəddir. Yəni Azərbaycan vətəndaşının bütün hallarda şəxsiyyət vəsiqəsi olmalıdır. Onu identifikasiya edən sənəd şəxsiyyət vəsiqəsidir. Vətəndaş borclu olduğu, olmadığı zaman da onu identifikasiya edən sənəd şəxsiyyət vəsiqəsi sayılır. Qeyd olunan yanaşma bilavasitə hüquq və azadlıqlara ziddir. Bu, praktikada tətbiq olunsa da, hüquqda yeri yoxdur. Hüquqdan kənar praktikalar isə Azərbaycanın imicinə də zərər verir".

**Ə. Məmmədliyə görə, ümumiyyətlə, şəxsiyyət vəsiqəsinin verilməmə məsələsi ola bilməz:** "Qeyd etdiyimiz kimi, bu, insanları identifikasiya edən sənəddir. Hətta həbsxanada olan şəxsin də şəxsiyyət vəsiqəsi olmalıdır. Şəxs Azərbaycan vətəndaşıdırsa, bu sənədi almalıdır. Yaş kateqoriyasında fərq varsa, başqa formada alacaq. Bütünlükdə şəxsin vəsiqəni almasına məhdudiyyət qoyan bir hal yoxdur".

Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən isə qəzetimizə bildirildi ki, kredit borcu olanların şəxsiyyət vəsiqəsinin dəyişdirilməməsi ilə bağlı səsləndirilən iddialar həqiqəti əks etdirmir. Məlumatda qeyd olunur ki, istisna hal yalnız mülki-hüquqi öhdəliklərin icrasından yayınan və məhkəmə tərəfindən barəsində axtarış verilən şəxslərə şamil edilir. Qalan bütün hallarda vətəndaşlar istədiyi vaxt şəxsiyyət vəsiqəsinin alınması və yenilənməsilə ilə bağlı müraciət edə bilərlər. Qeyd olunub ki, hüquq-mühafizə orqanları ilə heç bir problemi olmayan, şəxsiyyət vəsiqəsinin alınmasında yaxud dəyişdirilməsində çətinlik çəkən vətəndaşlar Daxili İşlər Nazirliyinin Baş Pasport Qeydiyyat və Miqrasiya İdarəsinin Qeydiyyat və şəxsiyyət vəsiqəsi şöbəsinə müraciət edə bilər.

**Əlavə edək ki, DİN-in saytında şəxsiyyət vəsiqəsi ilə bağlı aşağıdakılar qeyd olunur:** "Azərbaycan Respublikası vətəndaşlığına qəbul olunmuş şəxsin, həmçinin vətəndaşlığa bərpa olunmuş şəxsin sənədləri. 25, 35, 50 yaşına çatdıqda və ya vətəndaşın soyadı, adı, atasının adı, yaşayış yeri, ailə vəziyyəti, hərbi vəzifəsi dəyişdirildikdə və ya onun şəxsiyyət vəsiqəsində olan yazılar təhrif edildikdə, şəxsiyyət vəsiqəsi yararsız hala düşdükdə və ya itdikdə vətəndaş şəxsiyyət vəsiqəsini dəyişdirməlidir. Şəxsiyyət vəsiqəsi 2 halda müvəqqəti alına bilər: vətəndaş həqiqi hərbi xidmətə çağırıldıqda və ya hərbi tədris müəssisəsinə daxil olduqda - hərbi xidmət başa çatanadək; barəsində həbsəalma qəti-imkan tədbiri seçilmiş və müxtəlif müddətə azadlıqdan məhrum edilmiş şəxslərdən şəxsiyyət vəsiqəsi təhqiqat, ibtidai istintaq, məhkəmə orqanları və cəzanı icra edən orqan tərəfindən müvəqqəti alınır və əsaslar aradan qalxdıqda şəxsiyyət vəsiqəsi dərhal sahibinə qaytarılır".

❑ Əli RAİS

YENİ MÜSAVAT
N 253 (6574) 15 noyabr 2016

# Rusiya kriminalının yeni bossu-qızıl medallı "Tyurik" kimdir?

## Slavyan qruplaşmasının yeni lideri haqda maraqlı faktlar

**Bu ilin avqust ayında Türkiyədə "qanuni oğru" Rövşən Canıyevin ("Lənkəranski") öldürülməsi, Ded Xasan klanında "tax-tac"a sahiblənmiş Zaxari Kalaşovun("Şakro Molodoy") həbsi, kriminal aləmin generallarından sayılan Merab Canqveladzenin ("Suxumski") isə Rusiyaya ömürlük gəlmək yasağı Rusiyadakı slavyan kriminalında yeni bossun kim olacağı barədə ciddi müzakirələrə yol açıb.**

Söhbət slavyan kriminal qruplaşmasından gedir. Primecrime.ru saytının məlumatına görə, bir neçə gün əvvəl bununla bağlı müzakirələr aparılıb. Məlumda deyilir ki, Aleksandr Petrov ("Petrik") və Oleq Şişkanov ("Şişkan") slavyan qruplaşmasına rəhbərlik etmək barədə təklifə birmənalı "yox "deyiblər. Onlar slavyan qruplaşmasına Vladimir Tyurinin ("Tyurik") başçılığını təklif ediblər. Tyurin isə bu təklifə etiraz etməyib. Oxucular üçün maraqlı olacağını nəzərə alaraq, Rusiya kriminalının yeni bossu haqda əldə etdiyimiz məlumatları təqdim edirik.

***



Vladimir Tyurin



Vladimir Tyurin 1958-ci il, noyabrın 25-də Başqırdıstan Muxtar Respublikasının Tirlyanski qəsəbəsində anadan olub. Orta məktəbi qızıl medalla qurtaran Tyurin əvvəl peşəkar musiqi təhsili alıb, sonralar isə Sankt-Peterburq Politexnik Universitetini bitirib. Həbsxanaya yolu 1974-cü ildə qarət ittihamı ilə başlayıb. Bir neçə il İrkutsk həbsxanalarında cəza çəkib.

Vyaçeslav İvankovun ("Yaponçik") İrkutsk vilayətindəki "smotryayuşi"si Aleksandr Moiseyev 1991-ci il, iyunun 10-da öz avtomobilində partlayış nəticəsində öldürülür. "Masya" ləqəbli Moiseyevin yaxın dostu olan Tyurini də bundan sonra eyni üsulla öldürmək istəyirlər. Amma maşınına atılan əl qumbarası partlasa da o, sui-qəsddən sağ qurtula bilir. 1993-cü ildə "qanuni oğru" adını "Yaponçik"in xeyir-duası ilə alan Tyurin tezliklə kriminal aləmin ən nüfuzlu liderlərindən birinə çevrilir. O, "Bratskoye" adlanan kriminal qruplaşmaya rəhbərlik edir. Əsasən alüminium və meşə təsərrüfatı mallarının Sankt-Peterburqdan Pribaltikaya, oradan isə Qərbi Avropaya daşınmasına nəzarət edən Tyurin Moskvada da bir neçə tanınmış kazinolara rəhbərlik edir.

Rusiya kriminalitetinin o zamankı ağaları - "Yaponçik", "Şakro Molodoy", Tariel Oniani ("Taro") 1990-cı illərdə Avropaya üz tutur ki, onların arasında Tyurin də olur. Əsasən İspaniyada məskunlaşan rusiyalı mafiozlar tez-tez Aslan Usoyanın da iştirak etdiyi "sxodka"larda kriminal yolla əldə edilən gəlirləri bölüşdürür, nüfuz dairələrini gündən-günə genişləndirir və Avropanın kurort şəhərlərini pulla nəzarətə almağa başlayırlar.

Nəhayət, İspaniya polisinin 2005-ci ildə Rusiya mafiyasına qarşı keçirdiyi əməliyyat zamanı bir çox "qanuni oğrular" həbs edilir. Amma Tyurin ələ keçmir. Həmin vaxt Rusiyada olan mafiozu İspaniya polisi beynəlxalq axtarışa verir. Uzun müddət ələ keçməyən Tyurin 2009-cu ildə "İnterpol" xətti ilə Monqolustanda həbs edilir. İspaniya polisi onu aparmaq üçün gələndə isə həbsxanada Tyurinin ən məşhur tryuku üzə çıxır. Belə ki, polis həbsxanada onun doğma qardaşını tapır...

2010-cu ildə FTX və Rusiya milisi (o zaman milis adlanırdı) Tyurini Moskvada həbs edir. İspaniya polisi onu kriminal qruplaşma yaratmaqda, çirkli pulların yuyulmasında ittiham edir və ekstradisiya olunması üçün icazə istəyir. Amma məlum olur ki, Tyurin Rusiya vətəndaşlığını saxta yolla alıb və əslində Qazaxıstan vətəndaşıdır. Butırka təcridxanasında o, mütəmadi olaraq "Ded Xasan"la əlaqə saxlayır. Həmin vaxt o da məlum olur ki, sən demə, Tyurin həbs edilməyənədək iqtisadiyyat və idarəçilik mövzunda namizədlik dissertasiyası yazırmış və tezliklə müdafiə edəcəkmiş. 2011-ci ildə Moskva məhkəməsi onun barəsindəki həbs qərarını ev dustaqlığı ilə əvəz edir.

2012-ci ildə vəkilləri onun Rusiya vətəndaşlığının saxta olmadığını sübuta yetirirlər. Rusiya vətəndaşının başqa ölkəyə verilməsi konstitusiya ilə qadağan olunduğundan Baş Prokurorluq İspaniya polisinin müraciətini rədd edir. Bundan sonra onun ev dustaqlığı barədə qərar da dəyişdirilir.

Məlumatlara görə, "Ded"ə yaxınlığına baxmayaraq, Tyurin eyni istedadla Rusiyanın bir çox tanınmış siyasi xadimləri, biznes dairələri, eləcə də elm və incəsənət nümayəndələri ilə ciddi əlaqələrə malikdir. Onun vətəndaş nikahında olduğu Mariya Maksakova opera ifaçısıdır və 2011-ci ildə hakim Vahid Rusiya Partiyasından deputat seçilib. Onların bir oğlu, bir qızı var. Tyurin indi daha çox alüminium, ağac məmulatları istehsalı, neft-kimya sənayesi, enerji və bank sektorunda fəaldır. Onun Moskva ilə yanaşı, Avropanın bir sıra ölkələrində daşınmaz əmlakı var.

Tyurin "Ded"in sağlığında onun klanının maliyyə məsələlərinə cavabdeh olub. Onun adı Rusiyadakı bir sıra qətllərdə hallanıb. Məsələn, Sankt-Peterburqda 1997-ci ildə öldürülən vitse-qubernator Mixail Maneviçin "Ded Xasan" klanının bu bölgədə fəallaşmasına qarşı çıxdığı üçün Tyurinin sifarişi ilə öldürüldüyü deyilir. "Tatneft"in təhlükəsizlik xidmətinin rəhbəri, "Tainvestneftqaz" firmasının baş direktorunun öldürülməsində də onun adı hallanıb.

❑ **ORXAN**

# İstismar müddəti bitmiş binalarda nə qədər yaşamaq olar?

## Ekspert: "Onların heç də hamısı qəzalı vəziyyətdə deyil"

**Bakıda 5, 7 və 9 mərtəbəli köhnə binaların sökülməsi zərurəti neçə ildir ki, müzakirə olunur. Bu ilin əvvəlində dövlət səviyyəsində də bu binaların sökülməsi və yerində yeni binaların tikilməsi üçün konsepsiya hazırlanıb. Fövqəladə hallar naziri Kəmaləddin Heydərov isə bu ilin fevral ayında sahibkarlarla görüşündə bu sahədə tikinti şirkətlərinə dəstək verəcəyini bildirmişdi. Artıq paytaxt ərazisində prosesə başlanılıb, lakin daha çox 2-3 mərtəbəli yaşayış binaları sökülür.**



Ekspertlərə görə, əvvəlcə bir əsrdən çox yaşı olan binaların sökülməsi vacibdir. **Tikinti məsələləri üzrə ekspert Nüsrət İbrahimov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, Bakıdakı 5 və 9 mərtəbəli binaların heç də hamısı qəzalı vəziyyətdə deyil: "Ancaq bəzi 2 və 3 mərtəbəli, hətta 4 və 5 mərtəbəli binalar var ki, qəzalı vəziyyətdədir. O binaların hər birinin istismar müddəti var. Məsələn, qamış evlər 15 ilə, taxta evlər 25, daş evlər 60-100 il, beton-monolit evlər isə 120-150 il üçün nəzərdə tutulub. Ancaq bu gün söküntü obyekti olan evlər əsasən XIX əsrin sonlarında, XX əsrin birinci yarısında tikilən taxta evlərdir, artıq fiziki cəhətdən tam aşınıb. Hazırda Fövqəladə Hallar Nazirliyi yerli icra hakimiyyətləri ilə bu istiqamətdə iş aparır, hansı binalar qəzalıdırsa onlar araşdırılıb, siyahısı hazırlanıb və müvafiq strukturlara təqdim olunub. Bildiyiniz kimi, bu yaxınlarda Nazirlər Kabinetində qərar qəbul olundu ki, həmin qəzalı binaların yerində yeni və müasir tələblərə cavab verən binalar tikiləcək. Hazırda bu istiqamətdə işlər aparılır. Məsələn, Bayılda və Sabunçuda işlər gedir. Bəzi yerlərdə artıq tikintiyə başlayıblar".

**Binaların sökülməsi zamanı sakinlərin hüquqlarının pozulması hallarına gəlincə, Nüsrət İbrahimov bildirdi ki, o mənzillərin əksəriyyəti özəlləşdirilmiş mənzillərdir:** "Əslində dövlət o işə qarışmamalıdır. Dövlət bu prosesdə, sadəcə, köməkçi rolunda çıxış edir. Əgər özəl mənzildirsə, mənim mənzilim qəzalı vəziyyətdədirsə, mən özüm onu sökub təzəsini tikməliyəm. Çünki bu mənim özəl mülkiyyətimdir. O baxımdan, bu işlər dövlətdən ayrı aparılmalıdır. Azərbaycanda dövlət o işə qarışır, bu da sovetdən qalan ənənəyə görədir ki, mən yaşadığım çoxmənzilli yaşayış binasında heç nə etməməliyəm, hər şeyi dövlət eləməlidir. Amma hüquqi baxımdan yanaşsaq, bu, özəlləşmiş mənzildir. Onlar binanın həm ümumi istifadədə olan hissəsinə məsuliyyət daşıyırlar, həm də şəxsi mülkiyyətində olan hissəsinə. Onlar binanı idarə etmək üçün Mənzil Mülkiyyətçilərinin Müştərək Cəmiyyəti (MMMC) formasında müstəqil bir hüquqi şəxs yaratmalıdırlar, Ədliyyə Nazirliyində dövlət qeydiyyatından keçirməlidirlər. Həmin binanı sığorta şirkətlərində sığorta etdirməlidirlər. Müəyyən qəzalı vəziyyət yarandıqda isə o binanı təmir və bərpa etdirməlidirlər".

**Hazırda yaşayış binalarının sökülməsi prosesinə dövlətin nəzarət etdiyini bildirən ekspert bunun da sovet ənənəsinin qalığı olduğunu və cəmiyyətin tələbi üzrə aparıldığını diqqətə çatdırdı:** "Ancaq bizdə o sovet psixologiyası qalıb ki, hər şeyi dövlət eləməlidir. Ona görə də dövlət bu yanaşmaları bilir və dolayı yolla da olsa dəstək olur ki, həmin binalar sökülsün, yerində yeniləri tikilsin. O ki qaldı bu tikintini həyata keçirən şəxslərin sakinlərin hüquqlarının necə təmin etməsi məsələsinə, bu, tərəflər arasında bağlanmış müqavilə ilə tənzimlənir. Mənim bildiyimə görə, bu müqavilədə nəzərdə tutulur ki, həmin ailəyə otaq sayına uyğun olaraq otaq verilir, üstəgəl, hər ailəyə əlavə olaraq 20 kvadratmetr sahə təklif olunur".

❑ **Nərgiz LİFTİYEVA**

# Göyçayda 26 yaşlı qızı qardaşı qətlə yetirdi



**Göyçayda qətl hadisəsi baş verib. Bu barədə «Trend»ə Göyçay Rayon Prokurorluğundan məlumat verilib. Hadisə noyabrın 13-də rayonun Alpout kəndində baş verib.**

Həmin kənddə müvəqqəti məskunlaşan 1990-cı il təvəllüdlü Kərimova Zeynəb İlqar qızı qardaşı, 1995-ci il təvəllüdlü, Sumqayıt şəhəri, Corat qəsəbəsi sakini Kərimov Araz İlqar oğlu tərəfindən bıçaqla qətlə yetirilib. Məlumata görə, hadisə qısqanclıq zəminində baş verib.

Keçirilən əməliyyat-axtarış tədbirləri nəticəsində qətli törədən şəxs saxlanılıb.

Faktla bağlı Göyçay Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.



## Genetik xəstəliklər gen dəyişməsi yolu ilə müalicə oluna bilər

**Ümumdünya Səhiyyə Təşkilatı bildirir ki, hər il 300 min körpə oraq hüceyrə xəstəliyi ilə dünyaya gəlir. İndi tədqiqatçılar gen dəyişməsi yolu ilə bu genetik xəstəliyin müalicəsinə yol açmağın mümkün olduğunu deyir.**

Oraq hüceyrə anemiyası oksigen daşıyan qan hüceyrələrini deformasiya edən genetik xəstəlikdir.

"Biz xəstəliyə hansı mutasiyanın səbəb olduğunu dəqiq bilirik. Onu da bilirik ki, əgər o mutasiyanı düzəldə bilsək, xəstəliyi müalicə edə bilərik", deyə UC Berklidən Mark Devit bildirir.

Sağlam qırmızı qan hüceyrələri yumrudur, oraq hüceyrələr isə aypara kimi çıxıntılıdır və qan axımı sırasında tutula bilər ki, bu da ağrılar və bəzən də orqanin zədələnməsinə səbəb ola bilər.

CRISPR Cas 9 adlanan gen dəyişməsi üsulundan istifadə edərək, Berklidə yerləşən Kaliforniya Universitetinin alimləri oraq hüceyrə xəstəliyi olan insanlardan kök hüceyrələrini alıb, mutasiyanı çıxarıb sağlam DNT ilə əvəzləyirlər.

"Biz hüceyrələri dörd ay boyunca sıçanın içinə daxil etdik. Dörd ay sonra onları çıxardıq və gen dəyişməsi səviyyələrini ölçdük. Məlum oldu ki, biz oraq hüceyrə xəstəliyi olan pasientlər üçün kliniki fayda əldə etmək üçün uyğun səviyyələrə çatırıq", deyə Devit bildirir.

Bundan sonra tədqiqatçılar artıq gen dəyişməsi prosesinin düzəltdiyindən çox problem yaratmadığını təmin etməli və daha sonra insanlar üçün də təhlükəsiz olduğunu sübut etməlidirlər. Əgər uğurlu olsa, bu üsul bir sıra digər genetik xəstəliklərdə də istifadə oluna bilər.

## Ağcabədidə 6 yaşlı uşağın müəmmalı ölümü...

**Ağcabədidə 6 yaşlı uşaq qidadan zəhərlənib. Rayon polis şöbəsindən APA-ya verilən məlumata görə, hadisə rayonun Kürdlər kəndində qeydə alınıb. Kənd sakini, 6 yaşlı Elton Şirinov evlərində pomidor turşusundan zəhərlənərək ölüb.**

Ağcabədidə 6 yaşlı uşağın qidadan zəhərlənərək ölməsi ilə bağlı bəzi təfərrüatlar məlum olub.

Rayon prokurorluğundan APA-nın Qarabağ bürosuna verilən məlumata görə, 2010-cu il təvəllüdlü Elton Şirinov ölümündən 3 gün əvvəl anası ilə birgə həbsdə olan atasının yanına gedib.

Görüşə gedən ailə özü ilə ev şəraitində bağlanmış pomidor turşusu aparıb. Onlar görüş zamanı birgə yemək yeyiblər.

Uşağın əmisi Allahverdi Şirinov APA-ya bildirib ki, görüşdən qayıtdıqdan sonra E. Şirinovun səhhətində problem yaranıb: "Dərhal kənd həkiminə müraciət elədik. Həkim sistem köçürdü. Axşamüstü Eltonun vəziyyəti daha da ağırlaşdı. Apardıq Ağcabədi Mərkəzi Rayon Xəstəxanasına. Orda həkimlərdən biri dedi ki, uşağın bağırsağında zəhərlənmə var, aparın Bərdə Mərkəzi Rayon Xəstəxanasına. Bərdədə həkimlər dedi ki, çox gecikdirmisiniz, qəbul edə bilmərik. Onlar da Mingəçevir xəstəxanasına aparmağımızı istədilər. Bərdədən çıxıb Mingəçevirə gedirdik, Yevlağa çatanda uşaq yolda keçindi".

Faktla bağlı Ağcabədi Rayon Prokurorluğunda cinayət işi açılıb, araşdırma aparılır.

**Sona əlavə - "Ağcabədi rayon sakini 6 yaşlı Elton Şirinov qida zəhərlənməsində deyil, ağciyər çatışmazlığından vəfat edib". Bunu APA-nın Qarabağ bürosuna Ağcabədi Rayon Uşaq Xəstəxanasının baş həkimi Rəfiqə Şirinova deyib:** "Düzdür, uşaqla bağlı bizə müraciət olunmuşdu. Amma müraciət edərkən uşağın vəziyyəti çox ağır idi. Növbədə olan həkim cərraha ehtiyac duyduğu üçün onu cərrahiyyə şöbəsinə göndərmişdi. Cərrahiyyə şöbəsində uşağa tənəffüs çatışmazlığı diaqnozu qoyulub. Ağcabədi Rayon Xəstəxanasında uşaq cərrahiyyəsi şöbəsi olmadığı üçün uşaq Bərdə Uşaq Cərrahiyyəsi Mərkəzinə göndərilmişdi".

**Baş həkim deyib ki, yaxınları uşağın pomidor turşusundan zəhərlənərək öldüyünü desələr də, götürülən nümunələr bunu təsdiq etməyib:** "Bizim fikrimizə görə, uşaq ağciyər çatışmazlığından vəfat edib".

6 yaşlı Elton Şirinovun babası Əsgər Məmmədov nəvəsinin həkim laqeydliyindən öldüyünü deyib. Ə. Məmmədov faktla bağlı həkimlərdən şikayətlərinin olmadığını da açıqlayıb.

## Havanın temperaturu aşağı enəcək, yağış yağacaq

**Bakıda və Abşeron yarımadasında sabah hava şəraiti dəyişkən buludlu olacaq, arabir tutulacağı gözlənilir. Bu barədə "Report"a Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Departamentindən məlumat verilib.**

Məlumata görə, noyabrın 15-də paytaxt və yarımadada səhər bəzi yerlərdə zəif duman, çiskin olacağı, axşama doğru isə yağış yağacağı ehtimalı var. Mülayim şimal-qərb küləyi əsəcək.

Havanın temperaturunun gecə 9-11° isti, gündüz 12-15° isti olacağı gözlənilir. Bakıda gecə 9-11° isti, gündüz 12-14° isti olacağı gözlənilir.

Atmosfer təzyiqi normadan yüksək 766 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 80-90 %, gündüz 65-75 % təşkil edəcək.

Tibbi-meteoroloji proqnoza görə, noyabrın 15-dən 17-si gündüzədək Abşeron yarımadasında meteoroloji amillərin mülayim tərəddüdü meteohəssas insanlar üçün nisbətən əlverişlidir.

Azərbaycanın rayonlarında hava şəraiti əsasən yağmursuz keçəcək. Gecə və səhər bəzi yerlərdə duman, çiskinli olacağı, lakin axşama doğru arabir yağış yağacağı gözlənilir. Qərb küləyi ayrı-ayrı yerlərdə arabir güclənəcək.

Havanın temperaturunun gecə 5-9° isti, gündüz 11-16° isti, dağlarda gecə 2° şaxtadan 3°-dək isti, gündüz 5-10° isti olacağı gözlənilir.

## Kişilər!!! Axırıncı şans!!!

**İsrail təbabəti** tətbiq edilir!

Əgər Sizə nə **Azərbaycanda,** nə də **xaricdə heç kim kömək edə bilməyibsə, onda yaxşı insanlara, aşağıdakı xəstəlikləri,** keyfiyyətli, qısa müddətlə və tam müalicəsini **d-r Vaiz Səmədov apara bilər:**

* **Cinsi zəiflik, meyilin və ereksiyanın azalması tam impontensiyədək** (yaşdan və səbəbdən asılı olmayaraq)
* **Cinsi marağın** və **cinsi aktların** azalması
* **Vaxtından tez** toxum **ifrazatı** (səbəbdən asılı olmayaraq)
* **Toy gecəsinin** uğursuzluqları **(kişi tibbi problemlər)**
* **Prostatitlər.** Prostat vəzin **böyüməsi** və ya **kiçilməsi**
* **Prostat adenoması** *(vəzidə düyünlərin əmələ gəlməsi)*
* **Cinsi vəzilərin**-xayaların **böyünməsi** və ya **kiçilməsi**
* **Qasıq-xayalıqda** sızıltı, küt və ya kəskin **ağrılar**
* Əvvəldən **xarici cinsi üzvün** balaca olması
* **Xarici cinsi üzvün** sonradan **birdən kiçilməsi**
* **Cinsi üzvün** düyünlə birdən **əyilməsi** (Peyroni xəstəl.)
* **Oğlan uşaqlarında cinsiyyət üzvlərinin inkişafsızlığı**
* **Uşaqlarda** gecə vaxtı **yerinə sidiyə getməsi** (***enurez***)
* Hormonal və iltihablı **sonsuzluq** (kişilər və qadınlarda da)
* **Yuxusuzluq və yuxu pozuntuları**
* Sidik aktlarının gecə ya **gündüz tez-tez olması**
* Sidik aktlarının çətinlikləri və tutulmaları
* Cinsi aktla bağlı **sidikdə** və **spermada qan olması**
* **Zöhrəvi xəstəliklərdən** sonra **qalıqlar və ağırlaşmalar**
* **Saçların** bütün formalatda **tökülməsi. Sızanaqlar**
* **Yuxuda ikən və yuxudan qalxanda qan təzyiqinin yüksək qalxması**
* **Boyun, baş, bel, ayaq ağrıları və osteoxondroz**
* Onurğa sütununun yırtığı, qulunclarin dərmansız müalicəsi

Həkimə zəng etmək üçün (saat 11.00-dan sonra)
**Tel: (050) 213 88-05.**
**Həkimin 16 TV çıxışları: youtube.com və facebook.com doktor Vaiz Səmədov.**

DİQQƏT! 2011-ci ildən bütün Beynəlxalq Bal Sərgilərinin qalibi "Darı Tyan Şana" (Qırğızıstan) şirkətinin bal və müalicəvi bal məhsulları Bakıda!

***Atbaşı balı (Ağ bal)***
***Esparset balı (monoflor)***
***İssık kul balı***
***Karkıra balı***
***Uzqen balı***
***Mumiya***
***Oqnyovka pçelinaya***
***Propolis məcunu və s.***

Şirkətin məhsulları yarmarka və bazarlarda satılmır.
Məhsulları bu ünvandan ala bilərsiniz:
Neftçi Qurban küçəsi-119. (Bayıl Doğum evinin yanı)
**Əlaqə telefonu: (012) 49123-82; (051) 922-15-71**

## Təbib Darya xanım

Onurğa yırtığı, osteoxandroz, sağalmaz yaralar, yanıqlar, uzun müddət yataqdan sonra əmələ gələn yaralar, diabetdə trafik xoralar, varikoz genişlənmələr, qadın sonsuzluğunun zəli ilə müalicəsi və digər xəstəlikləri cərrahi müdaxiləsiz, xüsusi məlhəmlərlə və xüsusi metodika ilə inyeksiyalarla müalicə edirəm.

**Tel: 070-888-91-50**

YENİ MÜSAVAT
N 253 (6574) 15 noyabr 2016

**Azərbaycan 26 ildir müstəqil olsa da hələ də milli sonluqlu soyadlar problemi həllini tapmayıb. Bunun bir səbəbi prosedurun və seçimin çətinliyi ilə əlaqələndirilir. Təbii ki, məsələdə insanların laqeydliyi də az rol oynamır. Bəs prosedur, qaydalar necədir?**

# Azərbaycanda ad-soyad dəyişimi - prosedur necədir?

"ASAN xidmət"in ictimaiyyətlə əlaqələr sektorunun rəhbəri Anar Hüseynov bildirdi ki, VAQF müvafiq qurumlardan müsbət cavab aldıqdan sonra şəxsin adı, soyadı və ya ata adı dəyişdirilə bilər: "Müvafiq sənədlər toplanır və müraciət etmək istəyən şəxslər "ASAN xidmət" mərkəzlərində Vətəndaşlıq vəziyyəti Aktları Dövlət Qeydiyyat (VAQF) şöbəsinin xidmət pəncərəsinə yaxınlaşır. Şəxs həmin sənədləri təqdim etdikdən sonra VAQF özü müvafiq qurumlara sorğu göndərir. Həmin sorğulara müsbət cavab aldıqdan sonra vətəndaşın həmin müraciəti təmin olunur".

**Lazım olan sənədlərə gəlincə isə onlar aşağıdakılardır:**

*Adın, ata adının və soyadın dəyişdirilməsi haqqında ərizə;*

*Ərizə verən şəxsin doğumu haqqında şəhadətnamə;*

*Ərizə verən şəxs nikahdadırsa, nikah haqqında şəhadətnamə;*

*Ərizə verən şəxsin nikahı pozulmuşdursa, nikahın pozulması haqqında şəhadətnamə;*

*Ərizə verən şəxsin yetkinlik yaşına çatmayan uşaqları vardırsa, onların doğumu haqqında şəhadətnamələr;*

*Şəxsiyyəti təsdiq edən sənədin notariat qaydasında təsdiq olunmuş surəti;*

*İlkin hərbi qeydiyyata alınma haqqında vəsiqənin və ya hərbi biletin notariat qaydasında təsdiq edilmiş surəti;*

*Ərizə verən şəxsin 3x4sm ölçüdə 2 ədəd fotoşəkili;*

*Dövlət rüsumunun ödənilməsi barədə sənəd.*

**Qeyd:** hər iki valideynin soyadı dəyişdirildikdə, yetkinlik yaşına çatmayanların soyadı dəyişdirilir. Soyadı valideynlərdən biri dəyişdirərsə, onun yetkinlik yaşına çatmayan uşaqlarının soyadının dəyişdirilməsi məsələsi valideynlər arasında razılığa görə, razılıq olmadıqda isə yerli icra hakimiyyətinin qəyyumluq və himayə orqanı tərəfindən həll edilir. İştirak etməli olan şəxslər isə uşaq 18 yaşına çatanadək onun valideynləri, ərizə verən şəxsin özü, notariat qaydasında təsdiq olunmuş etibarnamə əsasında səlahiyyətli şəxslərdir. Adın, ata adının və soyadın dəyişdirilməsinin qeydə alınması üçün 10 manat dövlət rüsumu ödənilir.



**Anar Hüseynov: "Sorğulara müsbət cavab aldıqdan sonra vətəndaşın müraciəti təmin olunur"**



**Müzəffər Baxış: "Bu məsələ Ailə Məcəlləsi ilə tənzimlənir"**

**Hüquqşünas Müzəffər Baxış bunun xüsusi qaydaları olduğunu dedi:** "Məsələ "Ailə Məcəlləsi" ilə tənzimlənir. Bunun Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş xüsusi qaydaları var. Xüsusi qaydalara əsasən soyadların dəyişilməsi proseduru nəzərdə tutulub. Azərbaycan Respublikasının vətəndaşlarının öz adını, soyadını, atasının adını dəyişdirməsinə 18 yaşına çatdıqdan sonra yol verilir. 18 yaşına çatmamışların soyadının dəyişdirilməsi isə valideynlərin razılığı ilə müvafiq icra hakimiyyətinin və yerli icra hakimiyyətinin qəyyumluğu və himayə orqanının razılığı ilə həyata keçirilə bilər. Soyad sonluğuna dəyişiklik edilməsi, soyadın özünün dəyişdirilməsi prosedurları Azərbaycanda 18 yaşına çatmış hər bir vətəndaşın ərizəsinə əsasən onun mövcud soyadının sonluğuna dəyişiklik edilir. Azərbaycan vətəndaşlarının adının, ata adının və soyadının dəyişdirilməsi qeydiyyat şöbəsi və ya konsulluq tərəfindən həyata keçirilir. Adın, ata adının və soyadın növbəti dəfə dəyişdirilməsinə ər arvadın bir birinin soyadına keçməsi və ya əvvəlki soyadına qayıtması halları istisna olmaqla, həmin qaydalarda müəyyən olunmuş hallara yol verilir. Ərizə verən şəxsin ata adı onu tərbiyə etmiş şəxsin razılığı ilə həmin şəxsin adı ilə dəyişdirilir. Əslində soyadın, adın dəyişdirilməsində bir problem olmamalıdır".

Ad-soyadını dəyişdirmək istəyənlər bunu elektron qaydada da edə bilər. Belə ki, 2016-cı ilin sentyabrında Ədliyyə Nazirliyinin Kollegiyası "Adın, ata adının və soyadın dəyişdirilməsi haqqında vətəndaşlıq vəziyyəti aktının dövlət qeydiyyatı üçün müraciətin və sənədlərin qəbulu üzrə inzibati reqlament"i təsdiq edib. Ədliyyə Nazirliyi tərəfindən təqdim edilən (http://www.e-gov.az; http://exidmet.justice.gov.az) bu elektron xidmətin digər icraçıları Daxili İşlər Nazirliyinin rayon və şəhər polis orqanlarıdır. Elektron xidmət qismən avtomatlaşdırılıb. Elektron xidmətin icra müddəti 25 gündür. Ancaq polis orqanı tərəfindən rəyin verilməsi üçün tələb olunan müddət və xarici dövlətlərdə doğulmuş Azərbaycan vətəndaşının adının, ata adının və soyadının dəyişdirilməsi haqqında müraciət üzrə müvafiq akt qeydlərinin xarici ölkələrin səlahiyyətli orqanlarından əldə edilməsi müddəti istisna edilir. 18 yaşına çatmış fiziki şəxslərin istifadəçisi ola biləcəyi elektron xidmət üzrə ödənişə 10 manat dövlət rüsumu daxildir.

❑ **Günel MANAFLI**

# Banklar reytinq agentliklərindən imtina edir - səbəb

## Ekspertlər bildirirlər ki, banklar artıq xaricdən kredit ala bilməyəcəklər, bu səbəbdən reytinqə ehtiyac duymurlar




**Azərbaycan bankları beynəlxalq reytinq agentlikləri ilə əməkdaşlığı dayandırmağa başlayıblar. Artıq bir neçə kommersiya bankı "Fitch" ilə əməkdaşlığı dayandırıb. Fins.az bank sektorundakı etibarlı mənbələrə istinadən xəbər verir ki, artıq bir neçə bank bu addımı atıb.**

Bəs banklar "Fitch" ilə əməkdaşlığı niyə dayandırırlar? Mütəxəssislər burada dörd amili önə çəkirlər. Birinci səbəb odur ki, bankaların iddiasına görə, "Fitch" beynəlxalq reytinq agentliyi düzgün qiymətləndirmə aparmır. Hərçənd həmin banklara yaxşı reytinq verəndə agentliyə qarşı bu cür ittihamlar səslənmirdi.

İkincisi, hazırda banklar ictimaiyyətə ötürülən informasiya dəhlizini daraltmağa çalışırlar. Beynəlxalq reytinq agentlikləri isə apardığı təhlilləri tam olaraq açıq şəkildə bəyan edir və yayımlayırlar. Bankların ictimaiyyətlə əlaqələri zəif qurulduğundan, operativ reaksiya vermək qabiliyyəti və xüsusən də vərdişləri formalaşmadığından, buna adekvat addımlar atılmır və səbəblər izah olunmur. Nəticədə maliyyə qurumunun nüfuzu düşür.

Üçüncüsü, banklar belə hesab edirlər ki, hazırkı böhran şəraitində onlara beynəlxalq reytinq lazım deyil. Çünki xaricdən dollarla kredit almaq heç bir banka sərfəli deyil. Belə kreditlər yalnız iri həcmli biznes kreditləri ola bilər, lakin dünya bazarında dolların bahalaşmasını nəzərə alsaq, banklar belə kredit öhdəliklərindən də yayınmağa üstünlük verirlər. Qarşıdakı 2017-ci il boyu maliyyə böhranının davam edəcəyinə dair fikirlər də xarici kreditlərin cəlbediciliyini aşağı salır.

Dördüncüsü, beynəlxalq reytinq ağentliklərinin reytinq dərəcələndirməsi ilə bağlı təklif etdiyi xidmətlər ucuz deyil. Konkret olaraq "Fitch"in reytinq dəyərləndirməsinin qiyməti 30 min ABŞ dollarıdır. Hərçənd bu məbləği ödəyə bilməyən bankların ümumiyyətlə maliyyə sektorunda qalmasının gərəkliyi ayrı bir mövzudur.

**Ekspert Əkrəm Həsənov məsələ ilə bağlı musavat.com-a açıqlamasında bildirib ki, bankların reytinq agentliyinin qərəzli olması barədə iddiası əsaslı deyil:** "O boyda dünyada tanınmış reytinq agentliklərinin başqa işləri-gücləri yoxdur ki, bizim kiçik banklarla şəxsi qərəzlik edəcəklər? Əlbəttə yox. Bu agentliklər bütün dünyanın banklarına və şirkətlərinə reytinqlər qurur. Sadəcə, birincisi, aydındır ki, həmin reytinq agentlikləri məlumatları banklardan alırlar. Yəni maliyyə hesabatlarını banklardan istəyirlər, alırlar. Banklar maliyyə hesabatlarını artıq onlara vermək istəmirlər. Yəni vəziyyətləri pisdir, ona görə hesabatlarını reytinq agentliklərinə vermək istəmirlər. Digər səbəb budur ki, hesabatları agentliklərə verirlər və haqqında pis fikir formalaşır. Bundan qaçmaq istəyirlər, ona görə məlumatı vermək istəmirlər. Həmin reytinq agentlikləri ilə bu səbəbdən əməkdaşlıq etmək istəmirlər. Prinsipcə, bundan əvvəl niyə əməkdaşlıq edirdilər? Bundan əvvəl bizim banklar ona görə əməkdaşlıq edirdilər ki, beynəlxalq qurumlardan kreditlər ala bilsinlər. Çünki beynəlxalq qurumlar bizim banklara həmin reytinq agentliklərinin reytinqi olmadan kredit vermirdilər və indi də vermirlər. Bu, o deməkdir ki, həmin əməkdaşlıqdan imtina edən banklarımız artıq onsuz da xaricdən kredit ala bilmirlər. Reytinqləri pisdirsə, onsuz da onlara heç kəs kredit vermir. Hələ üstəlik, o reytinqin pis olması Azərbaycanda da onların haqqında qeyri-qənaətbəxş fikir formalaşdırır. Buna görə də onlar artıq başa düşüblər ki, vəziyyətləri onsuz da yaxşılaşmayacaq. Onsuz da xaricdən daha borc ala bilməyəcəklər. Deyirlər, onda bizə bu reytinq lazım deyil. Bu reytinq haqqında məlumat çıxan kimi ölkədə banklar haqqında mənfi fikir formalaşır. Ona görə bankların bu addımı atacağı gözlənilən idi".

❑ **RÖYA**

YENİ MÜSAVAT

Son səhifə

N 253 (6574) 15 noyabr 2016

# Pinqvinlər üçün yeraltı keçid tikildi

Yeni Zelandiyanın Oamaru şəhərində pinqvinlər üçün yeraltı keçid tikiblər. Bu barədə "Seeker" nəşri xəbər yayıb. Hər səhər kiçik pinqvinlər okean sahilinə gedir, orda bütün günlərini keçirir, axşam isə öz yuvalarına qayıdırlar. Yeraltı keçid yolda quşların maşın altında qalma riskini minimuma endirir. Bundan başqa, bu, onları turistlərin narahatçılığından da qoruyur. Avstraliya və Yeni Zelandiyadakı kiçik pinqvinlər pinqvinlərin kiçikboylu növü sayılır. Bu pinqvinlərin uzunluğu 30-40 santimetrdən hündür deyil.





## Ninza kostyumu geyindi, oğurluq etdi

Ninza kostyumu geyinən oğru Amerikanın Ankoric şəhərindəki komikslər dükanından oğurluq edib. Bu barədə lenta.ru saytı KTVA CBS telekanalına istinadən xəbər verib. Qarət şənbə gecəsi baş verib. Naməlum şəxs bağlı mağazaya girib, zalları ələk-vələk edib və piştaxtadakı oyuncaqlardan birini oğurlayaraq qaçıb. Mart ayında xəbər yayılmışdı ki, Yaponiyada turizmin inkişafı üçün altı hərbçi-ninza kirayələyəcək. Onların səlahiyyətlərinə tibbi tədbirlər, akrobatik tryukları izləmək aid idi.



## Bu klinikaya gələnlər yalançılıqdan müalicə olunur

Berlində yalançılıq xəstəliyindən qurtulmaq istəyənlər üçün bir klinika açılıb. "Sofie Charlotte" Xəstəxanasında açılan "Yalançılıqla mübarizə" bölümünə könüllü olaraq gələn və yalan söyləməkdən qurtulmaq istəyənlərin sayında gözlə görünən bir artım müşahidə olunur. Akademik adı "Psödoloji" adlanan bu xəstəliyin qurbanları yalan söyləməklə özünə zövq verəcək heyranlıqlar, əyləncələr, xoşbəxtliklər yaradacaq bir dünyanın arxasınca düşür, sonra da işi şişirdəək başqaları ilə paylaşmağa qərar verirlər. Maraqlıdır ki, klinikada gündə 100 yalan deyən insan xəstə kimi qəbul edilmir. Amma gündə 200 və ondan daha artıq yalan deyənlər mütləq müalicədən keçməlidir.

# Saqqız çeynəmək çirkinləşdirir, başı ağrıdır və...

Alimlərin apardıqları araşdırma nəticəsində çox saqqız çeynəyən insanlarda ağzın ətrafında qırışlar yarandığı üzə çıxıb. Vaşinqtondan olan kosmetik cərrah Ema Sanderamın sözlərinə görə, saqqız çeynəyən zaman çənə əzələləri lazım olduğundan artıq yüklənir və nəticədə həmin nahiyədə qırışlar yaranır. Bu, dərinin öz elastikliyini itirməsinə də aparıb çıxarır. Bundan başqa, saqqız çeynəməyin gənclərdə baş ağrıları və miqrenə səbəb olduğu məlum olub. Xroniki baş ağrıları olan və gündə 1-6 saat saqqız çeynəyən gənclər arasında aparılan araşdırmalar nəticəsində belə qənaətə gəlinib. Alimlər gənclərdən 1 ay ərzində saqqız çeynəmələrini istəyib. Saqqız çeynəməyi bir müddət tərk edənlərin baş ağrılarının tamamilə itdiyi, bəzilərinin isə müntəzəmliyinin və şiddətinin azaldığı müşahidə edilib. Yenidən saqqız çeynəməyə başlayan gənclərin qısa müddətdən sonra baş ağrıları yenidən başlayıb. Nəticədə saqqız çeynəyərkən alt çənə oynağının çox işləməsi və yorulmasının baş ağrılarına səbəb ola biləcəyi açıqlanıb. Alimlər xroniki baş ağrılarından əziyyət çəkənlərə saqqız çeynəməməyi tövsiyə edir.





## Nə qədər çox mesajlaşırsansa... o qədər etikasızsan...

İngiltərədəki Vinnipeq Universitetinin araşdırmasına görə, cib telefonu ilə mesajlaşma insanlar arasındakı münasibətlərə pis təsir edir. Belə ki, mesaja önəm verən şəxslərdə özünə arxayınlıq hissi azalır, lüksə daha həris olurlar. Araşdırmada Vinnipeq Universitetinin psixologiya fakültəsində oxuyan 2300 tələbədən alınan rəylər üç il boyunca yığılıb. Araşdırma nəticəsində çox mesajlaşan gənclərin çox sürətli və səthi düşündüyü ortaya çıxıb. Bundan başqa, tez-tez mesajlaşan gənclərin əxlaqi, estetik və ruhsal məqsədlərə az, imic və varlılığa isə çox dəyər verdiyi sübut edilib. Araşdırmaya görə, gündə 100-dən artıq mesaj yazan bir adam 50 və daha az mesaj göndərənlərlə müqayisədə etik dəyərlərə, yaşam prinsipinə 30 faiz daha az önəm verirlər. Bundan başqa, cib telefonu ilə mesajlaşan tələbələrin azlıq qruplara münasibətdə daha dözümsüz olduğu da üzə çıxıb.




**QOÇ** - Müntəzəm surətdə təmasda olduğunuz adamların obyektiv rəyləri ilə hesablaşmağa çalışın. Məsləhət almaq ayıb iş deyil. Axşam saatları qazanmaq üçün çox səmərəlidir.

**BUĞA** - Əsas diqqətinizi fəaliyyət istiqamətinə yönəldin. Qarşılıqlı münasibətlərdə, alış-veriş məsələlərində isə hansısa müvəffəqiyyət gözlənilmir. Bu gün doğmalarınıza da baş çəkin.

**ƏKİZLƏR** - Əvvəlki günlərdən fərqli olaraq bu ərəfədə rahatlıq əldə edəcəksiniz. Hər hansı konflikt gözlənilmir. Sağlamlıqla bağlı narahatçılığınız da kifayət qədər səngiyəcək.

**XƏRÇƏNG** - Maraqlı görüşlər yolunuzu gözləyir. Güman ki, sizi böhranlı vəziyyətdən çıxara bilən insanlarla qarşılaşacaqsınız. Amma belə məqamlarda təmkinli olun ki, sonda gülə biləsiniz.

**ŞİR** - İstəklərinizi reallaşdırmaq istiqamətində tənbəllik edirsiniz. Çünki sizə lazım olan bütün gedişləri bildiyiniz halda fəaliyyət göstərmirsiniz. Heç olmasa, saat 12-dən aktiv olun.

**QIZ** - Yersiz risk etməyə lüzum yoxdur. Müdriklik göstərin. Əgər haqlısınızsa, bunu gec-tez hamı biləcək. Saat 15-dən sonra şəxsi zəmində gözlənilən hər hansı münaqişədən əl çəkin.

**TƏRƏZİ** - İşgüzar və riskli sövdələşmələrdə iştirakınızı təxirə salmağa çalışın. Çünki ixtiyarınızda olan bu təqvim deyilən məsələlər üçün o qədər də önəmli deyil. Açıq havada çox gəzinməyin.

**ƏQRƏB** - Ziyarətgahlara baş çəkmək rahatlığınızı artıracaq. Əks halda, qeyri-ciddi adamların xoşagəlməz rəftarı ilə üzləşə bilərsiniz. Nahardan sonra işləriniz qaydasında getməlidir.

**OXATAN** - Günün ilk yarısında ümumi mənzərə gərgin olsa da, bunun qarşısını ala bilərsiniz. Bir az səbrli olun. Sonrakı müddətdə isə fəaliyyət zəminində böyük dönüşlər gözlənilir.

**OĞLAQ** - Çoxdan bəri donub qalmış planlarınızı dirçəltmək üçün bəzi şəxslərə müraciət etməyiniz böyük səmərə verə bilər. Qazanmaq şansınız olsa da, səhhətinizi də qoruyun.

**SUTÖKƏN** - Qarşıdakı günlər üçün nəzərdə tutduğunuz yeni ideyaları reallaşdırın ki, uğurlarınız daha da artsın. Səhhətinizə də diqqət yetirin. Axşam təmiz havada gəzinməyə çalışın.

**BALIQLAR** - İxtiyarınıza elə bir ərəfə verilib ki, yalnız öz gücünüzə güvənməlisiniz. Kənar müdaxilə və məsləhətlər o qədər də önəmli deyil. Ailə-sevgi münasibətlərinə fikir verin. Səfərə çıxmayın.

**Unutmayın, Tanrı ulduzlardan daha yüksəkdə durur!**

## Uşaqlarının xətrinə 64 kilo arıqlayan qadın

Klar Alsop adlı qadın uşaqlarının xətrinə 64 kilo arıqlayıb. O, bununla həyatında yeni bir səhifə açıb. İngiltərənin Rotherham şəhərində yaşayan 31 yaşlı qadın 2011-ci ilin yanvar ayında dietaya başlayıb. Bir il ərzində isə 134 kilodan 70-ə enməyi bacarıb. Qadını belə bir addım atmağa vadar edən səbəb isə iki uşağı olub. Kların dediyinə görə, 40 yaşına çatanda bundan daha ağır olacağını düşünüb: "Dedim, bəs onda mən onlarla ortaq heç nə edə bilməyəcəm axı? İndi uşaqlarımı uzaqdan seyr etmək əvəzinə onlarla hər cür oyunlar oynayır, gəzintilərə gedirəm".

Bu qadının arıqlama hekayəsi dünyadakı ən "prinsipal və fədakar ana" dietası olaraq tarixə düşüb.

Səhifəni hazırladı: SELCAN

Təsisçi: Rauf ARİFOĞLU
Baş redaktorun birinci müavini: Azər AYXAN

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri, R.Rüstəmov küçəsi 2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

Redaktor: Elşad MƏMMƏDLİ

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib, "Azərbaycan" nəşriyyatında çap edilib. Əlyazmalar geri qaytarılmır. Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 4.750